# 10 May – Ümummilli lideri xalqımıza bəxş edən gün

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 95 (30789) 10 may 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Xalqa bağışlanan ömrün əbədiyyəti



Səhifə ⇨ 2

## Millət Müəllimi üçün çiçəklər



Səhifə ⇨ 7

## Qarabağın dirçəlişi və yüksəlişi ümummilli hədəfdir



Səhifə ⇨ 3

## Müstəqil dövlətin tərəqqisinin Heydər Əliyev modeli



**Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyev öz dərin zəkası, uzaqgörənliyi və müdrik siyasi baxışı ilə yalnız müstəqil dövlətçiliyimizin deyil, eyni zamanda, milli iqtisadi inkişaf modelimizin təməlini qoyub.**

Bu model postsovet məkanında nadir hallarda müşahidə edilən şəkildə müstəqil iqtisadi siyasət kursunun formalaşdırılmasına, milli maraqlara söykənən inkişaf xəttinin müəyyən olunmasına və Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasına xidmət edib.

**(ardı 12-ci səhifədə)**

## *Konstitusiya və suverenlik:*

## Heydər Əliyev siyasi irsinin təməl sütunları



**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə elan edilmiş “Konstitusiya və Suverenlik İli”ndə ictimaiyyətin diqqət mərkəzində dayanan ən aktual mövzulardan biri Azərbaycanın dövlətçilik tarixində Ümummilli Lider Heydər Əliyevin siyasi irsi, onun müstəqillik və suverenlik yolunda misilsiz xidmətləri ilə bağlıdır.**

Hər bir xalqın müstəqillik və suverenlik uğrunda, işıqlı gələcək naminə apardığı şərəfli mübarizə yolu vardır. Tarixi inkişafın müxtəlif mərhələlərində Şirvanşahlar, Atabəylər, Ağqoyunlular, Qaraqoyunlular, Səfəvilər, Əfşarlar kimi dövlətlər və imperiyalar quran xalqımız xarici təcavüz və işğallara məruz qalsa da, öz zəngin dövlətçilik ənənələrini, mənəvi dəyərlərini, milli kimliyini qoruyub saxlamış, nəsildən-nəslə ötürmüş, azadlıq və müstəqillik arzularını gerçəkləşdirməkdən çəkinməmişdir. 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti cəmi iki il yaşamasına və bolşevik işğalı nəticəsində süquta uğramasına baxmayaraq, müasir, milli suveren dövlət qurmaq, onun idarəçilik, müdafiə, təhlükəsizlik institutlarını formalaşdırmaq, ölkənin beynəlxalq əlaqələrini təşkil etmək ənənəsini yaratmışlar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1995-ci il mayın 27-də Respublika Günü münasibətilə keçirilən təntənəli yığıncaqda demişdir: “Ən böyük nailiyyət, tariximizə yazılmış qızıl səhifə ondan ibarətdir ki, çoxəsrlik tariximizdə ilk dəfə Azərbaycan xalqı dövlət müstəqilliyini əldə edə bilmişdir, müstəqillik əhvali-ruhiyyəsini hiss edə, dərk edə bilmişdir, müstəqil yaşamaq, öz taleyinin sahibi olmaq duyğularını dərk edə bilmişdir”.

Təəssüf ki 1990-cı illərin əvvəllərində SSRİ dağılarkən və keçmiş müttəfiq respublikalar müstəqillik əldə etmək imkanı qazanarkən Azərbaycanda AXC-Müsavat iqtidarı keçmişin təcrübəsindən və acı dərslərindən nəticə çıxara bilmədi.

1991-ci il oktyabrın 18-də “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı qəbul edilməsinə baxmayaraq, iqtidarda olan qüvvələr qarşılarında duran vəzifələri yerinə yetirmədilər. Ölkə daxilində anarxiyanın baş alıb getməsi, hakimiyyətin müxtəlif qruplar tərəfindən idarə olunması dövlət suverenliyinin oturuşmasını və müstəqil siyasət yürüdülməsini mümkünsüz hala gətirmiş, yaşanan hərc-mərclik ölkəni sanki feodal pərakəndəliyi dövrünə qaytarmışdı. Ali hakimiyyət müxtəlif qruplar tərəfindən idarə olunurdu, Qarabağ və Şərqi Zəngəzur Ermənistanın işğalı altına düşmüşdü, ölkə parçalanma həddinə çatdırılmışdı. İstər XX əsrin əvvəllərində, istərsə də sonunda Azərbaycan öz müstəqilliyinə qovuşmaq imkanı qazandığı dönəmlərdə cərəyan edən proseslər göstərdi ki, bir dövlət üçün müstəqillik və suverenlik yolunda həlledici amillərdən biri də real şəraiti düzgün qiymətləndirməyi, dövlətin bütün resurslarını vahid məqsəd uğrunda səfərbər etməyi bacaran, geniş dünyagörüşlü, möhkəm əqidəli, həyatın çətin sınaqlarından çıxmış, ölkəsinə və xalqına bağlı olan, vətənpərvər və güclü liderin mövcudluğudur. Buna görə də, 1980-ci illərin sonları – 1990-cı illərin əvvəllərində Azərbaycan yenidən müstəqilliyinə qovuşmaq fürsəti əldə edərkən, məhz Ümummilli Lider Heydər Əliyev faktoru xalqımızın suverenlik və müstəqillik arzularının gerçəkləşdirilməsində həlledici amil olmuşdur.

Liderlik - gördüyü işlər sayəsində qazanılmış böyük nüfuza, yüksək təşkilatçılıq və idarəçilik bacarığına malik olan, hadisələrin gedişini dəyişdirməyi və istiqamətləndirməyi bacaran, müdriklik, uzaqgörənlik, qətiyyət və prinsipiallıq kimi keyfiyyətləri özündə birləşdirən xarizmatik şəxsiyyətlərə məxsus xüsusiyyətdir. Tarixi şəxsiyyət, böyük lider olan Heydər Əliyev respublikamıza rəhbərliyinin birinci dövründə öz fəaliyyəti və qəbul etdiyi qərarlarla xalqımızın istiqlal duyğularını, milli dövlətçilik düşüncəsini inkişaf etdirmiş, əsrin sonlarına isə müstəqil Azərbaycan dövləti kimi əzəmətli bir reallığa qovuşdurmuş, banisi olduğu bu dövlətin yüksəlişini, onun müstəqilliyinin əbədiliyini və dönməzliyini təmin etmişdir.

1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlamış Heydər Əliyev geridə qalmış və milli ucqar hesab olunan respublikamızın uğurlu inkişafını təmin edərək və onu SSRİ miqyasında birincilər sırasına çatdıraraq özünün yüksək liderlik, böyük təşkilatçı keyfiyyətlərini nümayiş etdirmiş, buna görə də Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək vəzifələrə irəli çəkilmişdir. Lakin 1985-ci ildə Sov. İKP Mərkəzi Komitəsinin Baş katibi seçildikdən sonra Mixail Qorbaçovun Heydər Əliyevin ölkə səviyyəsində gördüyü işlərə və böyük nüfuzuna qısqanclıqla yanaşaraq başlatdığı təzyiq kampaniyası ümumilikdə Azərbaycana qarşı yönəlmiş mənfur siyasətin tərkib hissəsi olmuşdur. 1987-ci ildə Heydər Əliyev vəzifəsindən istefa versə də, doğma Vətəninə qarşı həyata keçirilən çirkin kampaniya ilə barışmamış, Qanlı 20 Yanvar hadisələrinin səhəri günü Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək öz etiraz səsini ucaltmışdır.

**(ardı 5-ci səhifədə)**

# Xalqa bağışlanan ömrün əbədiyyəti

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



**Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü günüdür. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Fəxri xiyabanda Ulu öndərin məzarını ziyarət ediblər.**

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu öndərin xatirəsini ehtiramla andı.

Sonra birinci xanım Mehriban Əliyeva ümummilli liderin xatirəsini dərin hörmətlə yad etdi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı və birinci xanım ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoydular. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olundu.






## Azərbaycan Prezidenti Ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə paylaşım edib

**Prezident İlham Əliyev Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin doğum günü münasibəti ilə paylaşım edib.**

## Roma Papası XIV Leo Həzrətlərinə

***Zati-müqəddəsləri!***

Roma Papası seçilməyiniz münasibətilə Sizi şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən məmnunluq duyuram.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında münasibətlərin hazırkı səviyyəsi, səmimi dialoq və qarşılıqlı anlaşma nümunəvi xarakter daşıyır. Biz Müqəddəs Taxt-Tac ilə əlaqələrin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət veririk.

Çoxəsrlik zəngin tolerantlıq ənənələrinə və multikultural dəyərlərə malik Azərbaycanda dini-mənəvi və etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

İnanıram ki, ümumbəşəri dəyərlərin təşviqi və sivilizasiyalar arasında qarşılıqlı anlaşma və etimad mühitinin yaradılması naminə Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında səmərəli əməkdaşlıq bundan sonra da birgə səylərimizlə uğurla davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, uzun ömür, bəşəri və müqəddəs amallar naminə qarşıdakı ali missiyanızda uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 may 2025-ci il**

## Almaniya Federativ Respublikasının Federal Kansleri Zati-aliləri cənab Fridrix Mertsə

***Hörmətli cənab Federal Kansler!***

Almaniya Federativ Respublikasının Federal Kansleri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edir, dost Almaniya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

Azərbaycan-Almaniya əlaqələri geniş gündəliyə malikdir. Biz ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin bütün istiqamətlər, xüsusilə də iqtisadiyyat, ticarət, energetika, o cümlədən alternativ və bərpaolunan enerji, humanitar və digər sahələr üzrə inkişafına böyük əhəmiyyət veririk.

İnanıram ki, xalqlarımızın maraqlarına uyğun olaraq Azərbaycan ilə Almaniya arasında münasibətlərin bundan sonra da möhkəmlənməsi, ikitərəfli və çoxtərəfli qaydada qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişlənməsi və yeni məzmunla zənginləşməsi üçün birgə səylər göstərəcəyik.

Bir daha Sizə səmimi təbriklərimi çatdırır, dost xalqınıza daim firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 may 2025-ci il**

## Ekvador Respublikasının Prezidenti Zati-aliləri cənab Daniel Noboa Azinə

***Hörmətli cənab Prezident!***

Ekvador Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Ekvador arasında dostluq münasibətlərinin daha inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı faydalı əməkdaşlığımızın genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Ekvador xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 may 2025-ci il**

## Faşizm üzərində Qələbə uğrunda mübarizədə həlak olan Azərbaycan övladlarının xatirəsi ehtiramla anılıb



**Mayın 9-da faşizm üzərində tarixi Qələbədən 80 il ötür. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar.**

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu Qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 mindən çox oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən artıq əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz edilib.

Bu müharibədə şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman ehtiramla anılır. Xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərib, onları "xalqımızın qızıl fondu" adlandırıb. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini daim diqqət mərkəzində saxlayır, 9 May - Qələbə bayramı ərəfəsində onlara maddi yardımlar göstərilir. Azərbaycan Prezidentinin 2025-ci il 21 aprel tarixli sərəncamı ilə 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 2500 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1250 manat məbləğində birdəfəlik maddi yardım verilib. Bütün bunlar bir daha sübut edir ki, müharibə veteranlarına hərtərəfli diqqət və qayğı Azərbaycanda dövlət siyasətinin başlıca prioritetlərindən biridir.

Azərbaycan xalqı artıq beşinci ildir ki, 1941-1945-ci illər müharibəsində faşizm üzərində Qələbəni 44 günlük Vətən müharibəsi nəticəsində qazanılmış böyük Zəfərin doğurduğu sevinc hissi ilə birgə ikiqat qürurla qeyd edir. Xalqımızın uğrunda 30 il mübarizə apardığı ədalət nəhayət Zəfər çaldı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə və 1941-1945-ci illər müharibəsində canlarından keçmiş bütün oğul və qızlarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

## Mehriban xanım Əliyevanın 9 May Qələbə Günü münasibətilə paylaşımı




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 9 May - Qələbə Günü, o cümlədən faşizm üzərində Qələbənin 80 illiyi münasibətilə sosial şəbəkə hesabında paylaşım edib.

Paylaşımda deyilir:

***"Əziz veteranlar!***

Biz sizin mərdliyinizlə, cəsarətinizlə və şücaətinizlə fəxr edirik!

Böyük Qələbə Gününüz mübarək!

***Mehriban ƏLİYEVA,***
***Azərbaycan Respublikasının***
***Birinci vitse-prezidenti***

## Azərbaycan Afrika ölkələri ilə əlaqələrin inkişafına önəm verir

**Anqola Respublikasının Prezidenti Joao Lorenso mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında dövlət başçıları Azərbaycan ilə Anqola arasında ikitərəfli əlaqələrin, xüsusilə iqtisadi-ticari və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparıblar.**

Prezident Joao Lorenso COP29-da iştirak etmək üçün ölkəmizə səfər edən Anqolanın vitse-prezidenti Esperensa Kostanın Bakıya səfərini və səfər çərçivəsində Azərbaycandan olan tərəf-müqabilləri ilə ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə dair görüşlər keçirdiyini bildirib.

Prezident İlham Əliyev Azərbaycanın Afrika ölkələri, o cümlədən Anqola ilə əlaqələrin inkişafına əhəmiyyət verdiyini deyərək, əməkdaşlığımızın müxtəlif sahələrdə inkişafı üçün geniş imkanların olduğunu vurğulayıb.

Söhbət zamanı hələ keçmiş SSRİ dövründə Anqoladan olan tələbələrin ölkəmizdə təhsil aldıqları xatırlanıb və həmin şəxslərin bu gün Anqolanın inkişafına öz töhfələrini verdikləri məmnunluqla qeyd edilib.

Anqolanın hazırda Afrika İttifaqının sədrliyi funksiyasını yerinə yetirdiyini nəzərə alaraq, tərəflər Azərbaycan ilə Afrika İttifaqı arasında əməkdaşlıq məsələlərinə toxunublar.

***Prezidentin Mətbuat Xidməti***

# Qarabağın dirçəlişi və yüksəlişi ümummilli hədəfdir

## Prezident İlham Əliyev ilə birinci xanım Mehriban Əliyevanın Şuşa və Xocalı rayonlarına səfəri

### Daşaltı kəndində məscidin açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Şuşa rayonunun Daşaltı kənd məscidinin açılışında iştirak ediblər. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov və "PMD Projects" şirkətinin direktoru Nəriman Topçibaşev dövlətimizin başçısına və birinci xanıma görülmüş işlər barədə məlumat verdilər.**



Daşaltı kənd məscidinin təməli 2021-ci ilin noyabrında Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Məscid kəndin mərkəzində milli memarlıq üslubunda inşa edilib. İkiminarəli məscid ümumi memarlıq kompozisiyası, planlaşdırma və bədii-dekorativ xüsusiyyətlərinə görə Qarabağ memarlıq məktəbinin ənənələrinə uyğun inşa olunub. Hündürlüyü 22,5 metr olan minarələr layihələndirilərkən Yuxarı Gövhər Ağa məscidinin minarələrinin formasından istifadə olunub. İkimərtəbəli məsciddə eyni vaxtda 150-dən çox insan ibadət edə biləcək.

Daşaltı kənd məscidinin inşası Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizdə maddi-mədəniyyət abidələrimizin, dini ocaqlarımızın bərpası və yenilərinin tikilməsi ilə bağlı verdiyi tapşırıqlara uyğun həyata keçirilib. İşğal dövründə dağıdılan məscidlərimizin bərpası, yeni dini ocaqların inşası Azərbaycan dövlətinin xalqımızın milli-mənəvi dəyərlərinə, mədəni və tarixi zənginliyinə verdiyi qiymətin göstəricisidir.

Dövlətimizin başçısına və birinci xanıma "Daşaltı kəndinin yenidən qurulması layihəsi" çərçivəsində görüləcək işlər barədə də məlumat verildi. Bu layihə yerli memarlıq irsinə sadiqlik, ekoloji davamlılıq və müasir turizm infrastrukturu ilə kənd həyatını birləşdirir. Ümumi sahəsi 65 hektara yaxın olan Daşaltı kəndində 80 otaqlı 5 mərtəbəli hotel binası, kotteclər, ticarət və ictimai obyektlər, o cümlədən, informasiya mərkəzi, sərgi binası, emalatxana inşa ediləcək. Layihəyə əsasən təbiət və tarixlə vəhdət təşkil edən, geniş turizm imkanları olan kənd məkanının yaradılması nəzərdə tutulur.

Daşaltı kəndinin rekreasiya zonası təbiətə minimal müdaxilə prinsipi ilə layihələndirilib və təbiətsevərlərin ətraf mühitlə daha sıx əlaqə qurmasına imkan yaradacaq. Layihə müxtəlif yaş qrupları və maraqlara uyğun fəaliyyətləri özündə birləşdirir, həmçinin funksionallıq, sakitlik və macəra arasında tarazlıq yaradaraq, nadir istirahət təcrübəsi təqdim edir.



### Müalicə-Sağlamlıq Mərkəzi istifadəyə verilib



**Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin açılışında iştirak ediblər. Səhiyyə naziri Teymur Musayev dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.**



Bu tibb ocağının təməli 2021-ci ilin noyabrında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. Altı korpusdan ibarət olan mərkəz 90 çarpayılıqdır. Burada terapiya, pediatriya, cərrahiyyə və digər şöbələr fəaliyyət göstərəcək. Mərkəzdə, həmçinin konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, klinik diaqnostik laboratoriya yaradılıb. Şuşa Müalicə-Sağlamlıq Mərkəzi müasir standartlara cavab verən tibbi avadanlıq, o cümlədən kompüter tomoqrafiyası, rəqəmsal teleskopik rentgen, rəqəmsal stasionar USM cihazları ilə təchiz olunub. Bunlar isə öz növbəsində Mərkəzə müraciət edənlərin müayinə və müalicəsini yüksək səviyyədə aparmağa geniş imkanlar yaradır.

Tibb ocağının ərazisində Gigiyena və Epidemiologiya Mərkəzi, hemodializ və digər korpuslar inşa olunub.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimizdə Azərbaycan dövləti tərəfindən digər sahələrlə yanaşı, tibb xidmətlərinin yüksək səviyyədə təşkili üçün də genişmiqyaslı işlər həyata keçirilir. Şuşada bu cür müasir tibb ocağının yaradılması bunun əyani göstəricisidir. Şuşa Müalicə-Sağlamlıq Mərkəzi şəhərdə yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində icra olunan sosial infrastruktur layihəsi kimi çox mühüm rol oynayır. Mərkəzin xidmətlərindən, eyni zamanda, ətraf şəhər və rayonların əhalisi də istifadə edə biləcək.

### Şuşada dördüncü yaşayış kompleksinin təməli qoyulub



**Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada inşa ediləcək dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər. Dövlətimizin başçısına və birinci xanıma yeni yaşayış kompleksi barədə məlumat verildi.**

Bildirildi ki, Şuşa şəhərində dördüncü yaşayış kompleksinin layihəsi çərçivəsində 16 binanın inşası nəzərdə tutulub. Kompleksin ümumi sahəsi 6,2 hektardır. Ümumilikdə yaşayış kompleksində 274 mənzilin inşası planlaşdırılır. Binalarda bir, iki, üç, dörd və beşotaqlı mənzillər olacaq. Yaşayış kompleksinin ərazisində zəruri sosial infrastruktur yaradılacaq.

Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşa 2020-ci il noyabrın 8-də işğaldan azad edildikdən sonra burada genişmiqyaslı tikinti-quruculuq prosesinə başlanılıb. Bu gün şəhər tarixi siması və mədəni irsi qorunub saxlanılmaqla bərpa olunur, doğma sakinlərinə yenidən qucaq açır. İndiyədək Şuşaya 376 ailə, ümumilikdə 1409 nəfərdən artıq keçmiş məcburi köçkün qayıdıb.

Qeyd edək ki, indiyədək Şuşada 450 mənzildən ibarət 23 bina sakinlərin istifadəsinə verilib. Növbəti mərhələdə daha üç layihənin icrası nəzərdə tutulur. Dövlət və özəl tərəfdaşlığı çərçivəsində şəhərin mərkəzi küçəsində 10 yaşayış kompleksi inşa edilir. Onların sırasına mehmanxana, ofis binaları və digər obyektlərin tikintisi daxildir.

# Qarabağın dirçəlişi və yüksəlişi ümummilli hədəfdir

## “Azərişıq” ASC-nin “Xocalı” yarımstansiyası və RİM istifadəyə verilib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin “Xocalı” yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib. “Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.**

Bildirildi ki, 3200 KVA gücündə “Xocalı” yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi Xocalı rayonu ərazisində inşa edilmiş yeni yaşayış komplekslərinin, kənd təsərrüfatı və turizm obyektlərinin, eləcə də sosial-iqtisadi təyinatlı müxtəlif infrastrukturun dayanıqlı, etibarlı və fasiləsiz elektrik enerjisi təminatını həyata keçirmək məqsədi daşıyır.

Yarımstansiyanın elektrik təchizatı üçün “Xankəndi-1” və “Əsgəran” yarımstansiyalarından müvafiq olaraq elektrik verilişi xətləri çəkilib. Tikintisi aparılan 35 kV-luq elektrik verilişi xətti vasitəsilə bu yarımstansiya “Ağdam-2” yarımstansiyası ilə əlaqələndiriləcək ki, bununla da Ağdam-Əsgəran-Xocalı-Xankəndi şəhərləri arasında dairəvi elektrik təchizatı sxemi yaradılacaq.

Rəqəmsal İdarəetmə Mərkəzi vasitəsilə isə şəbəkələrin cari vəziyyətinə dair bütün məlumatlar mərkəzləşdirilmiş şəkildə toplanılır və emal olunur, avadanlıqlar məsafədən idarə edilir və real vaxtda monitorinqi rəqəmsal sistemlər vasitəsilə həyata keçirilir. Yarımstansiya bu məqsədlə yeni nəsil rəqəmsal texnologiyalar və idarəetmə avadanlıqları ilə təchiz edilib.

Bu Mərkəz şəbəkənin etibarlı istismarını dəstəkləməklə yanaşı, elektrik enerjisinin ötürülməsi zamanı itkilərin və ümumi istismar xərclərinin azaldılmasına da şərait yaradır. Yarımstansiyadan qidalanan istehlakçılara elektrik enerjisi verilişində yaranan fasilələr barədə Mərkəz vasitəsilə real vaxt rejimində əvvəlcədən məlumat ötürülmə imkanı yaradılıb. Bərpaolunan enerji mənbələrinin elektrik şəbəkələrinə inteqrasiyası prosesi Rəqəmsal İdarəetmə Mərkəzi tərəfindən mərkəzləşdirilmiş şəkildə idarə olunduğundan enerji təchizatında fasilələrin yaranma riski minimuma endirilib. Mərkəz alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiyanın işinin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-biri ilə koordinasiyasını tam təmin edir.

Rəqəmsal İdarəetmə Mərkəzində 52 kVt gücündə Günəş panelləri də quraşdırılıb və istehsal olunan enerjinin şəbəkəyə ötürülməsi təmin edilib, ərazisində elektromobillər üçün sürətli enerjidoldurma cihazları quraşdırılıb.

## “Qoç Ət”in Xocalının Xanabad kəndindəki heyvandarlıq kompleksinin açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da “Qoç Ət” Kəndli Fermer Təsərrüfatı MMC-nin Xocalı rayonunun Xanabad kəndi ərazisində yerləşən heyvandarlıq kompleksinin açılış mərasimində iştirak edib. İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına kompleksin fəaliyyəti barədə məlumat verdi.**

Bildirildi ki, kompleksə damazlıq, ətlik-südlük heyvandarlıq, istehsal və ictimai iaşə xidmətləri daxildir. Damazlıq fermer təsərrüfatının ümumi tutumu 750 baş iribuynuzlu heyvandan ibarətdir. Hazırda təsərrüfatda 355 baş üç növ müxtəlif cins iribuynuzlu damazlıq heyvan var. Türkiyə və Almaniya texnologiyaları tətbiq olunmaqla fəaliyyət göstərən kompleks illik 100 ton ət, 2 min ton süd istehsalı gücünə malikdir. Gələcəkdə süd istehsalının illik 3 min tona çatdırılması nəzərdə tutulur. Kompleksdə istehsal olunan məhsullar daxili bazarla yanaşı, Birləşmiş Ərəb Əmirliklərinə və Qətərə ixrac olunacaq.

Müəssisənin işğaldan azad olunmuş ərazilərdəki fəaliyyəti nəticəsində 55 iş yeri yaradılıb. Gələcəkdə süd istehsalı müəssisəsinin də işə salınmasından sonra işğaldan azad edilmiş ərazilərdə şirkət tərəfindən yaradılan iş yerlərinin sayının 100-ə çatdırılması nəzərdə tutulur.

Layihə dəyəri 4,2 milyon manat olan kompleksin ərazisi 7,6 hektardır. 500 hektardan çox ərazidə isə payızlıq arpa və





buğda əkilib ki, bu da təsərrüfatda yemə olan ehtiyacı qarşılayacaq.




Qeyd edək ki, işğaldan azad olunmuş torpaqlarımıza Böyük Qayıdış Azərbaycanın iqtisadi potensialının artmasına geniş imkanlar yaradır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sahibkarlıq fəaliyyətinin təşviqi biznes cəlbediciliyinin artırılmasında, regionun inkişafında və əhalinin rifahının yaxşılaşdırılmasında mühüm rol oynayır. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirləri həyata keçirilir. Regionda istehsal fəaliyyəti ilə məşğul olan rezidentlər üçün idxal edilən texnika, texnoloji avadanlıq və qurğular, habelə xammal və materiallar ƏDV və gömrük rüsumlarından, həmçinin burada fəaliyyət göstərən sahibkarlıq subyektləri mənfəət, torpaq, əmlak və sadələşdirilmiş vergidən azad olunublar.

*AZƏRTAC*



(əvvəli 1-ci səhifədə)

# Konstitusiya və suverenlik: Heydər Əliyev siyasi irsinin təməl sütunları

**Samir NURİYEV,**
**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri**

1990-cı ildə Moskvadan Vətənə qayıtdıqdan sonra Naxçıvana üz tutan və Muxtar Respublikanın Ali Məclisinin deputatı seçilən Ulu Öndər Heydər Əliyev dünya nizamında baş verən dəyişiklikləri düzgün qiymətləndirir və bilirdi ki, Azərbaycan müstəqillik və suverenlik yolu ilə getməlidir. Muxtar Respublikanın Ali Məclisinin 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə keçirilmiş sessiyasında Naxçıvan Muxtar Respublikasının ali hakimiyyət orqanının yeni adının və Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul olunması, Azərbaycan Respublikasında dövlət rəmzləri haqqında məsələyə baxılması və milli-tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin - bayraq, gerb və himnin qəbul edilməsi barədə Azərbaycan Ali Məclisi qarşısında məsələ qaldırılması Ulu Öndərin uzaqgörənliyi və qətiyyəti sayəsində müstəqillik yolunda atılmış ilk addım oldu. Kommunist partiyasının fəaliyyətinə xitam verilməsi və mülkiyyətinin milliləşdirilməsi məsələlərini müzakirəyə çıxaran Muxtar Respublikanın Ali Məclisinin 1991-ci il 3 sentyabr tarixli fövqəladə sessiyası isə müstəqil dövlətçilik yolunda ümummilli prosesin hərəkətverici qüvvəsinə çevrilən mühüm hadisə kimi səciyyələndirilməlidir.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü il iyunun 9-da Bakıya qayıdışı və iyunun 15-də Ali Sovetin sədri seçilməsi ilə başlayan növbəti 10 il Azərbaycanda müstəqil dövlətin qurulduğu, möhkəmləndirildiyi və gələcək inkişaf üçün təməllərin yaradıldığı mühüm tarixi mərhələdir. 1993-2003-cü illərdə Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızın 20 faizinin işğal edildiyi bir şəraitdə ictimai-siyasi sabitliyin, təhlükəsizliyin təmin olunması, dövlət idarəçiliyi mexanizminin və iqtisadi sistemin yenidən qurulması, beynəlxalq əlaqələrin dövlətin və xalqın ali məqsədlərinə uyğun əsaslı təşkili və bu kimi digər həyati vacib məsələlər qısa zamanda həll edildi, Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin əsasları yaradıldı. Bu əsaslar Ümummilli Lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmuşdur.

Kompleks xarakterli və geniş məna daşıyan, empirik, nəzəri və normativ yanaşmaları ehtiva edən suverenlik termini müasir dövrdə dövlətin suverenliyi kontekstində onun daxili və xarici siyasət məsələlərində müstəqilliyini və dövlət hakimiyyətinin aliliyini ifadə edən anlayışdır. Tarixi inkişafın müxtəlif mərhələlərində suverenliyin qarantı və daşıyıcısı rolunda mütləq hakimiyyət çıxış etmişdir. Müasir dövrdə isə suverenliyin konstitusion nəzəri əsasları dünyada geniş yayılmış praktikadır. Konstitusion yanaşma çərçivəsində ölkənin Əsas Qanunundan çıxış edərək suverenliyin daşıyıcısı və onun özünün interpretasiyası müəyyən edilir. Demokratik inkişaf yolunu tutmuş ölkələrdə suverenliyin daşıyıcısı xalq və onun iradəsidir.

Hələ 1995-ci il iyunun 5-də yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın ilk iclasında çıxış edən Heydər Əliyev demişdi: “Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü qanunvericilik, ali icra, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir”. Azərbaycan Respublikasının Konstitusiyasının 1 maddəsində qeyd olunur ki, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Əsas Qanunumuzun 11 maddəsinə əsasən, öz müqəddəratını sərbəst və müstəqil həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Göründüyü kimi, Azərbaycan Konstitusiyası tarixi keçmişimiz və ümumbəşəri, demokratik dəyərlərə əsaslanan, dövrün çağırışlarına cavab verən, ölkəmizin gələcək inkişafı üçün geniş hüquqi baza yaradan, ən əsası isə xalqımızın suveren hüququnu və dövlətimizin suverenliyini təsbit edən fundamental sənəd kimi ərsəyə gəlmişdir. 1996-cı il fevralın 6-da Prezident Heydər Əliyevin Sərəncamı ilə noyabrın 12-si Azərbaycanda Konstitusiya Günü elan edilmişdir.

Azərbaycan Respublikasının ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyi Konstitusiyamızda başlıca prinsiplərdən biri kimi təsbit olunmuşdur. 1995-ci il noyabrın 24-də Milli Məclisin ilk iclasında çıxış edən Heydər Əliyev demişdir ki, “yeni qəbul olunmuş Konstitusiya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin edən Konstitusiyadır”. Bu məsələnin Azərbaycan üçün prinsipial əhəmiyyəti həm də ərazilərimizin Ermənistan tərəfindən işğal edilməsi və onu özününküləşdirmək cəhdi ilə bağlı idi. Əsasən İkinci Dünya müharibəsindən sonra demokratiya dalğasının təsiri ilə formalaşmış müasir beynəlxalq hüquq dövlətlərarası münasibətləri tənzimləməklə yanaşı, həm də mövcud normaların özünəməxsus şəkildə interpretasiyasına, ən acınacaqlısı isə sui-istifadə hallarına yol açmışdır. Bu kontekstə XVlll əsrdə formalaşmağa başlamış və müasir beynəlxalq hüquqda da özünə yer etmiş milli suverenlik doktrinası, yəni, “hər bir xalqın öz müqəddəratını təyin etmə hüququ” Ermənistan və onun Azərbaycan ərazisində qurduğu qondarma rejimin öz cinayətlərinə bəraət qazandırması üçün əsas bəhanəyə çevrilmişdi. Nəticədə Azərbaycanın suverenliyi pozulmuş, Konstitusiyamızın hüquqi təsiri və ali dövlət hakimiyyətinin suveren hüququ 30 il ərzində ölkəmizin 20 faiz ərazisinə yayılmamışdır.

Müstəqillik illərində əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və sonrakı dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün reallıqlarına uyğun təkmilləşdirilərək həyata keçirilmiş milli inkişaf strategiyasının başlıca hədəfi Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası olmuşdur. İki mühüm istiqamətin paralel şəkildə həyata keçirilməsi ilə şərtlənən siyasi xətt bir tərəfdən problemin beynəlxalq hüququn tələblərinin və beynəlxalq birlik tərəfindən məcburetmə tədbirlərinin tətbiqinə nail olunmasını, digər tərəfdən isə güclü dövlət konsepsiyasının reallaşdırılması və güc tətbiqetmə yolu ilə işğala son qoyulmasını ehtiva etmişdir. Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin məqsədyönlü və prinsipial siyasəti sayəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi dünyanın bütün dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən tanınmış, nə beynəlxalq hüquq sistemində, nə də siyasi müstəvidə mübahisə predmeti olmuş, ölkəmizin işğal altında olan əraziləri üzərində hüquqi, tarixi və mənəvi haqqı qəbul edilmiş, Ermənistanın və onun havadarlarının torpaqlarımızda ikinci erməni dövləti yaratmaq cəhdləri nəticə verməmişdir.



2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyev beynəlxalq birliyin laqeydliyi və selektiv yanaşması fonunda Ermənistan–Azərbaycan münaqişəsinin ədalətli həlli üçün güc amilinin önəmini aydın görmüş, müasir və güclü dövlət quruculuğunu, milli həmrəyliyin təmin edilməsini, ölkənin bütün resurslarının vahid məqsəd uğrunda səfərbər olunmasını həyata keçirdiyi siyasətin başlıca istiqamətləri kimi müəyyənləşdirmişdir. Buna görə də 2003-2020-ci illərdə bütün sahələrdə dərin islahatlar həyata keçirilmiş, Azərbaycan sürətli və dinamik inkişaf etmiş, əhalinin rifahı əsaslı şəkildə yüksəlmiş, cəmiyyət həyatının bütün sahələri yenilənmiş və müasirləşmişdir. Fəal xarici siyasət sayəsində ölkəmizin strateji tərəfdaşlıq münasibətləri, beynəlxalq əlaqələri genişlənmiş və zənginləşmiş, onun dünyada nüfuzu böyük dərəcədə yüksəlmişdir. Hərbi quruculuq işləri daim diqqət mərkəzində olmuş, ölkəmizdə müdafiə sənayesi formalaşdırılmış, Azərbaycan Silahlı Qüvvələri öz potensialına görə dünyanın aparıcı orduları sırasında layiqli yer tutmuşdur. Ən əsası, cəmiyyətdə birlik, həmrəylik hökm sürmüş, torpaqlarımızın işğaldan azad olunması hamı üçün başlıca vəzifəyə çevrilmişdir. Göründüyü kimi, Prezident İlham Əliyevin məqsədyönlü, qətiyyətli və prinsipial siyasəti sayəsində Azərbaycan heç bir yerdən yardım ummadan, heç kimdən çəkinmədən istər iqtisadi, istərsə də hərbi güc baxımından öz haqqını təmin etmək qüdrətinə sahiblənmişdir. Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında qeyd edilmişdir: “Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir”.

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatlarına və yeni işğalçılıq planlarına cavab olaraq başlanmış və 44 gün davam etmiş Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin dəmir iradəsi və bacarıqlı sərkərdəliyi, Ordumuzun, əsgər və zabitlərimizin qəhrəmanlığı və rəşadəti sayəsində torpaqlarımızın işğaldan azad olunması ilə nəticələndi. Azərbaycan Ordusu unikal hərbi əməliyyatlar keçirərək, düşmənin uzun illər ərzində qurduğu müdafiə xətlərini darmadağın edərək hərb tarixinə hələ çox danışılacaq və öyrəniləcək yeni şərəfli bir səhifə yazdı. Vətən müharibəsində parlaq qələbə ilə təkcə Azərbaycanın ərazi bütövlüyü bərpa edilmədi, həm də regionda yeni reallıq, yeni status-kvo yaradıldı.



2020-ci il noyabrın 9-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanat işğalçı dövlətin birmənalı kapitulyasiyasını ehtiva etsə də, ərazilərimizin bir hissəsində Ermənistanın hərbi birləşmələri və qondarma rejimin hərbi ünsürləri qalmaqda idi. Digər tərəfdən, Ermənistanda revanşizm əhval-ruhiyyəsinin günbəgün artması, sərhəd bölgələrində, habelə ermənilərin yaşadığı Azərbaycan ərazilərində hücum xarakterli yeni qurğuların inşasına cəhdlər göstərilməsi Ermənistan rəhbərliyinin və Qarabağdakı cinayətkar rejimin yeni planlar qurduğunu göstərmiş, qabaqlayıcı addımların atılmasını zərurətə çevirmişdi. Beləliklə, 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuş, həmçinin Azərbaycan ərazisində hər hansı qanunsuz xarici hərbi mövcudluğa son qoyulmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan öz iqtisadi, siyasi, diplomatik, hərbi və mədəni potensialını daha da inkişaf etdirərək Cənubi Qafqazın lider ölkəsi, siyasi və iqtisadi mərkəzinə, Avrasiya məkanının yeni orta güc aktoruna çevrilmişdir. Azərbaycan öz sözünü deyən, mövqeyini qətiyyətlə müdafiə edən, çoxsaylı dostları və tərəfdaşları ilə regionun və dünyanın yeni enerji, nəqliyyat xəritəsini cızan, COP29 kimi nəhəng tədbirləri yüksək səviyyədə keçirən və qlobal problemlərin həllinə dəyərli töhfələr verən dövlət kimi beynəlxalq arenada böyük nüfuz sahibidir. Azərbaycan işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzuru heç kimdən yardım almadan, öz gücünə bərpa edir və yenidən qurur, həmin ərazilərdə müasir infrastruktur yaradılır, yaşayış məntəqələri salınır, insanların doğma yurdlarına qayıdışı təmin edilir. Hazırda həmin ərazilərdə 45 mindən artıq vətəndaşımız yaşayır, işləyir, təhsil alır, yaradır, övladlarını böyüdür və öz gələcəyini qurur. Azərbaycan Prezidentinin bu bölgəyə hər səfərində çoxsaylı obyektlərin açılışı keçirilir, yenilərinin təməli qoyulur. Təbii ki, bütün bunlar Azərbaycanın böyük gücünün və geniş potensialının göstəricisidir. Eyni zamanda, 2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyevin Xankəndidən xalqa müraciəti, işğaldan azad edilmiş ərazilərdə seçkilərin keçirilməsi və bu prosesin parlaq nümunəsi kimi 2024-cü il prezident seçkilərində dövlət başçımızın ailəsi ilə birlikdə məhz Xankəndidə səs verməsi tam suverenliyimizin və Konstitusiyamızın hüquqi qüvvəsinin bütün ölkə ərazisini əhatə etdiyinin göstəricisi olmuşdur.

Dövlətin və cəmiyyətin qarşısında duran vacib məsələlərin həllində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm yer tutur. Hörmətli Mehriban Əliyeva ölkədə insanların həyat keyfiyyətinin yüksəldilməsini nəzərdə tutan çoxsaylı proqramların təşəbbüskarıdır. Uğurlu sosial siyasətin həyata keçirilməsində, dövlətin vətəndaşlara diqqət və qayğısının artırılmasında, əhalinin rifahının yüksəlməsində Mehriban Əliyevanın əməyi böyükdür. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu yüzlərlə məktəb, uşaq bağçası, tibb müəssisəsi, mədəniyyət obyektinin tikintisini və ya əsaslı bərpasını həyata keçirmiş, Azərbaycan mədəniyyətinin inkişafına, mədəni irsimizin dünyada təbliğinə mühüm töhfələr vermişdir. Mehriban Əliyevanın fəaliyyəti və gördüyü işlər humanizmin, dövlətə sədaqətin, xalqa bağlılığın, Ümummilli Lider Heydər Əliyevin ideyalarının reallaşması üçün layiqli xidmətin nümunəsidir.

Azərbaycanın XX əsr tarixinin böyük hissəsi Heydər Əliyev şəxsiyyəti, onun genişmiqyaslı quruculuq fəaliyyəti ilə sıx bağlıdır. Ulu Öndərin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq öz müstəqilliyinə qovuşduğu tarixi mərhələ, onun həyat yolu isə öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin təcəssümü, ümummilli məqsədlər uğrunda fədakarlığın və mübarizliyin rəmzi olmuşdur. Buna görə də Azərbaycan xalqının xoşbəxt gələcəyi, dövlətimizin müstəqilliyi, inkişafı naminə böyük işlər görmüş Ümummilli Lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir.

Konstitusiyamızın bəyan etdiyi prinsiplərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümünü qeyd etdiyimiz zamanda geriyə baxarkən keçdiyimiz inkişaf yolunun, Ulu Öndərimiz Heydər Əliyevin qurduğu və Prezident İlham Əliyevin qüdrətli bir dövlət səviyyəsinə yüksəltdiyi bugünkü Azərbaycanın əzəmətini daha aydın görürük. “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamında da qeyd olunduğu kimi, Ulu Öndərin qurduğu dövlət indi xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

# Heydər Əliyev: şəxsiyyətin miqyası və missiyası





**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın prezidenti, akademik**

*(əvvəli ötən saylarımızda)*

Bütün bunlarla bərabər, Mixail Qorbaçov 11 mart 1985-ci il tarixində Sov. İKP MK-nın Baş katibi vəzifəsinə seçildikdən sonra Kremldə Heydər Əliyevə qarşı münasibət dəyişdi. SSRİ-nin yeni rəhbərinin yenidənqurma siyasətinin bir çox məqamlarının uğursuz olacağını, onun alkoqolizmə qarşı mübarizə adı altında ölkə üzrə möhkəm iqtisadi bazası olan üzümçülük təsərrüfatlarını dağıtmasını bildirməsi Mixail Qorbaçov – Heydər Əliyev münasibətlərində gərginlik yaratmışdır. Ən başlıcası isə dövlət idarəetməsi sahəsindəki səriştəsizliyi ilə siyasi imicini itirən Mixail Qorbaçov SSRİ rəhbərliyində, bütövlükdə, Sovet İttifaqında və beynəlxalq miqyasda böyük nüfuza malik olan görkəmli dövlət xadimi Heydər Əliyevə qısqanc münasibət bəsləmişdir.

Heydər Əliyev Siyasi Büroda öz ədalətliliyi, obyektivliyi, ağlı, prinsipiallığı ilə fərqlənirdi. Mixail Qorbaçov onun cəsarətli çıxışları qarşısında çox vaxt qorxuya düşürdü. Nəticədə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini, Siyasi Büronun üzvü Heydər Əliyev 21 oktyabr 1987-ci ildə Mixail Qorbaçovun idarəetmə siyasətinə etiraz əlaməti olaraq vəzifəsindən istefa verdi.

Heydər Əliyevin tutduğu vəzifədən azad edilməsində Moskvada Mixail Qorbaçovun ətrafında olan erməni separatçılarının Sovet dövlətinin rəhbəri ilə olan yaxın münasibətləri də mühüm rol oynamışdır. Təsadüfü deyildir ki, Heydər Əliyev sovet dövlətinin rəhbərliyindən kənarlaşdırıldıqdan az sonra Kreml dairələrinə yaxın olan ermənilər tərəfindən Azərbaycanın qədim ərazisi olan Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında bəyanatlar səsləndirilmiş, Mixail Qorbaçovun və onun tərəfdarlarının dəstəyi ilə qızışdırılan Birinci Qarabağ müharibəsində Azərbaycan torpaqları işğal edilmişdir.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev SSRİ rəhbərliyində təmsil olunduğu dövrdə həmişə Azərbaycana xüsusi diqqət və qayğı göstərmişdir. O, Azərbaycan SSR-in dövlət büdcəsinin artırılmasını diqqətdə saxlamış, respublikada bir sıra obyektlərin tikilməsi üçün əlavə maliyyə vəsaitinin ayrılmasını təmin etmişdir. Gənc Tamaşaçılar Teatrının yenidən qurulması, Gəncə şəhərində avtomobil zavodunun tikilməsi, Xəzər dənizi sahillərində kurort mərkəzlərinin yaradılması SSRİ Nazirlər Soveti Sədrinin birinci müavininin doğma respublikaya qayğıkeş münasibətinin əməli ifadəsi idi.

Keşməkeşli və şərəfli taleyə malik olan Heydər Əliyevin tərcümeyi-halının ən çətin və məsuliyyətli dövrü görkəmli dövlət xadiminin Siyasi Büronun üzvlüyündən və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən azad edilməsindən sonrakı 1987-1990-cı illərə aiddir. Məlum olduğu kimi, İttifaq əhəmiyyətli fərdi pensiyaçı Heydər Əliyev Sovet rəhbərliyi tərəfindən Moskva ətrafındakı dövlət bağ evində nəzarətdə saxlanılmışdır.

Mixail Qorbaçovun diktəsi ilə "Pravda" qəzetində və digər mərkəzi mətbuat orqanlarında süni şəkildə Heydər Əliyevin əleyhinə yönəldilmiş "Əliyevşina" kampaniyasına start verilmiş, qəzetlərdə saxta məqalələr dərc edilib yayılmışdır. Təəssüf ki, həmin illərdə Azərbaycan Respublikasına rəhbərlik etmiş Əbdürrəhman Vəzirov və Ayaz Mütəllibov kimi öz xalqına deyil, Kremlin Azərbaycana qarşı yeritdiyi məkrli siyasətə dəstək verən yarıtmaz, səriştəsiz rəhbərlər də Mərkəzin həyata keçirdiyi böhtan kampaniyasını qızışdırmaq və genişləndirmək yolunu tutmuşlar.

Həm SSRİ rəhbərliyi, həm də Azərbaycana rəhbərlik edənlər Heydər Əliyevin Moskvadan Vətənə qayıtmasına mane olmaq üçün müxtəlif tədbirlər həyata keçirmişlər. Heydər Əliyevin Azərbaycana qayıtmasına maneələr yaratmaq SSRİ rəhbərliyinin və onların dəstək verdikləri erməni separatçılarının ölkəmizi parçalamaq, torpaqlarımızın işğalına nail olmaq və xalqımızı sarsıtmaq kimi planlarının tam həyata keçirilməsinə nail olmaq məqsədi daşımışdır.

Bütün çətinliklərə və maneələrə baxmayaraq, Heydər Əliyev bu illər ərzində daim Azərbaycana qayıtmaq, doğma xalqının milli azadlıq mübarizəsində iştirak etmək üçün səy göstərmişdir. O, həyatını böyük təhlükə qarşısında qoyaraq 1990-cı il yanvarın 21-də xüsusi nəzarətdə saxlanan bağ evindən Azərbaycanın Moskva şəhərindəki Daimi Nümayəndəliyinə gələrək, 20 Yanvar faciəsi haqqında sərt bəyanat səsləndirmiş, baş vermiş hadisə haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün qətiyyətli addım atmışdır. Heydər Əliyev əsl cəsarət nümunəsi göstərərək, 20 Yanvar faciəsinin törədilməsinin əsas səbəbkarlarının SSRİ rəhbərliyi və Azərbaycan Respublikasının rəhbər şəxsləri olduğunu bildirməklə doğma xalqının milli azadlıq mübarizəsinə haqq qazandırmışdır. Eyni zamanda, müstəqillik uğrunda mübarizənin başlandığı gündən ideyaları və meydanlarda ucaldılan portretləri ilə azadlıq hərəkatında təmsil edilən Heydər Əliyev Moskva bəyanatı ilə bu məsuliyyətli və şərəfli mübarizədə, iştirak etdiyini qəti şəkildə bəyan etmişdir. Ona görə də Heydər Əliyevin 21 yanvar 1990-cı il Moskva bəyanatı haqlı olaraq "Azərbaycan Respublikasının Müstəqillik Aktının birinci parolu" adlandırılmışdır.

Bundan başqa, Kreml rəhbərliyi tərəfindən nəzarətdə saxlanılan Heydər Əliyev doğma Azərbaycana qayıtmaq üçün yollar axtarmışdır. SSRİ rəhbərliyində, Kreml Aparatında məsul vəzifədə çalışaraq orada baş verən prosesləri izləmək və Siyasi Büro üzvlərini yaxından tanımaq imkanlarına malik olan Nikolay Zenkoviç "Tale yolları" kitabında Heydər Əliyevin Azərbaycana qayıtmaq haqqında tam qərarlı olduğunu qeyd edərək yazır: "Siyasətdən kənarlaşdırılmasına baxmayaraq, həmişə olduğu kimi, Heydər Əliyevi öz xalqının taleyi naminə məsuliyyət hissi heç vaxt tərk etməmişdir. Öz Vətəni üçün taleyüklü olan günlərdə Heydər Əliyev onun üçün xoşagəlməz halların, dramatik vəziyyətlərin baş verə biləcəyinə baxmayaraq, riskli addımlar atmağa hazır olmuşdur.

Ulu öndər, nəhayət, 1990-cı il iyulun 20-də Kremlin icazəsi olmadan təyyarə ilə Azərbaycana qayıda bilmişdir. Lakin Azərbaycan Sovet Respublikasının rəhbərliyi, konkret olaraq Ayaz Mütəllibov Heydər Əliyevin Bakı şəhərində yaşamasına razılıq verməmişdir. Heydər Əliyev növbəti maneələrə və qarşıdurmalara yol verməmək üçün iki gün sonra heç kəsə xəbər vermədən təyyarə ilə Naxçıvana gəlmişdir. Naxçıvan əhalisi görkəmli dövlət xadiminin gəlişini əsl bayram əhvali-ruhiyyəsi ilə qarşılamışdır. Heydər Əliyevin gəlişi ilə əlaqədar Naxçıvan şəhərinin baş meydanında keçirilən mitinqdə 80 min nəfər iştirak etmiş və xalqın böyük oğluna tam dəstək verdiklərini bildirmişlər.

Ümummilli lider həmin dövrdə Naxçıvan Muxtar Respublikasında gedən milli-azadlıq mübarizəsində doğma xalqı ilə birlikdə olmuş, Azərbaycanın bu qədim diyarının Ermənistan tərəfindən işğal edilməsinin qarşısını almışdır. Naxçıvan Muxtar Respublikası əhalisinin iradəsi ilə Heydər Əliyev 1990-cı ilin 30 sentyabrında keçirilən seçkilərdə Nehrəm dairəsindən Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan şəhərindəki M.F.Axundov dairəsindən isə Naxçıvan MSSR Ali Sovetinə deputat seçilmişdir.

Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin birinci iclasına sədrlik edən Heydər Əliyev 17 noyabr 1990-cı ildə keçirilən sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət rəmzi olan rəsmi bayrağı kimi qəbul edilməsi haqqında qərarın qəbul edilməsinə nail olmuşdur. Bu, Azərbaycan xalqının milli azadlıq mübarizəsində mühüm tarixi hadisələrdən biri idi. Eyni zamanda, Heydər Əliyevin sədrlik etdiyi həmin iclasda Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvan MSSR Ali Sovetinin bundan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması qərara alınmışdır. Bu, Heydər Əliyevin hələ Mixail Qorbaçovun hakimiyyətdə olduğu dövrdə SSRİ-nin dağılacağını qabaqcadan görə bilməsinin əyani sübutu idi. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərarın qəbul edilməsi və Azərbaycanın ali hakimiyyət orqanları qarşısında həmin bayrağın ölkəmizin dövlət rəmzlərindən biri kimi qəbul edilməsi haqqında vəsatət qaldırması Heydər Əliyevin xalqımız və müstəqil dövlətimiz qarşısındakı tarixi xidmətlərindəndir. Bundan başqa, 1991-ci il iyulun 19-da Heydər Əliyevin Kommunist Partiyası sıralarından çıxmaq haqqında SSRİ Nazirlər Sovetinin partiya təşkilatına rəsmi şəkildə ərizə ilə müraciət etməsi və buna nail ola bilməsi də nəinki Azərbaycanda, bütövlükdə, Sovet İttifaqında milli azadlıq hərəkatının genişlənməsinə əhəmiyyətli dərəcədə təkan vermişdir. Çox keçmədən, SSRİ-nin dağılması və 18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikasının özünü müstəqil dövlət elan etməsi ilə Heydər Əliyevin uzaqgörənliyi özünün təsdiqini tapmışdır.

Bundan başqa, Naxçıvan MR Ali Məclisinin 14 mart 1991-ci il tarixli sessiyasında Mixail Qorbaçovun tapşırığı ilə SSRİ-nin saxlanılmasına dair yeni ittifaq müqaviləsinin bağlanması üçün referendumun keçirilməsinə dair Azərbaycan SSR Ali Sovetinin qərarının muxtar respublikada icra olunmaması qərara alınmışdır. Bu addım da SSRİ-nin dağılmasına və Azərbaycanda müstəqil dövlətin qurulmasına görkəmli dövlət xadimi Heydər Əliyevin xidmətlərindəndir.

Vətənə qayıdışında hər hansı bir vəzifə tutmaq üçün heç bir niyyətinin olmadığını dəfələrlə bəyan edən Heydər Əliyev, eyni zamanda, həm də ən çətin məqamlarda xalqın iradəsinə ehtiramla yanaşmışdır. O, muxtar respublika əhalisinin təkidi və tələbi ilə 3 sentyabr 1991-ci ildə Ali Məclisin sessiyasında Naxçıvan MR Ali Məclisinin Sədri seçilmişdir. Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sessiyasında dörd dəfə çıxış edərək, vəzifəyə seçilməkdən imtina etsə də, muxtar respublika üzrə 77 deputatın yekdil səsverməsi ilə Ali Məclisin sədri vəzifəsini qəbul etməli olmuşdur.

Naxçıvan MR Ali Məclisinin sədri kimi Heydər Əliyev Azərbaycanın bu ayrılmaz tərkib hissəsi olan qədim diyarını Ermənistanın işğalından xilas etmişdir. O, sovet ordusunun Naxçıvanda xidmət edən hissələrini dinc yolla muxtar respublikanın ərazisindən çıxarmışdır. Heydər Əliyev 21 noyabr 1991-ci ildə Azərbaycanın gələcək dövlətçilik tarixində müstəsna rolu olan Yeni Azərbaycan Partiyasını təsis etmişdir. Azərbaycanın Qarabağ bölgəsində müxtəlif qurumlar və ya ayrı-ayrı şəxslər tərəfindən idarə olunan partizan dəstəsinə bənzəyən hərbi qruplaşmaların olduğu bir dövrdə Heydər Əliyev 7 sentyabr 1991-ci il tarixdə qəbul etdiyi qərarla Naxçıvan Muxtar Respublikasında Dövlət Müdafiə Komitəsi yaratmışdır. Azərbaycanda ilk dəfə olaraq kolxoz və sovxozların ləğv edilməsi və torpaq islahatlarının aparılması da 1992-ci ildən etibarən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin mübarizəsinin və ideallarının zirvəsi Azərbaycanda dövlət müstəqilliyinin bərpasından ibarətdir. Ulu öndər ən müxtəlif münasibətlərdə öz nitqlərində müstəqil dövlətçiliyin qurulmasını Azərbaycan xalqının tarixi nailiyyəti olduğunu qeyd etmiş, dövlət müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsini ən vacib məsələ kimi qarşıya qoymuşdur. Lakin çox təəssüf ki, XX əsrin doxsanıncı illərinin başlanğıcında hakimiyyətə gəlmiş Ayaz Mütəllibov və Əbülfəz Elçibəy Azərbaycan Respublikasının ərazi bütövlüyünü, ictimai-siyasi sabitliyi qoruyub saxlaya bilməmişlər. Ermənilərin təcavüzü nəticəsində Qarabağda və ətraf rayonlarda Azərbaycan torpaqlarının 20 faizi işğal edilmiş, Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmuşlar. Nəticədə 1 milyona yaxın Azərbaycan əhalisi məcburi köçkün və qaçqın kimi Bakı şəhərinə və Azərbaycanın rayonlarına səpələnmişlər. Çox təəssüf ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan hərbi birləşmələrinin Qarabağda Azərbaycan ərazilərindən çıxması haqqındakı qətnamələri yerinə yetirilməmiş şəkildə qalmışdır. Belə bir çətin, hərtərəfli böhran şəraitində Azərbaycan xalqının dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən çıxara biləcək yeganə qüvvə görkəmli dövlət xadimi, böyük siyasi təcrübəyə malik olan Heydər Əliyev idi.

Azərbaycanın tanınmış ziyalıları 1991-1992-ci illərdə Bakıdan Naxçıvana gələrək, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevlə görüşmüş, onun xalq və dövlət naminə, müstəqil dövlətçiliyin itirilmək təhlükəsindən xilası üçün yenidən siyasi hakimiyyətə qayıtmasını xahiş etmişlər. Yüksək dövlət vəzifəsi tutmaq niyyətində olmadığını bildirən Heydər Əliyev hər dəfə bu təkliflərdən imtina etmişdir. Lakin Qarabağda və ətraf rayonlarda Azərbaycan torpaqlarının itirilməsinin davam etdirilməsi, Azərbaycanın müstəqil dövlətçiliyinin real təhlükə ilə üz-üzə qalması Ulu öndərin Yeni Azərbaycan Partiyasını (YAP) yaratmağa razılıq verməsinə səbəb olmuşdur. Azərbaycanın 91 nəfər tanınmış ziyalısının 16 oktyabr 1991-ci il tarixində "Səs" qəzetində dərc etdirdiyi "Azərbaycan sizin sözünüzü gözləyir" adlı müraciətinə Heydər Əliyev "Yeni müstəqil Azərbaycan uğrunda" adlı məqaləsi ilə müsbət cavab vermişdir.

"Azərbaycan Sizin yolunuzu gözləyir" adlı məqalədə tanınmış ziyalılar siyasi və elmi cəhətdən əsaslandırılmış şəkildə qazanılmış dövlət müstəqilliyinin itirilməməsi naminə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasının zəruri olduğunu bəyan edirdilər: "Mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə milmir... Dünənə kimi küçə və meydanlarda demokratiyadan danışanlar demokratiyanın nə demək olduğunu dərk etmirlər. Rəhbərliyin siyasi naşılığından, idarəetmə səriştəsizliyindən, hakimiyyət hərisliyindən həm daxildən, həm də xaricdən müəyyən qüvvələr öz mənafeləri üçün istifadə edirlər... Respublikanın olan-qalan iqtisadi potensialı dağılır, təbii sərvətlərimiz talan olunur. Gələcəyə ümidsizlikdən yüzlərlə ziyalı, yüksəkixtisaslı kadrlar ölkəni tərk edirlər. Siyasi partiyalar arasında, sözün əsl mənasında, geniş xalq kütlələrinin dərin inam və etimadını qazanmış, öz ətrafında müxtəlif zümrələrdən adamları birləşdirə biləcək, beynəlxalq və respublika həyatının bütün sahələrindən tam və yetkin məlumatlı olan güclü lider yoxdur. "Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq versəniz, Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Görkəmli dövlət xadimi Heydər Əliyev respublikada yaranmış ağır vəziyyəti, xüsusən dövlət müstəqilliyinin itirilmə təhlükəsinin olduğunu nəzərə alaraq, "Səs" qəzetinin 6 noyabr 1992-ci il tarixli sayında dərc edilmiş "Yeni müstəqil Azərbaycan uğrunda" sərlövhəli məqaləsində müstəqil dövlətçilik naminə belə bir partiyanın işində iştirak etməyə hazır olduğunu bildirmişdir: "Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı problemlərinə biganə olmağa heç kəsin haqqı yoxdur. Güman edirəm ki, müstəqil Azərbaycan dölətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya, siaysi və plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurtdən doğur. Belə partiya Azərbaycanın ictmai-siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə bir partiya yaradılarsa, onun fəaliyyətində iştirak etməyə hazıram".

Beləliklə, 21 noyabr 1992-ci ildə Heydər Əliyevin sədrliyi ilə Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis qurultayı keçirilmişdir. Qurultayda Yeni Azərbaycan Partiyasının yaradıldığı elan edilmiş, partiyanın Proqramı və Nizamnaməsi qəbul olunmuşdur. Ən başlıcası görkəmli dövlət xadimi Heydər Əliyev açıq səsvermə yolu ilə bu siyasi partiyanın sədri seçilmişdir. Bu hadisə müstəqillik dövründə Azərbaycan cəmiyyətində böyük dəyişikliklərin başlanğıcı olmuşdur. Doğrudan da, "Yeni Azərbaycan Partiyasının əbədiyaşar ideoloqu Heydər Əliyevin yaratdığı partiya zamanın bütün keşməkeşlərindən şərəflə çıxaraq özünün xalqa bağlılığını, dünənin, bugünün və sabahın partiyası olduğunu təsdiq etmişdir".

Naxçıvan MR Ali Məclisinin Sədri kimi Heydər Əliyevin Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə yaratdığı əlaqələrdə Naxçıvanın erməni işğalından xilas edilməsində və sosial iqtisadi inkişafında mühüm rol oynamışdır. Muxtar Respublikanın rəhbəri Türkiyə və İrana səfərlər etmiş, danışıqlar aparmış, müvafiq sənədlər imzalamışdır. Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin 28 may 1992-ci il tarixdə Naxçıvana gəlməsi beynəlxalq əhəmiyyətə malik mühüm tarixi hadisə idi. Həmin gün Naxçıvan MR-in Sədərək kəndində Naxçıvanla Türkiyə arasında salınmış "Ümid körpüsü"nün açılışı olmuş və bu münasibətlə körpünün üstündə keçirilmiş izdihamlı mitinqdə Süleyman Dəmirəl və Heydər Əliyev tarixi nitq söyləmişlər. Ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi 16 dekabr 1992-ci il tarixdə imzaladığı "Dünya Azərbaycanlıların Həmrəyliyi Gününün təsis edilməsi haqqında" Sərəncamı da mühüm siyasi-tarixi əhəmiyyətə malik olan hadisədir. Məhz bu tarixi sərəncamla ölkəmizdə dünya azərbaycanlıları anlayışı təkrar formalaşmış və böyük hərəkata çevrilmişdir.

Bütövlükdə, Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrü həm Ulu öndərin tərcümeyi-halında və həm də Azərbaycanın siyasi inkişafında xüsusi yer tutur. Həqiqətən də, "müdrik siyasi xadimin Naxçıvanda yaşayıb-işlədiyi dövrdə qəbul etdiyi dövlət əhəmiyyətli və cəsarətli qərarlar, həyata keçirdiyi islahatlar Azərbaycanda milli dövlətçiliyin möhkəmləndirilməsi baxımından mühüm siyasi və tarixi əhəmiyyətə malikdir. Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərdiyi dövrdə bütün Azərbaycan xalqı və Vətən üçün taleyüklü məsələlərdə daim qətiyyətlilik nümayiş etdirmişdir.

XX əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycanda iqtidarda olan AXCP – Müsavat hakimiyyəti səriştəsiz və təcrübəsiz insanlardan təşkil olunduğu üçün ölkəni idarə etmək qabiliyyətində ola bilməmişdir. Ölkədə nüfuzu ilə heç vaxt seçilməmiş Ayaz Mütəllibovun və ümumiyyətlə, dövlətçilik təcrübəsi olmayan Əbülfəz Elçibəyin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1991-1993-cü illərdə ölkəmizdə cəmiyyət həyatının bütün sahələrində dərin böhran vəziyyəti yaranmışdı. Hətta gənc Azərbaycan Respublikası dövlətçiliyini itirilmək təhlükəsi ilə üz-üzə qalmışdı. 1993-cü ilin may ayının əvvəllərində Surət Hüseynovun himayəsində olan ordu birləşmələri və onun tərəfdarları üsyan qaldıraraq Gəncə şəhərində və ətraf ərazilərdəki bəzi dövlət orqanlarını ələ keçirmişdilər. Ölkə vətəndaş müharibəsi təhlükəsi vəziyyətində idi.

Belə bir məsuliyyətli və ağır dövrdə Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev Azərbaycan Respublikasının o zamankı rəhbərləri tərəfindən Bakıya dəvət olunmuşdur. Eyni zamanda, Azərbaycan xalqı da həm Bakı şəhərində həm də bir çox rayonlarda mitinqlər keçirərək Heydər Əliyevin paytaxta gəlib ölkəmizi yaranmış çətin və mürəkkəb vəziyyətdən qurtarmasını təkidlə tələb edirdi.

Ulu öndər Azərbaycanın dövlət müstəqilliyinin itirilməsi təhlükəsinin aradan qaldırılması naminə 1993-cü il iyunun 9-da xalqın tələbi ilə Bakıya gəlmişdir. O, yaranmış hərbi-siyasi vəziyyətlə yerində tanış olmaq üçün çətin şəraitdə əvvəlcə qiyamın baş verdiyi Gəncə bölgəsinə getmiş, orada zəruri danışıqlar apardıqdan sonra Milli Məclisdə çıxış edərək əsl həqiqət və çıxış yolları haqqında Azərbaycan xalqına məlumat vermişdir. Mövcud iqtidarın rəhbərləri istefaya getdiklərini elan etmişlər. Görkəmli dövlət xadimi Heydər Əliyev 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Ali Sovetinin Sədri vəzifəsinə seçilmişdir.

*(ardı var)*



# Millət Müəllimi üçün çiçəklər

**İnsanın zaman-zaman ucaltdığı binalar içərisində həmişə ən mötəbəri və sadəsi ən uzaq sabahlara çatanı elm evi olub. Böyük azərbaycanlı Heydər Əliyev ömrü boyu elmi sevdi, alimi sevdi, elmə qayğı göstərdi, alimdən diqqətini əsirgəmədi, elm evini qorudu. Çünki özü də bütün məziyyətləri və qabiliyyətləriylə bir qüdrətli fikir adamı idi.**

Azərbaycanın baş elm evi – Milli Elmlər Akademiyası bu gün Cavid prospektində, Heydər Əliyevin Azərbaycana yenidən qaytardığı dahi şairin möhtəşəm abidəsi ilə üzbəüzdür və mən buna rəmz kimi baxıram. Bütün insanları bərabər sayan Təməl Kitabın – “Quran”ın öyrətdiyi və Tanrı Elçisinin də təsdiqlədiyini Cavid şeir diliylə bəyan edir, yalnız biliklə, savadla bir insanın başqa insandan üstün olmasına inanırdı:

*Gərçi xilqətdə bəşər birsə, yenə*
*Tay deyil bilməyən əsla bilənə.*
*Kişi ürfan işığından parlar,*
*Şübhəsiz, bilgidə Allah gücü var.*

Heydər Əliyev də biliyin intəhasız gücünə, onda ilahi qüdrətin olmasına əmindi, ona görə biliyi sevirdi, millətinin zəkaca sağlam – savadlı-təhsilli olmasını daim arzulayırdı. İnandığı bu həqiqətə ömrü boyu sədaqətini azaltmadı, daim müəllimin yanında oldu, həmişə təhsilin qayğıları ilə yaşadı, müdam məktəbi qorudu. Bütün bu içəridən gələn əməklərinin sayəsində də Heydər Əliyev xalqının həmişəvar dərsliyinə, əbədi məktəbinə çevrildi.

Heydər Əliyevin tükənməz müəllim sevgisinin başlıca qaynaqlarından biri də bu idi ki, o, məktəb illərində də, sonrakı təhsil mərhələlərində də yaxşı müəllimlərdən dərs almışdı, kamil ustadlar görmüşdü və hər birini də daim ehtiramla anırdı. Elə həmin Hüseyn Cavidin böyük qardaşı və ilk müəllimi olmuş Şeyx Məhəmməd Rasizadə Heydər Əliyevə də indi ötmüş yüzilin uzaqlarında qalan 1930-cu illərdə Azərbaycan dilinin şirinliyini dadızdıran, onu ədəbiyyatımızın ülviyyətinə heyran qoyan ilk ustadlardan idi. Heydər Əliyev müəllim təlqinediciliyinin örnəyi saydığı Şeyx Məhəmmədi anarkən daim minnətdarlıqla söyləyirdi ki, uzun illər təhlükəsizlik orqanlarında çalışdığından və orada sovet dönəmində bütün yazı-pozunun rusca aparılması səbəbindən həmin sahə üzrə təhsilini də rusca alması, sonralar istər Sovet Azərbaycanına rəhbərlik etdiyi, Kremldə çalışdığı illərdə də həmişə işçi dilinin rusca olması ucbatından o da sağında-solundakı bir çox başqaları kimi, ana dilində səlis və ürəyi istəyən səviyyədə yazıb-danışmaq vərdişlərini yadırğamadısa, bunun ilk və başlıca səbəbkarı həmin tələbkar və öyrətməkdə mahir ustadıdır.

1996-cı ilin oktyabrında unudulmaz Heydər Əliyevin başçılığı ilə Naxçıvana, Cavid məqbərəsinin açılışına getdiyimiz ərəfədə Şeyx Məhəmmədin ailəsi ondan qalan bir çamadan əlyazmanı mənə vermişdi və mən də bir-bir o yazıları oxuduqca həm güclü müəllim, həm yaxşı şair, həm də qabil tərcüməçi olmuş bu təmənnasız maarif carçısının bütöv şəxsiyyətinə vurulmuş, onun haqqında ayrıca yazı hazırlamaqçün axtarışlara başlamışdım. Qızının, digər qohum-əqrəbasının xatirələrini dinləyəndən sonra sonranın məşhurlarına çevrilmiş keçmiş şagirdlərini soraqlamağa başlamışdım və onları da müəyyənləşdirmək çətin olmamışdı. Çünki Şeyx Məhəmməddən qalan yazıların arasında müxtəlif illərdə dərs dediyi şagirdlərinin siyahıları da vardı, onlardan bir qisminin həmin illərdə yazdığı, xoşuna gəlmiş inşalarını da saxlamışdı. Heydər Əliyevin adını da o siyahılardan birində görmüşdüm və Naxçıvan səfərimiz əsnasında ilk fürsətdə ondan ustadı haqda soruşmuşdum.

Yetişməsində zəhməti olmuş müəllimlərinin hər birinə özünü borclu hesab etsə də, onların arasında Şeyx Məhəmmədin yerinin məxsusi olduğunu söyləyən Heydər Əliyev xüsusi vurğulamışdı ki, elə məktəb illərindən sevimli müəlliminin artıq həmin dövrdə məşhur olan kiçik qardaşı Hüseyn Cavidin vurğunu olub, illər ötdükcə də Cavidə məftunluğu artıb. Ona görə də sonralar Cavidin layiq olduğu əsl qiymətinin verilməsi, bir zamanlar tapdanmış haqlarının qaytarılması, ədəbi mirasının bütövlüyü ilə xalqa çatması üçün həmişə əlindən gələni edib və həmin işləri görərkən daim bunu da düşünərək təsəlli tapıb ki, bütün bunlarla həm də əziz müəlliminə, Şeyx Məhəmmədə azacıq da olsa borcunu qaytarır.

Müəllim haqqında Azərbaycanın başqa rəhbərləri də müxtəlif vaxtlarda hansısa çıxışlarında, görüşlərində, yazılarında yüksək fikirlər söyləyiblər, amma onların dedikləri zahirən sanki elə Heydər Əliyevin dilə gətirdiyi ali qiymətə bənzəsə də, hec vəchlə bu siqlətdə, bu istilikdə, bu səmimiyyətdə olmayıb. Çünki o sözləri söyləyəndə Heydər Əliyev bütövlükdə Azərbaycan müəllimini düşünsə də, həmişə gözləri önündə unuda bilmədiyi, ustadlığın timsalı kimi pərəstişə layiq Şeyx Məhəmməd kimi şəxsiyyət-müəllimlərinin surəti canlanıb: ***“Azərbaycan cəmiyyətində müəllim bu gün də, gələcəkdə də ən hörmətli insan kimi qəbul edilməlidir və müəllimlik peşəsi ən yüksək qiymətə layiq olan peşədir. Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda, qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə də ola bilər, ancaq Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimlərdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, bugünkü iqtisadiyyatı, bugünkü mədəniyyəti və bugünkü yüksəlişi ola bilərdimi?! Bunların hamısını biz məktəblərdən almışıq, bunların hamısını biz universitetlərdən almışıq, bunların hamısını siz müəllimlərdən almışıq”.***

*Rafael HÜSEYNOV,*
*Milli Məclisin sədr müavini, akademik*

Milli tariximizə möhürünü vurmuş, millətiylə birgə daim yaşayacağına əmin olduğunu öncədən söyləmiş qüdrətli Heydər Əliyevin uca boyunun tarixin bütün uzaqlarından görünəcəyinə və yeni nəsillərin də həmişə onun yolunu araşdıracağına, şəxsiyyətinə maraq göstərəcəyinə, irsinə qiymət verməyə çalışacağına şübhə yoxdur. Qiymətlər, əlbəttə, müxtəlif olacaq – böyük dövlətçi, böyük siyasətçi, böyük qurucu. Amma həmin dəyərləndirmələr arasında hökmən bir başqa qiymət də daim yer alacaq və zənnimcə, Ulu Öndərin ən yüksək və dəqiq qiyməti də məhz bu olacaq – maarifçi Heydər Əliyev.

“Maarif” kəlməsi həm səslənişcə, həm mahiyyətcə “arif” kəlməsi ilə qohumdur. Heydər Əliyev arif insan idi və umurdu ki, milləti və dövləti də mürəkkəb yeni zamanın qəliz gedişatında arif, bilgin, oxumuş olsun, zəkası ilə irəli getsin, dünya xalqları içərisində seçilsin.

Ona görə də sovet dövründə də, müstəqillik illərində də Heydər Əliyev apardığı dövlətçilik siyasətində təhsilə, maarifə, elmə məxsusi əhəmiyyət verdi, bu sahələrə qayğısı mütəmadi oldu.

İndi o söhbətdən 20 il keçir. 2005-ci il idi, Azərbaycan Elmlər Akademiyasının ağsaqqallarından olan akademik Musa Musayevlə (1921–2010) görüşmüşdük və 1949-cu ildən həyatını respublikanın bu beyin mərkəzinə bağlamış, 1960-cı ildən Zoologiya İnstitutunun direktoru, 1967-ci ildən akademik, Heydər Əliyevəqədərki akademiya ilə Heydər Əliyev çağlarının akademiyasının təfavütünü canlı şahid kimi görüb gələn, bütün bunları ömrünün fəsilləritək yaşamış şəxs kimi müqayisələr apararaq qiymətlər verməkçün əvəzsiz və nadir həmsöhbət olan bu canlı klassikdən daha mötəbər münsif o vaxtlar çətin ki, tapılaydı.

Musa müəllim söhbətini belə başlamışdı ki, yarım əsrdən artıq müddətdə akademiyada işlədiyindən XX əsrin ortalarından etibarən respublikaya rəhbərlik etmiş bütün Mərkəzi Komitə birinci katiblərini görüb. Heydər Əliyevi tanıyanacan da onun böyük qardaşı Həsən Əliyevlə 1944-cü ildən dostluq münasibətləri olub. Musa müəllim söyləyirdi ki, Heydər Əliyev respublikanın rəhbəri seçiləndən sonra ilk addımlarından biri akademiya rəhbərliyinin möhkəmləndirilməsi oldu. Birinci növbədə institutlarla tanış oldu, Fizika İnstitutuna getdi, bütün bir iş gününü orada keçirdi, ardınca akademiyada alimləri qəbul etdi, respublika akademiyasının rəhbərliyini kimə tapşırmaq haqqında geniş məsləhətlər apardı.

Musa müəllim respublikaya rəhbərliyə başladığı ilk günlərdən Heydər Əliyevin Elmlər Akademiyasına necə həssas, qayğıkeş və tələbkar yanaşdığı kimi, 1982-ci ildə Siyasi Büronun üzvü seçiləndən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunduqdan sonra Bakıdan ayrılıb Moskvaya köçməli olanda akademiyayla, alimlərlə necə vidalaşdığını da riqqətlə anırdı. Danışırdı ki, Moskvaya gedişindən qabaq Heydər Əliyevin ziyalılarla keçirdiyi görüşlər silsiləsindən biri də akademiyanın alimləri ilə oldu, həmin görüşdə ali məktəb rektorları da iştirak edirdi: “Bugünkü kimi yaddaşımdadır. İki saatadək söhbət oldu. Sözünün əvvəli də, axırı da bu idi ki, elmi, təhsili indiyə qədər mənim iştirakımla necə irəli aparmısınızsa, o cür də davam etdirin. Mən də lazım olanda sizi Moskvada dəstəkləyəcəyəm. Açığı, Heydər Əliyevin Moskvaya təyinat almasını eşidəndə bir tərəfdən sevinmişdik ki, eloğlumuz SSRİ rəhbərliyindəki 3-4 şəxsiyyətdən biri olacaq, o biri tərəfdən də bu xəbər yayılandan sonra akademiyada, rəyasət heyətində yığışaraq öz aramızda dərdləşmişdik ki, aqibətimiz necə olacaq, Heydər Əliyev sanbalında ikinci bir şəxsiyyət tapılacaqmı bizə əvvəlki kimi arxa dura, çətinə düşəndə işlərimizi yoluna qoya bilsin. Düzü, Heydər Əliyevin özünün də qırımından, hansı sözləri seçərək necə danışmasından, nitqinin ahəngindən hiss edirdik ki, təyin olunduğu vəzifə nə qədər yüksək olsa da, elə bil ki, heç buralardan ayrılmaq istəmir. Hər halda mənə belə gəldi. Ancaq bu cür düşünən tək mən deyiləmmiş. Həmin görüşdən bir neçə saat sonra gec saatlarda mənə akademik Həsən Abdullayev zəng vurdu ki, Musa, sənə elə gəlmirmi Heydər Əliyevin ürəyi burda qalır, Azərbaycandan könülsüz ayrılır?! Baxdım ki, elə fikirlərimiz üst-üstə düşür. Qayıtdım ki, məndə də o təəssürat yarandı, ancaq bunu da düşünürəm ki, Moskvada, Nazirlər Soveti xətti ilə nəzarətində olan sahələr arasında, yəqin ki, elm də, təhsil də olacaq. Cavan Siyasi Büro üzvü, bilikli, işlək adam kimi, yəqin, başqa respublikalarda da bu sahələrin inkişafına əncam çəkər, bir əli də bizim üstümüzdə olar. Həsən müəllim yenə fikirli-fikirli dilləndi ki, bilirəm e, düz deyirsən, Heydər Əliyev elə adamdır ki, ona hansı vəzifəni tapşırırsan-tapşır, o işi heç kimin bacarmayacağı qədər yüksək səviyyədə aparacaq. Ancaq bu mühit onunçün çox doğma idi. Elə bil ailəsindən ayrılır”.

Sonra dünya dəyişdi, 15-20 il ərzində həyat, hadisələr ikiqat, üçqat çox zaman ötübmüş kimi yeyin cərəyan etdi. İllərlə sədaqətlə xidmətində olduğu rejim ona qarşı namərdliklər də etdi, yarandığı gündən törətdiyi saysız haqsızlıq və qansızlıqların cəzasını alırmış ki, sovet quruluşu çökdü də, Tanrının və Taleyin töhfəsi kimi 70 illik həsrətdən sonra müstəqillik də qayıtdı, sönmüş ulduz hesab edilən, artıq bir çoxlarının köməksiz təqaüdçü, daha hakimiyyət pillələrində heç bir gələcəyi olmayan kimi təsəvvür edilən Heydər Əliyev də qayıtdı.

Elmlər Akademiyasının ona məxsusi məhrəmliyinin bir əyani göstəricisi də bu oldu ki, elə qayıdışının əvvəlində yenə akademiya dururdu, bu doğma məkan ilk üz tutduğu yerlərdən idi.

1980-ci illərin sonlarında çalxantılı zamanın, 1990-cı illərin əvvəllərində cahil və ədalı yanaşmaların nəticəsində heysizləşmiş, hörmətdən, nüfuzdan salınması üçün hər mərdümazarlıqlar törədilmiş Elmlər Akademiyasına Heydər Əliyev yenə qüvvətli əllərini uzatdı, ziddiyyətli zəmanələr ayrıcında əvvəlki şəfqətlə yenə akademiyanın hayanına çevrildi.

Heydər Əliyevin onillər boyu Elmlər Akademiyasına bəslədiyi ehtiram və sevginin təmənnasızlığının ən bariz təsdiqi də bu oldu ki, günlərin birində Elmlər Akademiyasının Rəyasət Heyəti yığışaraq onun akademiyaya həqiqi üzv seçilməsi haqda qərar qəbul edəndə razılaşmadı.

Belə bir hadisənin, Heydər Əliyevin Elmlər Akademiyasının həqiqi üzvü seçiləcəyinin lap yaxın günlərdə baş verəcəyini mənə unudulmaz şair dostum Rəfiq Zəka (1939–1999) hər şey olub qurtaranədək kimsəyə bir kəlmə söyləməmək şərti ilə söyləmişdi. Kimsə bu təklifin əslində elə Rəfiqdən gəldiyini də bilmir. 1997-ci ildə Elmlər Akademiyasının prezidenti seçilmiş və ömrünün axırınadək həmin vəzifədə olmuş Fəraməz Maqsudovla (1930–2000) bizim yaxınlığımız 1987-ci ildən, Hüseyn Cavid və Müslüm Maqomayevin sərgüzəştli talelərindən bəhs edən “Vaxtdan uca” kitabım nəşr edilərək ciddi əks-səda doğurandan sonra oldu. Yaxın vaxtlarda respublika dövlət mükafatlarının veriləcəyi gözlənilirdi, ona görə də ayrı-ayrı sahələr üzrə əsərlərin müxtəlif müəssisələrdə təqdimat mərasimləri keçirilirdi. “Vaxtdan uca”nın birinci tirajı 10 min idisə də, camaat arasında kitaba qızğın marağı, hətta kitabın baha qiymətə artıq piştaxta altından satıldığını görüncə onu dərhal 100 min tirajla yenidən buraxdılar və hələ sonra yenə təkrar böyük tirajlar olacaqdı. Lakin kitab böyük şöhrət qazanmışdısa da, ona qıcqanc yanaşanlar da az deyildi. Odur ki, mənim kitabımı da dövlət mükafatına təqdim etmək təşəbbüsü ilə çıxış edən bircə ədəbi təşkilat da yox idi. Bu arada günlərin birində heç gözləmədiyim halda o vaxtlar Elmlər Akademiyası Riyaziyyat İnstitutunun direktoru işləyən akademik Fəraməz Maqsudov mənə zəng vurdu ki, sabah səni institutumuza, kollektivimizlə görüşə dəvət edirik. O çağlar mən Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda çalışırdım və Fəraməz müəllimin institutuna getməkçün sadəcə yolun obiri üzünə keçmək lazımdı. Ertəsi gün çox səmimi və məzmunlu bir görüş keçirildi və mərasimin sonuna yaxın Fəraməz müəllim ayağa qalxaraq bildirdi ki, Riyaziyyat İnstitutunun Elmi Şurası “Vaxtdan uca” əsərini respublika Dövlət Mükafatına təqdim etmək haqda qərar qəbul edib. Toplantının yönü dəyişdi, artıq hamı bu mövzuda danışmağa başladı və bir neçə gün sonra da Fəraməz Maqsudovun rəhbərlik etdiyi institutun təmsilçiləri təqdimat barədə sənədləri respublika Dövlət Mükafatları Komitəsinə təqdim etdilər.

Fəraməz müəllimlə Rəfiq Zəka dost idilər, mən də Fəraməz müəllimlə yaxınlığım yaranınca Rəfiqlə dostluq etdim. “Vaxtdan uca” bizim üçümüzü birləşdirdi, ondan sonra tez-tez müxtəlif məclislərdə vaxtaşırı olaraq birgə görünməyə başladıq.

1990-cı illərin ortalarında mən həm də “Amerikanın səsi” radiosunun xüsusi müxbiri idim, Prezident Heydər Əliyevin bütün yerli görüşləri və xarici səfərlərində iştirak edərək həm reportajlar hazırlayır, həm də ayrı-ayrı qəzetlərə, ən çox da "Zaman" qəzetinə məqalələr yazırdım. 1998-ci il mayın ortalarında bir axşam Rəfiq Zəkanın Hökumət evinin yaxınlığındakı mənzilinin balaca bağçaya bənzəyən balkonunda əyləşib çay içirdik və mənə o sirri açdı ki, Fərəməzə yaxşı bir təklif vermişəm, əvvəl tərəddüd edirdi, ancaq sonra onu bu addımı atmasına inandıra bildim.

Rəfiq təfərrüatı da açdı ki, Heydər Əliyevin hansı zəkanın sahibi olması bizə də, dünyaya da bəllidir, özün də akademiya işçisi kimi şahidsən ki, bu gözəl qurumu 5-6 il əvvəl məhv etməyə tətiklənmişdilər, Heydər Əliyev gəldi, çox şeylər kimi, akademiyanı da xilas etdi, ona yeni nəfəs verdi. Bu kişi akademik adını həm biliyi, siyasət, tarix elminə bilavasitə xidmətləri ilə, həm də akademiyaya göstərdiyi qayğıları ilə daşımağa hər kəsdən daha əvvəl həm haqq edir, həm də layiqdir.

Rəfiq əlavə etdi ki, bu təklifini Fəraməz müəllimə açanda o, sözünü ağzında qoyub ki, bu, alınası iş deyil. Mən Heydər Əliyevin özündən icazə almamış belə iş görə bilmərəm. O isə, yəqin ki, bu təkliflə razılaşmaz, bəlkə əsəbiləşər də.

Rəfiq rəhmətlik söyləyirdi ki, təkid elədim, Fəraməzi inandırmağa çalışdım, elə buna nail də oldum ki, akademiya müstəqil təşkilatdır, siz heç Heydər Əliyevə bildirməyin, akademiklər özləri yığışıb müzakirə keçirsinlər, qərar çıxarsınlar, hadisə baş verəndən sonra Prezident nə deyəcək ki, artıq gec olacaq.

Elmlər Akademiyasının Nizamnaməsinə görə, həqiqi və müxbir üzvlər yalnız Ümumi Yığıncağın qərarı ilə seçilə bilər. Ona görə də bir gün əvvəl Rəyasət heyətinin iclasını təşkil edərək Ümumi Yığıncağın çağırılması qərarını vermiş, ardınca da 1998-ci il mayın 23-də Ümumi Yığıncaqda Heydər Əliyevin siyasi elmlər ixtisası üzrə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi barədə vəsatəti açıq müzakirəyə çıxarmışdılar. O illər idi ki, Elmlər Akademiyamızın həqiqi və müxbir üzvləri sırasında köhnə nəslin sanballı alimləri qafiləsindən olan Fuad Qasımzadə, Firidun və Tofiq Köçərlilər, Məqsəd Səttarov, Asəf Nadirov, Teymur Bünyadov və digərləri həyatdaydılar, fəaliyyətdəydilər, dedikləri sözün, atdıqları imzanın çəkisi vardı. İclas, düşünüldüyü kimi, ruh yüksəkliyi ilə keçir, qərar yekdilliklə qəbul edilir və artıq bir az da təntənə ilə keçmiş Ümumi Yığıncağın eyforiyasında olan Fəraməz müəllim akademik diplomunu Prezidentə çatdırmaq üçün əlaqə saxlayanda dərin pərtliyə düçar olur. Heydər Əliyev bir qədər şair çılğınlığı qatışmış və razılaşdırılmadan edilən təşəbbüsə görə Fəraməz Maqsudovu danlasa da, dərinə getmir.

Ümumən, Heydər Əliyev Fəraməz Maqsudovun xətrini istəyirdi, insan və alim kimi ona rəğbət bəsləyirdi və bu da xatirimdədir ki, 1996-cı ildə Naxçıvana Cavid məqbərəsinin açılış mərasiminə getdiyimiz səfərdə Ulu Öndər axşam qurulan ziyafətdə Fəraməzin tamadalıq etməsi təklifini şəxsən özü irəli sürmüşdü.

Ümumi Yığıncağın sabahı günü Elmlər Akademiyasına Heydər Əliyevin imzaladığı məktub gəlir: “Hörmətli akademiklər! Azərbaycan dövlətinin ən yüksək elm müəssisəsi Azərbaycanın Elmlər Akademiyasıdır, o, dövlətə mənsubdur və bu akademiyanın işi və bu akademiyada işləyən adamların səviyyəsi, şübhəsiz ki, başqalarından yüksəkdir və yüksək olacaq. Biz bu akademiyanın hörmətini həmişə qoruyub saxlamalıyıq və heç vaxt imkan verməmək olmaz ki, bizim akademiyamız və yüksəksəviyyəli elmi-tədqiqat institutlarımız başqa belə, özəl, cürbəcür yaranan elm müəssisələri arasında ərisin, itsin. Buna yol verməmək olmaz”.

Mən ali məktəbi bitirəndən təyinatımı akademiyamıza alaraq artıq yarım əsrə yaxındır ki, orada fasiləsiz çalışıram, laborantlıqdan akademikliyə qədər qədəm-qədəm irəliləmişəm və bu təsisatın hər üzünə bütün tarixiylə bələdəm, Azərbaycan Milli Elmlər Akademiyasını da tam qətiyyətlə xalqımızın XX yüzildə qazandığı ən qiymətli sərvətlərdən hesab edirəm. Bunu da tam qətiyyətlə təsdiq edirəm ki, akademiyanın Ümumi Yığıncağının 1998-ci ilin 23 mayındakı o qərarı yerindəymiş, ədalətliymiş, böyük Heydər Əliyev gerçəkdən də fitrətindən alim olan insandı.

Mən bilmirəm akademiya Heydər Əliyevin ifrat təvazökarlıq nümunəsi olan həmin məktubundan sonra qərarını ləğv edib, ya yox, ancaq mənim nəzərimdə o mütəfəkkir insan elə alimlərimizin ən üstünü, akademiklərimizin ən kamili kimi həmin ada yüzdə-yüz layiq idi, mənim düşüncəmdə və ürəyimdə unudulmaz akademiya üzvlərimizin, görkəmli elm xadimlərimizin 1998-ci ilin gözəl bir yaz günündə bir səslə çıxardıqları o qərar həmişə elə mayın 23-dəki qüvvəsində qalır!

Heydər Əliyev hansı elmin yiyəsi olduğunu isə bu hadisələrdən çox-çox əvvəl, hələ cavan çağlarında, Azərbaycan respublikasına birinci dönəm rəhbərliyinin yenicə başlandığı əyyamlarda alimlər aliminin qarşısında isbat etmişdi.

1970-ci ildə SSRİ Elmlər Akademiyasının ovaxtkı prezidenti, böyük riyaziyyatçı alim Mstislav Keldış (1911–1978) Azərbaycana gəlir. Azərbaycan elmini ocağkı sovet elmi kontekstində təhlil edərək respublikanın yeni elmi üfüqləri fəth etməyə hazır olmasının perspektivləri haqda Heydər Əliyev Mstislav Vsevolodoviçin da qatıldığı toplantıda elə parlaq çıxış edir ki, akademik mat qalır və bu heyrətinin müqabilində də belə bir qərar qəbul edilir ki, ən tez bir zamanda o dövrdə Mərkəzin yalnız hərbçilərə ayırdığı BESM-6 elektron hesablama maşınının ilkləri Azərbaycana gətirilsin və bununla da Azərbaycan Elmlər Akademiyasında hesablama texnikasının inkişafında yeni bir mərhələ başlanır.

İctimaiyyətin xəbərsiz qaldığı, amma bilinməsi gərək olan o qədər belə məqamlar var ki! Elə həmin sovet dönəmində Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda qurulan və elmi texnologiyaların müasir nailiyyətlərini tətbiq edən bir yığın müəssisələr, zavodlar vardı ki, onların bir çoxu qapalı idi, orada aparılan araşdırmaların, görülən işlərin çoxu məxfi idi. “Nord”, “Peyk”, “Ozon” kimi müəssisələr, böyük mikroelektronika elmi istehsalat birlikləri vardı ki, onlar birbaşa SSRİ müdafiə sənayesinə işləyirdilər.

Bunların iqtisadi, sənaye faydası öz yerində, amma belə müəssisələrin Heydər Əliyevədək aqrar respublika kimi tanınan Azərbaycana bir-birinin ardınca gətirilməsi həm də siyasi ağırlıqlı ciddi nailiyyətlər idi.

Heydər Əliyev bir bağban idi. Bağbanlarsa cürbəcür olur. Eləlarinə rastlaşırsan ki, əkdiyini əkir və məqsədi də ləngimədən məhsulu yığmaq olur. Amma daha ağıllı, daha uzağa baxan bağban işin ağır zəhmət tələb edəninə girişir, asta-asta böyüyən, faydasını xeyli illər sonra görəcəyi ağacları bəsləyir. Heydər Əliyevin ozamankı alimanə işləri ilə illər ötdükcə respublikanın intellektual potensialı və texnoloji gücü, müasir sənaye ölkəsinə çevrilmək imkanları artırdı. Bunu da dərk edirdi ki, yüksək texnologiyanın inkişafı üçün insanlar lazımdır, kadrlar yetişdirilməlidir. Yeni nəsil kadr hazırlığı da Heydər Əliyevin strateji təfəkküründə, çalışmalarında daim ön sırada idi.

...Elə bil dünən idi. Unudulmaz Heydər Əliyev Azərbaycan boyu açdığı yüzlərlə məktəbdən birinə – Səməd Vurğun küçəsindəki lisey məktəbin açılışına gəlmişdi. O hadisə o gün bütün cizgiləri ilə həm də ona görə yadımda qalıb ki, o məktəbdə birincilər dərsə mənim yazdığım “Əlifba” dərsliyi ilə başlayacaqdılar.

Heydər Əliyev məktəbin açılış lentini kəsdi, xeyir-duasını verdi, sonra sinif otaqlarına daxil oldu və birincilərə ilk əlifba dərsini özü başladı.

O məktəbin birinciləri artıq böyüyüblər, hərəsi həyatda öz yerini tutub. Onillər arxada qalıb və həmin məktəbin ocağkı birincilərindən hansılarısa artıq elə doğma məktəbdə müəllim işləyir. Onlara ilk dərsi demiş, ilk müəllimləri olmuş Heydər Əliyev də hər gün bu məktəbdədir, abidəyə çevrilərək o məktəbdə hər gün şagirdləri, müəllimləri qarşılayır, hər səhər sevimli balalarını salamlayır.

Yaxın–Orta Şərqdə də, Azərbaycanda da zaman-zaman insanlara sayğılı müraciət əlaməti olaraq kəlmələr düşünüblər, seçilmişlərə “şeyx”, “mövlana”, “mirzə”, “əfəndi”, “xacə” deyiblər və bir də “müəllim” söyləyiblər.

Qədim qaynaqlar Aristotelə “Birinci müəllim” deyirdi. Həmin birinci müəllimin ustadları ilahiləşdirən hikmətli kəlamı yaşayır ki, “Müəllimlər valideynlərimizdən daha üstündür. Çünki valideynlər bizə həyat bağışlayır, müəllimlər isə gözəl həyat yaşamağın sirlərini öyrədir”.

Tarixdə “İkinci müəllim” adlandırılan Əbu Nəsr Farabi də olub, “Üçüncü müəllim” çağırılmış Xacə Nəsirəddin Tusi də.

Xalqına sabahlar qoynunda gözəl, başıuca, zəkalı yaşamağın dərslərinin sirlərini öyrətmiş, yollarını göstərmiş, xəritələrini cızmış Heydər Əliyevə ən çox yaraşansa “Millət müəllimi” deyimidir.

***Bu yurd və xalq bəxtiyar gələcəklərdə daha aydın zirvələri fəth etdikcə, daha məsud yaşadıqca daim öz Müəllliminə minnətdar olacaq, onun ziyarətinə məhəbbətini qovuşdurduğu çiçəklərlə gələcək...***

**8 may 2025**

# Zamanın fövqündə dayanan lider

**Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" elan etdiyi 2025-ci ildə anadan olmasının 102-ci ildönümünü qeyd etdiyimiz görkəmli dövlət və siyasi xadim, ulu öndər Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurucusu kimi tarixi roluna diqqət yetirmək, fəaliyyətini araşdırmaq siyasi və elmi-nəzəri baxımdan vacibdir. Yaşadığı dövrdən uzaqlaşdıqca ucalığı daha aydın görünən, Azərbaycanın müstəqil dövlət kimi yaşaması, inkişafı, millətinin isə qüdrətli olmasına çalışanlara daha yaxın olan Heydər Əliyevin geniş və əhatəli müstəqil dövlətçilik fəaliyyətinin bütün tərəflərini bir məqalədə araşdırmaq imkan xaricindədir. Bundan ötrü dərin elmi-tədqiqat işlərinin aparılmasına və əsərlərin yazılmasına həmişə ehtiyac olacaqdır. Bu məqalədə başlıca məqsəd Azərbaycanın dövlət müstəqilliyinin əsaslarının yaradılması, qorunub saxlanılması və qurulmasında Heydər Əliyevin tarixi fəaliyyətinə qısa nəzər yetirməkdir.**



### Müstəqilliyin kökləri

Azərbaycan xalqı 1918-ci ilin may ayında müsəlman dünyasında ilk dəfə olaraq respublika idarə üsulunda Xalq Cümhuriyyətini yaratdı. Müstəmləkə zülmü altında inləyən müsəlman xalqlarına azad olmağın yolunu göstərdi. Ancaq bolşevik Rusiyasının istilasına məruz qaldıqdan sonra milli dövlət süquta uğradı, Azərbaycan SSR yaradıldı. Formal olaraq müttəfiq və müstəqil elan edilməsinə baxmayaraq, suveren dövlətçiliyin atributlarının məhv edilməsinə başlandı. XX əsrin 20, 30 və 40-cı illəri sovet dövlət quruculuğu adı altında müstəqil dövlətçiliyin ləğv edilməsi, zəngin təbii sərvətlərin vəhşicəsinə talan edilərək daşınıb aparılması, Azərbaycanın Mərkəzə daha çox bağlanması, milli ədəbiyyatın, milli ruhlu ziyalıların məhv edilməsi, təqiblər və repressiyalarla səciyyələnirdi. Azərbaycan rəhbərliyində təmsil olunan şəxslər arasında intriqalar, Mərkəzə şikayət dolu məktubların göndərilməsi respublikaya olan mənfi münasibəti daha da artırırdı.

Heydər Əliyevin 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilməsindən sonra şərait tədricən dəyişməyə başladı. Çarizm və sovet dövrlərində milli simasını itirmiş Bakı şəhərində fabrik və zavodların tikilib istifadəyə verilməsi nəticəsində kənd yerlərindən gənclərin axını ilə milli ruh da gəldi. Heydər Əliyevin Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçilməsi Azərbaycan xalqında özünə inamı artırdı. Xarici ölkələrin tarixçilərinin yazdığı kimi, çarizmin Şimali Azərbaycanı işğal etdikdən sonra daim sıxılmış halda olan azərbaycanlılar XX əsrdə yalnız iki dəfə Bakı küçələrində başlarını dik tutaraq gəzmişdilər: birinci dəfə –1918-ci ilin sentyabr ayında, Qafqaz İslam Ordusu tərəfindən şəhər azad edildikdən sonra; ikinci dəfə isə özlərinə inamın artdığı Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 70-ci illərdə. Bu, Heydər Əliyevin kommunist ideologiyasının və mövcud sistemin fövqündə dayandığını, zamandan uca olduğunu göstərirdi.

Müstəqillik üçün lazım olan maddi təməllər sovet sistemi daxilində formalaşdı. Ərazinin qorunmasına, demoqrafik inkişafa və hakimiyyətin güclü olmasına xüsusi diqqət yetirildi. Azərbaycan ərazisindən qonşu respublikalara pay verilmədi. Əhalinin sosial-iqtisadi şəraitinin yaxşılaşdırılması demoqrafik inkişafa ciddi təsir etdi. Azərbaycan kəndinin siması dəyişdi.

Sovet sistemi şəraitində Azərbaycanı daim didib-parçalayan, Mərkəzdə mənfi rəy yaradan intriqalara son qoyan Heydər Əliyev hakimiyyətin qanadları arasında yekdillik yaratdı, xalq ilə hakimiyyət arasında birlik qurdu, milli kadrların yetişdirilməsinə və yerləşdirilməsinə üstünlük verdi, güclü hakimiyyət formalaşdırdı. Bütün ölkədə rusların və digər slavyan xalqlarının nümayəndələri milli respublikalarda vəzifələrə gətirildiyi bir zamanda yerli kadrları hazırlayaraq ətrafına toplaması Heydər Əliyevin uğurlarının təməlini təşkil edir və zamandan uca olduğunu göstərirdi.

Müstəqillik üçün zəruri olan mənəvi amillərin formalaşması üçün addımlar atıldı. Məlum olduğu kimi, müstəqillik fikri azərbaycanlı maarifçilərin, şair, yazıçı və alimlərin əsərlərində intişar tapmışdı. İstiqlal məfkurəsini əsər və düşüncələrində daşıdıqları üçün əvvəlki illərdə təqib olunmuş alim, şair, yazıçı və jurnalistlər 70-ci illərdə azad nəfəs aldılar. Belə şəxsləri Mərkəzin cənginə verməyən Heydər Əliyev bəzən yüngülcə tənqid etsə də, az sonra onlara yüksək fəxri adlar, vəzifələr verərək qoruyur və toxunulmaz edirdi. Şair və yazıçıların əsərlərində Azərbaycan xalqını düşündürən problemlərin əks olunması, xüsusən Cənubi Azərbaycan məsələləri xarici ölkələrdə nəşr edilmiş kitablarda yazıldığı kimi, Mərkəzi Komitənin birinci katibinin kabinetinin açılmış pəncərələrindən cəmiyyətə yayılırdı. Bu, Heydər Əliyevin zamanın fövqündə dayandığının göstəricilərindən biri idi.

Azərbaycan dilinə dair tədqiqatların aparılmasını təşviq edən Heydər Əliyev görkəmli dilçi alimlərə dövlət mükafatlarını verir, Azərbaycan ədəbiyyatının tanınmış xadimlərinin xatirəsini əziz tutur və əbədiləşdirirdi. Sovet dövründə hamının ümumi vətəni hesab edilən SSRİ-nin bir guşəsindən – uzaq Sibirdən böyük türkçü, turançı şair, dramaturq Hüseyn Cavidin nəşini doğulduğu Naxçıvana köçürülməsinin dərin mənası var idi.

*Musa QASIMLI,*
*Milli Məclisin sədr müavini*

### Nə üçün Moskvaya?

Heydər Əliyevin 1982-ci ilin sonlarında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilməsi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi ilə həyat və fəaliyyətinin Moskva mərhələsi başladı. Türk, müsəlman olan Heydər Əliyevin Moskvada rəhbər vəzifələrə irəli çəkilməsi, dünyanı lərzəyə salan sovet imperiyasını idarə edən şəxslərdən biri olması bir tərəfdən, dövlət idarəçilik bacarığı, yüksək intellektual səviyyəsi, Əfqanıstana hərbi müdaxilədən sonra müsəlman dünyasında itirilmiş sovet nüfuzunu bərpa etmək niyyətləri ilə bağlı idisə, digər tərəfdən, xarici ölkələrdə nəşr edilmiş əsərlərdə yazıldığı kimi, onun Azərbaycandan uzaqlaşdırılması, Mərkəzdə daha yaxın nəzarət altında saxlanılması ilə əlaqədar idi. Mərkəzdə belə hesab edirdilər ki, Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan müstəqilliyə tam hazırlanıb, yalnız onun formal elan edilməsi qalır. Mərkəz ağır nəticələri ola biləcəyindən ehtiyat edərək Heydər Əliyevi vəzifədən çıxarmağa cürət etmirdi. Mərkəzdə oturanların fikrincə, bunun qarşısını Heydər Əliyevi vəzifədən uzaqlaşdırmaqla deyil, Moskvada daha sərt nəzarət altında saxlamaqla mümkün idi. Lakin onların bu istəyi də baş tutmadı. Moskvada işləyərkən Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı Azərbaycan tarixi və mədəniyyətinə dair kitabları, albomları hədiyyə edirdi. Bu onun böyük Azərbaycan sevgisinin və zamandan uca olmasının təzahürlərindən biri idi.

Heydər Əliyev Mərkəz üçün görkəmli sovet və partiya xadimi, türk, müsəlman dünyası üçün dünyanın quru ərazisinin altıda bir hissəsini əhatə edən böyük bir ölkəni idarə edən üç şəxsdən biri - triumvirat, müsəlman xalqları üçün müqəddəs adları daşıyan olan Heydər, Əli, Əlizadə, türk düşmənləri üçün isə Kremldə oturan türk paşası idi.

Heydər Əliyevdən sonra hakimiyyətə gələn Azərbaycan rəhbərləri respublikanın gücləndirilməsi xəttini davam etdirə bilmədilər. Azərbaycan geriyə getdi.

Sov. İKP MK-nın Baş katibi seçilən Mixail Qorbaçov türk, müsəlman respublikalarının Leonid Brejnevin hakimiyyəti illərində xeyli irəli getdikləri, dövlət müstəqilliklərini elan etməyə hazır olduqları qənaətində olduğundan SSRİ rəhbərliyində olan türk dövlət xadimlərinə etinasızlıq göstərərək onları vəzifələrindən uzaqlaşdırmaq, xalqlarını isə cəzalandırmaq yolunu tutdu. Heydər Əliyev də vəzifələrindən çıxarıldı. Bundan sonra Azərbaycan ağır günlərə düşdü. Mərkəzin təşviqi ilə Ermənistan əsassız ərazi iddiaları ilə Azərbaycanın daxili işlərinə qarışmağa və bir neçə il sonra isə açıq hərbi müdaxiləyə başladı. Ermənistanda tarixi torpaqlarında yaşayan azərbaycanlılar vəhşicəsinə qovularaq, ev-eşiklərini itirərək qaçqına çevrildilər. Azərbaycanlılara məxsus tarix və mədəniyyət abidələri yerlə-yeksan edildi. Zəif Azərbaycan hakimiyyəti bütün bunların qarşısını almağa qadir deyildi. Rəhbərlər bir-birinin ardınca dəyişsə də, vəziyyət düzəlmədi. Azərbaycan ağır böhrana düşdü. Heydər Əliyevin yeri görünürdü.

### Ağır anda xalqının yanında

SSRİ rəhbərliyi Ermənistanın əsassız iddialarını dayandırmaq əvəzinə Azərbaycanı cəzalandırmaq yolunu tutdu. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə ermənilərin də tərkibində olduğu sovet qoşun hissələri Bakıda dinc əhaliyə qarşı kütləvi qırğın törətdi. Bu, sovet rəhbərliyinin Azərbaycan xalqı, bəşəriyyət və sivilizasiya əleyhinə ağır cinayəti idi. Moskvada təhlükəsizliyinin təmin edilməməsinə, sərt nəzarət altında yaşamasına baxmayaraq, Azərbaycan xalqına qarşı qəddar repressiya aktı olan bu hadisədən dərhal sonra Heydər Əliyev ailə üzvləri, o cümlədən oğlu İlham Əliyev ilə birlikdə Azərbaycanın daimi nümayəndəliyinə gəlib bəyanat verərək konkret mövqeyini ortaya qoydu, 20 Yanvar qətliamını törədənləri ittiham etdi, ən ağır anda xalqının yanında oldu. Heydər Əliyev bu addımı ilə Azərbaycana qarşı tətbiq edilən informasiya blokadasını qırdı, həqiqətlərin dünyaya yayılmasına kömək etdi. Sovet dövlətinin və Kommunist Partiyasının mövcud olduğu bir şəraitdə bu hərəkət onun gələcək müstəqil milli dövlətçilik, siyasi fəaliyyətində zirvəyə aparan yolun başlanğıcı və zamandan uca olması demək idi.

20 Yanvardan sonra Azərbaycan xalqı Mərkəz ilə yolunun bir olmadığı qənaətinə gəldi. Bu, bir dönüş anı idi. Azərbaycanın dövlət müstəqilliyini elan etməsindən başqa yolu qalmamışdı. Lakin müstəqilliyin bərpasının astanasında olan Azərbaycan hakimiyyəti zəif idi. Respublikada xaos və anarxiya hökm sürürdü.

### Sovet sisteminə zərbə vuran siyasi xadim

Ağır günlər idi. Moskvada yaşamaq mümkün olmadığından Heydər Əliyev Azərbaycana gəldi. Lakin Mərkəzdən asılı olan respublika rəhbərləri Bakıda yaşamasına təminat vermədiklərindən Ulu öndər doğulduğu Naxçıvana getdi. Onu hərarətlə qarşılayan Naxçıvan sakinləri az sonra Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin və Azərbaycan Ali Sovetinin deputatı seçdilər. Ağsaqqal deputat olaraq Heydər Əliyevin sədrliyi altında Naxşıvan MSSR Ali Sovetinin birinci iclasında muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarıldı, Ali Sovet Ali Məclis adlandırıldı.

SSRİ-nin, kommunist ideologiyasının mövcud olmasına baxmayaraq, sovet dövrünün artibutlarından imtina edilməsi tarixi hadisə idi. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı ilk dəfə olaraq Naxçıvanda rəsmi dövlət bayrağı kimi qəbul edildi. Cümhuriyyət və onun bayrağı Sovet İttifaqının, kommunist ideologiyasının əleyhinə olduğu belə bir qərarın qəbul edilməsi ilə müstəqil dövlətin təməli atıldı. Üçrəngli dövlət bayrağı təkcə qəbul edilmədi, eyni zamanda, Azərbaycan rəhbərliyinə sovet dövrünün bayrağı, gerbi və himnindən imtina olunması və Cümhuriyyətin dövlət rəmzlərini qəbul etmək tövsiyə edildi. Az sonra Azərbaycan SSR Azərbaycan Respublikası adlandırıldı.

Sovet qoşun hissələri ilk dəfə Naxçıvandan çıxarıldı. Sərhədi Azərbaycan hərbçiləri qorumağa başladı. Beləliklə, Naxçıvan müasir Azərbaycan milli dövlətçiliyinin bərpasının və qorunmasının onurğa sütununa çevrildi. SSRİ-nin saxlanılmasına dair referendum Naxçıvanda keçirilmədi. Bakıda parlamentdə etdiyi çıxışlarında ardıcıl şəkildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının vacibliyini bildirən Heydər Əliyevin bəyanat verərək Kommunist Partiyasının sıralarından istefa etməsi uzun onilliklər boyu dünyanı qorxudan bu ideologiyanın iflasında mühüm rol oynayan amillərdən biri oldu. Minlərlə kommunist ondan nümunə götürdü. Az sonra Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi və həmin qərara Heydər Əliyevin səs verməsi müasir tariximizin ən mühüm hadisələrindən biri, zamandan ucada dayanması idi.

Bir müddət keçmiş SSRİ dağıldıqdan sonra Azərbaycan xalqı və dövlətinin qarşısında aşağıdakı başlıca vəzifələrin yerinə yetirilməsi dayanırdı: Azərbaycanın dövlət müstəqilliyini tanıtmaq, qorumaq və möhkəmləndirmək; Ermənistanın Azərbaycanın daxili işlərinə kobud müdaxiləsinə və təcavüzünə son qoymaq; ölkənin inkişafının açarını tapmaq və s. Lakin ölkə rəhbərliyi bu vəzifələrin öhdəsindən gələ bilmədi.

"Ermənistanın işğalçılıq siyasətini dayandırmağın yolu Bakıda hakimiyyətə gəlməkdən keçir" kimi yanlış, zərərli şüarla 1992-ci ilin may ayında silahlı çevrilişlə hakimiyyətə gələn qeyri formallar ölkədə daha ağır şərait yaradaraq başlıca vəzifələri yerinə yetirə bilmədilər. Hakimiyyət ilə xalq arasında uçurum, hakimiyyət qanadları arasında ziddiyyətlər dərinləşdi. Ölkənin daxili və xarici siyasəti dalana dirəndi. İşğalın davam etdiyi bir zamanda Gəncədə hərbi hissədə baş verən qiyamı yatıra bilməyən hakimiyyət proseslər üzərində nəzarəti tamamilə itirdi. Bütün bunlar azmış kimi, şimalda və cənubda xaricdən dəstəklənən separatçılığın güclənməsi ilə ölkə parçalanmaq təhlükəsi qarşısında qaldı. Azərbaycanın dövlət müstəqilliyi üçün təhdid yarandı. Azərbaycan xalqının həyatında ağır günlər idi. Xalqı və dövləti uçurumdan çıxaran liderə, dövlət xadiminə ehtiyac duyulurdu. Mənəvi-psixoloji böhran içində olan, sabaha ümidi olmayan xalq nicat yolu arayırdı. Bu zaman xalq belə bir suala cavab axtarırdı: Nə etməli? Ölkəni ağır şəraitdən kim çıxara bilər? Bu suallara cavab tapıldı.

### Xilaskar

Çətin şəraitdə Azərbaycan xalqı Naxçıvanda olan Heydər Əliyevə üz tutdu. Xalqın dərin inamına görə, yalnız Heydər Əliyev Azərbaycan dövlətini dağılmaqdan, parçalanmaqdan, xalqı vətəndaş müharibəsindən xilas edə, ölkəni fəlakət həddinə gətirmiş xarici siyasət fəaliyyətini yeni əsaslar üzərində qura bilərdi. Xalqın Heydər Əliyevə olan inamı 70-ci illərdə Azərbaycan rəhbəri olduğu zamankı fəaliyyəti və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində gördüyü işlərlə bağlı idi. Xalqın tələbləri qarşısında geri çəkilən, çarəsiz qalan respublika rəhbərliyi Heydər Əliyevi Bakıya dəvət etdi. Bakıya gələn kimi yeni bir liderlik keyfiyyətini ortaya qoyan Heydər Əliyev qiyamın baş verdiyi Gəncəyə təkbaşına getdi. Xalqın arasında oldu. Gəncədə sabitlik tədricən bərqərar edildi. Bakıya qayıtdıqdan sonra əvvəlcə parlamentin sədri seçildi, az sonra ölkə prezidenti paytaxtı tərk edib getdiyi üçün dövlət başçısının səlahiyyətlərini də həyata keçirməyə başladı.

Qarışıq, çətin və mürəkkəb bir zaman idi. Daxili siyasət sahəsində Heydər Əliyevin qarşısında xeyli mürəkkəb vəzifələrin həll edilməsi dayanırdı: ölkəni dağılmaqdan, xaricdən dəstəklənən separatçılıqdan xilas etmək; milli birliyə nail olmaq; hakimiyyətin qanadları arasında yekdillik yaratmaq; xalq ilə hakimiyyət arasında uçurumu, inamsızlığı aradan qaldırmaq; iflic olmuş dövlət orqanlarını işlək hala gətirmək; dövlətin əlində olması gərəkərkən silahları ələ keçirmiş, ölkədə kriminogen şərait yaradan ayrı-ayrı dəstələri tərksilah etmək; vətəndaşların sakit və təhlükəsiz yaşayışını təmin etmək; ağır sosial-iqtisadi şəraitdə yaşayan xalqı inkişafa aparmaq və mənəvi-psixoloji ruhunu yüksəltmək; köhnə sosializm sisteminin qalıqlarından imtina edərək islahatlar aparmaq; ölkənin inkişafının açarını tapmaq və s.

Hakimiyyətə heç bir zor olmadan, topsuz-tüfəngsiz gələn Heydər Əliyev ölkənin problemlərinin həllində fiziki gücə deyil, məhz zəkasına və xalqa arxalandı. Azərbaycanı didib-parçalayan separatçılıq bilavasitə xalqın iradəsi ilə dəfn edildi. Separatçıları qovan xalq ölkənin bütövlüyünü qorudu və dövləti müdafiə etdi. Lakin ölkə qarşısında həlli vacib olan digər məsələlər də dayanırdı. Ermənistanın hərbi təcavüzünün davam etməsi, Azərbaycan ərazilərinin bir-birinin ardınca işğal edilməsi ölkənin inkişafına mane olan başlıca amil idi. İşğal altında olan torpaqların azad edilməsini başlıca vəzifə olaraq müəyyənləşdirən Heydər Əliyev atəşkəs yolunu seçdi. Bundan əvvəl həyata keçirilən uğurlu Horadiz əməliyyatı ilə düşmənə ağır zərbə vuran Azərbaycan Ordusu bir sıra əraziləri işğaldan azad etdi. Heydər Əliyev bununla bütün dünyaya göstərdi ki, Azərbaycan işğalla heç bir zaman barışmayacaq, bütün vasitələrlə ərazilərini azad edəcəkdir. Dövlət idarəetməsini iflic halına, xalqı mənəvi-psixoloji böhrana salan, maliyyə və iqtisadi ehtiyatları udan hərbi əməliyyatlar dayandırıldı. Bu, Azərbaycana bir sıra məsələləri həll etməyə imkan verdi.

Heydər Əliyev hesab edirdi ki, atəşkəsə getməklə dövləti qurmaqdan, vahid güclü ordunu yaratmaqdan ötrü vaxt və əlavə imkanlar qazanacaq, ölkənin inkişafının açarını tapacaq və nəhayət, torpaqlar işğalçılardan azad ediləcəkdir. Atəşkəs ölkəyə böyük üstünlüklər verdi, xarici sərmayələrin gəlməsi üçün şərait yaratdı.

Ermənistan rəhbərliyi isə belə hesab edirdi ki, atəşkəsə getməklə danışıqlar prosesini uzadacaq, Azərbaycan torpaqlarının işğal altında qalmasını "oldu-bitdi" kimi qəbul etdirə biləcəkdir. Ermənistanın bütün rəhbərlərinin başlıca xətti olan bu yanaşma 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ildə lokal xarakterli antiterror tədbirlərində müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun təcavüzkar Ermənistanı məğlub etməsi və torpaqları işğaldan qurtarması ilə bitdi, Heydər Əliyevin konsepsiyasının, zəkasının Ermənistandan, dünya ermənilıyindən və onun havadarlarından üstünlüyünü, zamandan uca olduğunu göstərdi.

### Təbii sərvəti milli sərvətə çevirən ilk Azərbaycan rəhbəri

Atəşkəsə gedilməsi bir sıra vacib məsələlərin həllinə imkan verdi. "Əsrin müqaviləsi"nin imzalanıb həyata keçirilməsi ilə Heydər Əliyev Allahın bəxş etdiyi təbii sərvət olan nefti milli sərvətə çevirən ilk Azərbaycan rəhbəri oldu. Heydər Əliyev təkcə təbii sərvəti milli sərvətə çevirmədi, eyni zamanda, birləşdirici güc, əməkdaşlıq rəmzi oldu. Ərazicə kiçik, əhalisinin sayına görə az olmasına baxmayaraq, Azərbaycan özündən qat-qat böyük olan dövlətləri bir araya gətirdi. Ərazisi və əhalisi bir neçə il əvvəlki kimi olan Azərbaycanın dünya siyasətində rolunu artıran, mövqelərini gücləndirən, dünyanın cazibə mərkəzinə çevirən başlıca amillər Heydər Əliyevin təkcə daxili siyasət məsələlərini deyil, dünya işlərini mükəmməl bilməsi, üstün zəkası, uzaqgörənliyi, müdrikliyi, biliyi, bacarığı və qətiyyəti idi. Bu, Heydər Əliyevin yalnız Azərbaycan xalqı deyil, dünya qarşısında nadir xidmətlərindən biri olub, zamandan ucada dayandığını göstərirdi.

Heydər Əliyev "Əsrin müqaviləsi" imzalandıqdan sonra baş verən dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında özünün qətiyyəti ilə bir örnək verdi. 1994-cü ilin oktyabr ayında baş verən dövlət çevrilişi, 1995-ci ilin martındakı qiyam cəhdlərinin məhz Heydər Əliyevin yenilməz qətiyyəti, siyasi bacarığı ilə iflasa uğradılmasının Azərbaycan üçün tarixi və ibrətamiz bir tərəfi oldu. Heydər Əliyev göstərdi ki, Azərbaycan dövlət çevrilişləri və qiyam cəhdləri üçün sınaq meydanı deyildir, ölkədə güclü dövlət hakimiyyəti vardır. Silahlı yolla hakimiyyətə gəlmək kimi acı təcrübəyə son qoyan Heydər Əliyev zamanın fövqündə dayandı.

### Müstəqil dövlətin ilk Konstitusiyasının memarı

Dövlət müstəqilliyi bərpa edilsə də, hələ Əsas qanun–Konstitusiya qəbul edilməmişdi. Heydər Əliyevin sədrliyi ilə işlənib hazırlanmış Azərbaycan Respublikası Konstitusiyasının 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul edilməsi müstəqillik tarixinin möhtəşəm hadisəsi oldu. Eyni gündə Azərbaycan Respublikası Milli Məclisinə müxtəlif siyasi partiyaların iştirakı ilə I çağırış seçkilərin keçirilməsi də ölkə həyatında yeni mərhələnin başlanğıcını qoydu.

*(ardı 14-cü səhifədə)*



# Mahir siyasətçi, müdrik dövlət başçısı

*İsmayıl HACIYEV,*
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*

**Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyətlər gördükləri böyük işlər və əməllərlə ölməzlik qazanmışlar. Belə tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının ümummilli lideri mərtəbəsinə yüksəlmiş görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin adı hamıdan ucada dayanır.**

Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal haldır. Ulu öndər bu iki keyfiyyəti ehtiva etməklə bərabər, fəaliyyət göstərdiyi bütün digər sahələrdə də özünü məhz birinci şəxs kimi, lider kimi təsdiq etmişdir. Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalmışdır. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz böyük azərbaycanlı idi.

Heydər Əliyev dünyanın nadir, unikal, seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi. Liderlər var ki, siyasi fəaliyyət, dövlət idarəetməsi sahəsində uzun illər çalışıb püxtələşdikdən sonra tanınırlar. Elə adamlar da var ki, bu, onlarda fitrən mövcuddur, genlərində kodlaşdırılıb, bir sözlə, ilahi vergidir. Buna Allahdan lider deyirlər. Heydər Əliyev məhz ikincilərdəndir. Digər vacib məqam səlahiyyət məsələsidir. Ulu öndər təkcə Azərbaycan səviyyəsində deyil, keçmiş İttifaq səviyyəsində, hətta Qərb miqyasında sözünün keçəri, urvatı olan lider idi. O, beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmağı bacarırdı. Bu iki məqam onu həmkarlarından əhəmiyyətli dərəcədə fərqləndirən professional cizgilərdəndir.

Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elminin müntəxəbatını öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi. O təkcə güclü təsərrüfatçı deyil, həm də sözlərinin çəkisi və sanbalı olan, kütləni arxasınca aparmağı, auditoriyanı inandırmağı bacaran bir siyasi xadim idi. Heydər Əliyev mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Buna görə də onun gələcəyi görmək qabiliyyəti başqalarına, həmkarlarına nisbətən daha güclü idi.

Tarixi bəsirət, irəlini görmək nadir bir hissdir. Siyasi xadimlərin heç də hamısında bu hiss olmur. Təbiət bu keyfiyyəti yalnız seçilmiş adamlara – zəmanəsini çox-çox qabaqlayan görkəmli mütəfəkkirlərə verir. Nəhəng siyasətçi Heydər Əliyev kimi. O, analitik düşüncə tərzi ilə, çətin vəziyyətlərdə soyuqqanlığını saxlamaq məharəti ilə, yüksək intellekti, dünya mədəniyyətinə bələdliyi ilə ətrafdakıları heyrətləndirirdi.

Ulu öndəri xarizmatik lider, fenomenal şəxsiyyət adlandırırlar. Müasir siyasi texnologiyalarda lider üçün xarizma məsələsi çox vacib şərt hesab edilir. Heydər Əliyev məhz güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi. Onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşısında qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında, həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi. Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, səbat, diqqət və b. cəhətlər Heydər Əliyevin fərdi naturasının özgün çalarları idi.

Heydər Əliyev böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncə görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdir. Təsadüfi deyildir ki, onun atdığı addımlar, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü və obyektivliyi və hər cəhətdən ölçülüb-biçildiyindən ətrafdakıları heyrətləndirmiş, siyasət aləminin patriarxı adını qazandırmışdır. Hətta dünyanın ən görkəmli siyasət və dövlət xadimləri Heydər Əliyevlə məsləhətləşdiklərini, ondan öyrəndiklərini dönə-dönə etiraf etmişlər.

Siyasətçilər bu dahi insanı "liderlərin lideri" adlandırırdılar. Onun siyasətinin gücü nədə idi?! – Siyasi uzaqgörənliyində, fitri istedadında, müdrikliyində, ölçülüb-biçilmiş qərarlarında, qətiyyətliliyində, siyasi iradəsində, dərin zəkasında, ensiklopedik biliyə malik olmasında, geniş dünyagörüşündə, milli maraqlara əsaslanmasında, tarixi şəraitdən düzgün baş çıxarmasında, zaman və məkan amilini qiymətləndirməsində, dözüm və səbrliliyində, nəzəriyyəyə istinad etməsində və praktik həyatdan baş çıxarmasında – bir sözlə, fenomenal şəxsi keyfiyyətlərində idi.

Bu dahi siyasətçi zərgər dəqiqliyi ilə, ölçülüb-biçilmiş qərarlar qəbul edirdi. Onun fəaliyyəti haqsız yerə təftiş ediləndə belə irad tutulmalı, nöqsan deyiləsi olan bir fakt belə tapa bilməmişlər. Yarım əsrlik siyasi fəaliyyətin qızıl qaydası çoxları üçün təəccüblü idi. Təəccüb və möcüzələr, başqalarını şok vəziyyətinə salan faktlar yüzlərlədir. Elə bu keyfiyyətlər onu başqalarından fərqləndirirdi.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. Kiçik bir ölkə Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdi. 1993-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev siyasət aləmində çox güclü, səriştəli və təcrübəli müdrik dövlət xadimi kimi qısa bir müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yaratdı.

Dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələri, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. O, Qərbə inteqrasiya yolunu tutdu. Ən çətin anlarda belə Heydər Əliyev yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi anti-Azərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi, Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin çəkilişi məhz bu böyük insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi.

Heydər Əliyev idarəetmənin ustadı, siyasətin kamil bilicisi kimi bütün dünyada məşhur idi. Bu dahi insanın təliminə görə siyasət və uzaqgörənlik qarşılıqlı vəhdətdədir. Böyük öndər deyirdi ki, reallığı düzgün qiymətləndirən, keçmiş təcrübədən yaradıcılıqla istifadə edən, sosial-siyasi və iqtisadi problemlərin bütün spektrini, mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticəsini irəlicədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır. Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir.

Heydər Əliyev uzaqgörən və ağıllı siyasətçi kimi nəyi nə zaman deməyi, hansı addımı nə vaxt atmağı bir zərgər dəqiqliyi ilə bacarırdı. Ulu öndər qeyd edirdi ki, "biz nazik sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun".

Onun siyasəti milli maraqlar üzərində qurulmuşdu. Xalqımızın və dövlətimizin elə bir problemi olmamışdır ki, həmin problemləri kimsə Heydər Əliyev yüksəkliyində dərk etmiş olsun. O, hər hansı problemə həsr olunmuş yığıncaqda məsələyə dərindən bələdliyi, verdiyi suallar, qaldırdığı problem məsələlərlə həmin sahənin mütəxəssislərini belə heyrətləndirirdi. Çünki o, istər sənaye, istər kənd təsərrüfatı, istərsə də elm, təhsil, mədəniyyət ilə bağlı məsələlərin müzakirəsində bütün iştirakçıları həmin sahənin əvəzedilməz bilicisi kimi idarə edirdi. Heydər Əliyevin mülahizələri problemlərə dərindən bələdlik, hadisələrin məğzinə, səbəb-nəticə əlaqələrinə nüfuz etmək xüsusiyyəti ilə seçilirdi.

Azərbaycanın daxili siyasətini istiqamətləndirən, xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun, məqsədyönlü və tarazlaşdırılmış şəkildə aparan qətiyyətli dövlət xadimi çox hallarda ən tanınmış siyasətçiləri belə təəccübləndirir və onun ağıllı siyasətini birmənalı olaraq qəbul edirdilər. Elə bu cəhətlərinə görədir ki, xalqımız onu əsrin böyük Azərbaycanlısı, xalqın xilaskarı, müstəqil Azərbaycan dövlətinin memarı və Azərbaycanı dünyaya tanıdan insan kimi qəbul edir, hörmət bəsləyir və ürəkdən sevirdi.

Bu da bir həqiqətdir ki, dünyada tanınan, sevilən, şəxsiyyətinə, siyasi və dövlətçilik fəaliyyətinə çox böyük hörmətlə yanaşılan Heydər Əliyev haqqında söz demək, fikir söyləmək o qədər də asan deyildir. Bu gün dünya ictimaiyyəti Azərbaycanı və onun liderini tanıyır, onu minnətdarlıqla xatırlayırsa, ünvanına ən xoş sözlər söyləyirsə, yüksək rəyini, fikrini deyirsə, bu özü xalqımız üçün böyük şərəfdir. Biz qürur duyuruq ki, xalqımızın dünyada bu səviyyədə sevilən, hörmət bəslənilən Ümummilli lideri olmuşdur.

Heydər Əliyev fenomeni, onun şəxsiyyətinin ucalığı, fövqəladə idarəçilik qabiliyyəti, yüksək intellekti nəticəsində dünyanın görkəmli siyasətçiləri və dövlət xadimləri arasında onun adı həmişə birincilər sırasında çəkilib. Azərbaycan coğrafi cəhətdən kiçik ölkə olsa da, Heydər Əliyevin böyük siyasət adamı olaraq beynəlxalq miqyasda özünü təsdiq etməsinə heç vaxt mane olmayıb. Ən məşhur, tanınmış siyasətçilərin reytinqinin müəyyənləşdirilməsi üçün aparılan beynəlxalq sorğularda, siyasi institutların, sosioloji mərkəzlərin araşdırmalarında Heydər Əliyevin adının birincilər sırasında yer tutması onun siyasətdə, həyatda, dövlətçilik təcrübəsində qazandığı uğurların təsdiqi idi.

Ulu öndərimizin bu nüfuzu onun xalq və ölkə qarşısındakı əvəzsiz xidmətləri, özünün nəsillərə nümunə ola biləcək həyat fəaliyyəti, iti düşüncəsi, əqidə və məsləki ilə, onun rəhbərliyi dövründə Azərbaycanın demokratiya və müstəqillik yolunda atdığı uğurlu addımları ilə bağlıdır. Dünya siyasətçiləri, beynəlxalq ictimaiyyət və xalqımız bu dahi insanı Heydər Əliyev olduğuna görə deyil, Vətən və dövlət qarşısında gördüyü böyük işlərə, dünyada təhlükəsizliyin qorunmasına, düzgün və pozitiv inkişafa çalışdığına, siyasi və ictimai fəaliyyətinə görə qiymətləndirmişdir.

Bu səbəbdəndir ki, dünyanın ən görkəmli siyasi xadimləri, dövlət rəhbərləri, tanınmış elm və mədəniyyət nümayəndələri Heydər Əliyev şəxsiyyətini yüksək qiymətləndirmiş, ondan çox şey öyrəndiklərini bildirmişlər. Onun haqqında deyilən söz, verilən qiymət bu gün də, sabah da lazımdır, bunlar tariximizin yaddaşına köçürülməlidir.

Heydər Əliyev qlobal düşüncəli, geniş dünyagörüşlü nəhəng bir siyasətçi idi. O, realist bir insan olaraq hadisələrə praqmatik yanaşırdı, tarixi şəraitdən düzgün baş çıxarırdı, ölkənin taleyi üçün uğurlu qərarlar qəbul edirdi. Onun ağıllı və uzaqgörən siyasətində hər şeyin öz yeri və vaxtı var idi. O, beynəlxalq aləmdə tarazlaşdırılmış siyasətin, ölçülüb-biçilmiş fəaliyyətin ustadı idi. Bu dahi siyasət adamı bütün fəaliyyəti boyu müdrik insan, qətiyyətli rəhbər, xalq məhəbbətini qazanan uzaqgörən siyasətçi və ağıllı dövlət xadimi olduğunu təsdiq etmişdir. İnanmaq çətindir ki, dünyada xalqa bu qədər yaxın ikinci bir siyasətçi olar. Siyasətçi üçün lazım olan keyfiyyətlərlə yanaşı, onda idarəetmə keyfiyyətləri, dövlətçilik təcrübəsi ən yüksək səviyyədə idi. Elə bunlar idi onun siyasətinin ucalığı, aliliyi, uzaqgörənliyi və heyrətamizliyi.

Heydər Əliyev siyasəti bütün dünyanı ehtiva edə bilir, düzgün istiqamətə yönəldirdi. Heydər Əliyevin beynəlxalq Atatürk sülh mükafatına layiq görülməsi onun dünyada apardığı sülh siyasətinə verilən qiymət idi. O, dünyanın bütün ölkələri və onların rəhbərləri ilə, hətta məkrli düşmənlərimizlə də "sülh dili" ilə nəinki danışmağı bacarırdı, onlara da bunu aşılaya bilirdi. Ulu öndərimizin ən ali insani keyfiyyətləri,



fenomen xarakteri, insanlarla dil tapmaq bacarığı, hərəni öz dilində danışdırmaq məharəti onu tanıyanların sevimlisinə çevirirdi. Hər dövlət xadiminə xas olmayan üstünlüklər ulu Tanrının Heydər Əliyevə verdiyi ən ali keyfiyyətlər idi.

Görəsən, bəşəriyyət belə nəcib, yüksək intellekti ilə seçilən dövlət xadimləri, siyasət nəhəngləri ilə çoxmu qarşılaşıb?! Təəssüf ki, buna heç də çox rast gəlinməyib. Heydər Əliyev kimi dövlət və siyasət adamları bəşəriyyətin, insanların xeyrinə, sülhün və əmin-amanlığın təmin edilməsinə yetərincə pay vermişlər.

Azərbaycan xalqının Ümummilli lideri yüksək bəşəri keyfiyyətlərə, təvazökarlığa, hər şeydən öncə isə demokratik dövlət quruculuğu prinsiplərinə daim sadiq qalan böyük şəxsiyyət idi. O, Azərbaycan tarixində bəlkə də yeganə siyasət adamıdır ki, onun fəaliyyəti yalnız konkret sahələri əhatə etmir, həm də ümummilli və qlobal əhəmiyyətli problemlərin aradan qaldırılmasına xidmət edir. Onun xalq işinə sədaqəti, siyasi müdrikliyi, böyük dövlətçilik təcrübəsi, parlaq hafizəsi, geniş dünyagörüşü, polad iradəsi, mərdanə qətiyyəti, həssas qəlbi, möhkəm səbri, çox hövsələliyi, ədalətli olması, həmişə obyektiv mövqe tutması, yüksək intellekti və ziyalı mövqeyi, dolğun tədbirliliyi və analitik təfəkkürü, sadə davranışı, heyrətamiz enerjisi… – bir dövlət başçısı kimi ən yüksək keyfiyyətləri idi.

Heydər Əliyevin dərin məntiqli nitqi, natiqlik məharəti, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq səriştəsi onu dinləyənləri məftun edirdi. Onun nitqi dərin və konkret idi, müzakirə olunan məsələni yüksək səviyyədə ümumiləşdirmək bacarığına malik idi. Ulu öndərin nitq və çıxışlarında artıq söz və ifadə, qeyri-dəqiq fakt və rəqəm olmur, fikirlərini son dərəcə cilalanmış şəkildə ifadə edirdi. O, məsələnin mahiyyətini açmağa, mövzunun milli mənafe, dövlətçilik mövqeyindən təhlil etməyə xidmət edən məsələni ustalıqla göstərməyi bacarırdı.

Görkəmli siyasətçi üçün uzaqgörənlik, düzgün qərar çıxarmaq nə qədər əhəmiyyətlidirsə, rəvan nitqə, yüksək intellektə, təhlil etmək bacarığına yiyələnmək də bir o qədər vacibdir. Bu cəhətdən Heydər Əliyevə bərabər gələn siyasətçi çox azdır. Ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin obyektiv təhlili göstərir ki, o, başqalarından fərqli olaraq qeyri-adi zəkaya, böyük enerjiyə, islahatçı, yüksək analitik təfəkkürə və yenilməz iradəyə malik siyasətçi idi. "Siyasət üçün doğulmuşlar siyasətdən əl çəkdikcə, siyasət onlardan əl çəkmir" – deyimi tamamilə Heydər Əliyevə aid edilə bilər. Ona görə də bir sıra hallarda Heydər Əliyevi "siyasət nəhəngi", "siyasət qrossmeysteri", "siyasət patriarxı"... kimi xarakterizə edirlər. Qüdrətli dövlət xadimi siyasət aləminin müəllimi idi. Onun müəllimliyindən çoxlarına pay düşmüşdür.

Xalqımız qarşıya çıxan hər hansı bir çətin problemlərin həllini, xilaskarlıq missiyasını Heydər Əliyevdə görürdü. Bu, on illərlə formalaşmış fikirdir, özü də doğru və düzgün fikirdir. Ölkəmizin fəxri, milli iftixarımız və liderimiz olan Heydər Əliyev bütün problemlərin həll olunmasının öhdəsindən yüksək səviyyədə gəlmişdir. Çünki o, bir neçə on il bundan sonra görəcək işləri bu gün həyata keçirməyi bacaran nadir keyfiyyətlərə malik uzaqgörən siyasətçi və təcrübəli dövlət xadimi idi. Onun siyasəti ölçülüb-biçilmiş, gələcəyə ünvanlanmış siyasət idi.

Ümummilli lider Heydər Əliyevi dünyanı dəyişdirən insanlar cərgəsinə aid etmək olar. Müasirləri onun gördüyü işləri hələ layiqincə dəyərləndirməyiblər: onun Yer üzünə nə üçün gəldiyini və kim tərəfindən göndərildiyini tam dərk edə bilmək üçün hələ olduqca az vaxt keçib. XX əsr və XXI əsrin başlanğıcının görkəmli siyasətçilərindən və dövlət xadimlərindən biri olan Heydər Əliyevin ibrətamiz həyatı və heyrətamiz siyasi fəaliyyəti gələcək yüzilliklərdə hələ neçə-neçə siyasət adamına istiqamət verəcəkdir.

Bu gün ölkəmiz bu siyasətin uğurlarını hiss edir, onunla yaşayır və faydalanır. Bu siyasətin icraçısı Ulu öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Azərbaycan Respublikası Heydər Əliyev siyasəti ilə irəliləyir və yaşayır. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır. Ulu öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirir və dövlət başçısının ətrafında daha sıx birləşirlər.

Prezident İlham Əliyev Ulu öndərin siyasi kursunu layiqincə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin edir. Ümummilli lider Heydər Əliyevin dövlətçilik siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, ölkəmizi qüdrətləndirir və beynəlxalq aləmdə müstəqil Azərbaycanın mövqeyini və nüfuzunu gücləndirir.



Güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində və Qarabağda həyata keçirdiyi birgünlük lokal antiterror tədbirləri zamanı şanlı zəfərləri ilə sübuta yetirdi

# Müstəqil Azərbaycan Ulu öndərin xalqımıza əmanətidir

***Vüqar RƏHİMZADƏ,***
***Milli Məclisin deputatı***

"Həyatımın mənasını ancaq xalqa sədaqətlə xidmət etməkdə görürəm. Bir daha bəyan edirəm ki, mənim üçün ən yüksək mükafat bundan sonra da xalqın etimadını doğrultmaqdan ibarətdir." Bütün ömrünü Azərbaycanın bugününə, uğurlu gələcəyinə həsr edən fenomen şəxsiyyət Heydər Əliyev, eyni zamanda, bildirmişdir ki, mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respubilkasıdır, Azərbaycan vətəndışıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Ümummilli lider Heydər Əliyev məhz Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətlərinin böyüklüyünə söykənərək əminliklə qeyd etmişdir ki, nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!

## Hər bir uğurumuz Heydər Əliyev siyasətinin təntənəsidir

Bu gün hər birimizin qürur duyduğumuz müasir müstəqil, qalib, yeni Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəridir. Ümummilli liderin dövlətini, xalqını canından artıq sevməsi, "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" çağırışı harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıya dərin vətənpərvərlik hissi aşıladı. Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsində Zəfər tarixini yazan gənclərimiz Ulu öndər Heydər Əliyevin məktəbindən bəhrələnən, Onun layiqli davamçısı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yetişdirdiyi gənclərdir. O gənclər ki, illərdir torpaqlarımızı düşmən tapdağından azad etmək, Xankəndidə, Şuşada, Xocalıda, işğal altında olan bütün torpaqlarımızda Azərbaycan Bayrağını ucaltmaq üçün Müzəffər Ali Baş Komandandan "Hücum!" əmrini gözləyirdi. Əbəs yerə deyilmir ki, torpaq, əgər uğrunda ölən varsa, Vətəndir. Azərbaycan gəncliyi qəhrəmanlığı, şücaəti ilə bunu bir daha təsdiqlədi. Bu gün qalib, bütövləşən Azərbaycanın uğurlarından bəhs edirik. Hər bir uğurumuz Heydər Əliyev siyasətinin təntənəsidir.

Bu mühüm məqam hər zaman xüsusi vurğulanır ki, dövlət o zaman güclü olur, xalq o zaman gələcəyə böyük inamla baxır ki, milli maraqları hər şeydən üstün tutan, dövrün, zamanın tələblərini müəyyənləşdirdiyi inkişaf strategiyasında nəzərə alaraq yeni reallıqlar yaradan Lideri vardır. Heydər Əliyev adını dövlətçilik tariximizə məhz liderlik nümunəsini yaradan şəxsiyyət kimi əbədi həkk etdi. Onun uzaqgörənliyi bugünümüzə və gələcəyimizə hesablanmış inkişaf strategiyasında özünün aydın ifadəsini tapır. Bu baxımdan ki, Lider dövlətin gələcəyini öncədən görmək və gördüyünü həyata keçirmək imkanlarına, gücünə malik olmalıdır. Ümummilli lider Heydər Əliyevin hakimiyyətinin hər iki dövrü Azərbaycanın xoşbəxt gələcəyini görməklə yanaşı, atılacaq zəruri addımların təqdimatıdır.

Tarixə, Ulu Tanrının Heydər Əliyev kimi dahi şəxsiyyəti Azərbaycan xalqına bəxş etdiyi gündən ötən 102 ilin ayrı-ayrı dövrlərinə qısa baxış keçirək. Ulu öndər Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi. 22 il Azərbaycan SSR Ali Sovetinin və keçmiş SSRİ-nin Ali Sovetinin deputatı oldu. 1974–1979-cu illərdə isə SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini vəzifəsini tutdu. 1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyünə namizəd, 1982-ci ilin dekabrında isə Siyasi Büronun üzvü seçilən ümummilli lider Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Bu vəzifədə işləyərkən ulu öndər Heydər Əliyev keçmiş İttifaqın iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik etdi.

## Böyük siyasi iradə, Vətən sevgisi, tükənməz dövlət idarəçiliyi istedadı

Azərbaycana rəhbərliyinin birinci dövründə ümummilli lider Heydər Əliyev özünün böyük idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tarixin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soykökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir. Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan ulu öndər Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı Onun keçmiş SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Ümummilli Lider bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Dahi rəhbərin həmin illərdə Azərbaycanın müstəqil gələcəyini düşünərək gördüyü işlərdən bəhs edərkən azərbaycanlı gənclərin keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi xüsusi qeyd edilir. Ümummilli lider bildirirdi ki, indi bizim təhsilimizin məqsədi gənc nəslə təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədimiz Azərbaycan vətəndaşını, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək vətəndaş olsun. Gərək dövlətinə, ənənələrinə, xalqına sadiq vətəndaş olsun. Ulu öndər, həmçinin bu çağırışı edirdi ki, cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Keçmiş Sovet İttifaqı dövründə Ulu öndər Heydər Əliyev milli kimliyin qorunmasına, ana dilində təhsilin inkişafına böyük sərmayə yatırırdı. Dünya klassiklərinin və elmi ədəbiyyatın Azərbaycan dilinə tərcüməsi, Azərbaycan dilində günün tələblərinə uyğun bədii və elmi əsərlərin nəşri, Konstitusiyada Azərbaycan dilinin dövlət dili statusu alması azərbaycançılıq ideologiyasının inkişafına və təbliğinə xidmət edən mühüm addımlar oldu. "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı biri-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir" deyən ulu öndər Heydər Əliyev bir daha ana dilinə sevgisini, dövlətinə, xalqına bağlılığını nümayiş etdirdi. Bu çağırış Onun təşəbbüsü ilə 27 aprel 1978-ci il tarixində Azərbaycan SSR Konstitusiyasına "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir" maddəsinin əlavə olunmasında özünün aydın ifadəsini tapdı. Belə ki, ümummilli lider Heydər Əliyevin təklifi ilə 73-cü maddənin bu redaksiyada verilməsi təklif olundu: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir." Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindəndir. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra da Azərbaycan dilinə diqqət və qayğı dövlət siyasətinin əsas tərkib hissəsinə çevrildi. 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülmüşdü. Ulu Öndər müstəqil dövlətimizin yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında müzakirələrin məntiqi nəticəsi kimi dövlət dilinin adı barədə öz qəti mövqeyini bildirdi. Geniş müzakirələrdən sonra 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapdı.

Əvvəldə də qeyd etdiyimiz kimi, Ümummilli Lider 1969-1982-ci illərdə Azərbaycanı keçmiş SSRİ-nin ən geridə qalmış müttəfiq respublikasından ən qabaqcıl respublikaları sırasına çıxardı. Müstəqil Azərbaycanın sənaye və iqtisadi potensialı məhz o illərdə formalaşdı. Məhz o illərdə yetişmiş kadrlar bu gün də müstəqil Azərbaycanda fəaliyyət göstərərək ölkənin ümumi inkişafını təmin edirlər.

## Ümummilli liderin titanik gücü, müdrikliyi Azərbaycanı təhlükələrdən qorudu

Bu reallıq Prezident İlham Əliyevin çıxışlarında da xüsusi vurğulanır ki, Azərbaycan xalqının faciələri ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətdən getməsindən sonra başlamışdır. 1987-ci ildə Ulu öndər SSRİ-nin ali rəhbərliyindəki vəzifələrindən istefa verməsindən iki həftə keçməmiş erməni millətçiləri və onların Kremldəki himayədarları o vaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsi ilə bağlı məsələ qaldırdılar və Azərbaycan xalqının faciələri o gündən başladı. Əgər ulu öndər Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər. Ümummilli liderin titanik gücü, müdrikliyi, ümumiyyətlə, Heydər Əliyev fenomeni Azərbaycanı bir çətir kimi hər cür təhlükələrdən qoruyurdu. "Baxmayaraq ki, siyasi fəaliyyətdən kənarda qalıb, amma Ulu öndər hər zaman Azərbaycanın maraqları ilə yaşayırdı, ürəyi Azərbaycanla bir döyünürdü və xalqımız üçün ağır günlərdə - 20 Yanvar faciəsindən sonra yenə də xalqımızın haqq səsini dünyaya məhz o çatdırmışdır. Yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək öz haqq səsini ucaltmış, sovet hökumətinin, Sovet İttifaqının rəhbərliyinin bu qanlı əməlini pisləmiş və bu qırğınla bağlı dünyaya bəyanat vermişdir" söyləyən dövlət başçısı İlham Əliyev onu da bildirir ki, o günü yaxşı xatırlayıram. ...Moskvada yaşayan azərbaycanlılar daimi nümayəndəliyin önünə toplaşmışdılar və ulu öndər Heydər Əliyev binaya yaxınlaşanda sanki bir canlı dəhliz açılmışdı. Baxmayaraq ki, o, bütün vəzifələrdən çıxarılmışdır, ona qarşı Azərbaycanda ovaxtkı rəhbərlik tərəfindən çirkin kampaniya aparılırdı, sovet mətbuatında da çirkin kampaniya aparılırdı, ancaq Azərbaycan xalqının qəlbində o, daim böyük lider kimi yaşayırdı. Bu bəyanat böyük cəsarət, əsl vətənpərvərlik tələb edirdi.

Ulu öndər Heydər Əliyev 1990-cı ilin iyul ayında Moskvadan Bakıya gəldi. Ancaq ovaxtkı Azərbaycan rəhbərliyi Ümummilli liderin güclü lider olmasından narahatlığını Ona edilən təzyiqlərlə təsdiqlədi. Bu təzyiqlər nəticəsində O, doğulduğu Naxçıvana getdi və orada yaşamağa başladı.

Ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan ümummilli lider Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik illərində deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir.

## Müstəqilliyin bərpasına gedən yol

Ulu Öndər Heydər Əliyevin gələcək fəaliyyəti üçün Naxçıvan dövrünün böyük əhəmiyyəti vardır. Təsadüfi deyildir ki, Azərbaycanın müstəqilliyin bərpasına gedən yol məhz Naxçıvandan başlamışdır. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Bayrağı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Dövlət Bayrağı kimi təsis edilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmışdır, Sovet İttifaqının və sonra artıq Rusiyanın hərbi birləşməsi olan motoatıcı diviziya Naxçıvandan çıxarılmışdır. Ulu Öndər Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasının sıralarından çıxmışdır.

Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il dekabr ayının 16-da hər il dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd edilməsi haqqında qərar qəbul etmişdir. Ulu öndər 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra da diaspor quruculuğu dövlət siyasətinin əsas tərkib hissəsinə çevrildi. 2001-ci ildə Ümummilli liderin Sərəncamına uyğun olaraq 9-10 noyabr tarixlərində Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Ondan sonrakı dövrlərdə hər 5 ildən bir Dünya Azərbaycanlılarının qurultayları keçirilərək soydaşlarımızın birliyinin daha da möhkəmləndirilməsinə xidmət edən addımlar atıldı, təşəbbüslər irəli sürüldü.

Bu gün ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının yaradılması da Ümummilli Liderin fəaliyyətinin Naxçıvan mərhələsi ilə bağlıdır. Partiyanın yaradılması ilə ölkəmizdə müasir siyasi sistem formalaşdırıldı.

## Xilaskarlıq missiyası

Bütövlükdə Ümummilli Liderin hakimiyyətinin hər iki dövrü, həmçinin fəaliyyətinin Naxçıvan mərhələsi dahi rəhbərin xilaskarlıq missiyasının təqdimatıdır. Bütün dövrlərdə əsas məqsəd Azərbaycanın gələcək inkişafını təmin etmək idi. Zamanın hökmü ilə ötən əsrin 90-cı illərinin başlanğıcında dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdı. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtardı, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını aldı, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etdi. Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Məlumdur ki, müstəqilliyimizin bərpasının ilk illəri çağdaş tariximizə xaos, anarxiya, özbaşınalıq dövrü kimi yazılıb. Reallıq budur ki, 1993-cü ildə Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycan adlı dövlətin varlığından danışmaq mümkün deyildi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın qarşısında geniş imkanlar açdı. Bu qayıdış Azərbaycanın hazırkı Zəfərli günlərinin, qürurlu anlarının əsası oldu. Həmin vaxtdan başlanan inkişaf, tərəqqi yolu Azərbaycanı böyük təhlükələrdən, faciələrdən xilas etdi, yeni Azərbaycan quruldu, bugünümüz üçün möhkəm təməl formalaşdı. Ulu öndər hakimiyyətə qayıdışının ilk günündən sabitliyin yaradılmasının vacibliyini bildirdi və belə bir çağırışı diqqətə çatdırdı ki, sabitlik olmasa heç bir sosial-iqtisadi layihənin həyata keçirilməsindən danışmaq olmaz. Məhz dahi şəxsiyyət Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü ilin 12 may tarixində Ermənistanla atəşkəs sazişinin imzalanması ölkədə ictimai-siyasi sabitliyin yaradılmasında əhəmiyyətli rol oynadı. Bu mühüm addım elə həmin ilin 20 sentyabr tarixində "Əsrin müqaviləsi"nin imzalanmasını da şərtləndirdi. Ümummilli lider dünya təcrübəsinə əsaslanaraq belə bir çağırış edirdi ki, səylər birləşdirilmədən, təcrübə mübadiləsi aparılmadan heç bir dövlət təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi və siyasi mövqeyinin möhkəmlənməsində, etibarlı tərəfdaş kimi nüfuz qazanmasında mühüm rol oynadı. Ümummilli liderin müəllifi olduğu neft strategiyasının əsas tərkib hissələrindən olan, çoxlarına əfsanə kimi görünən Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin reallığa çevrilməsi istiqamətində addımlar atıldı. Reallıq budur ki, Azərbaycan yerləşdiyi coğrafi məkana, malik olduğu təbii resurslara görə hər zaman dünyanın diqqətində olub. Ölkəmizin bu resurslardan səmərəli istifadəsini təmin edən yeni neft strategiyası Ümummilli liderin uzaqgörənliyinin təqdimatı oldu. İqtisadiyyatın inkişafında neft amilinə xüsusi önəm verən ulu öndər Heydər Əliyev, eyni zamanda, belə bir çağırışı da səsləndirdi ki, neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur. Onun böyük uzaqgörənliklə 1999-cu ildə yaratdığı Azərbaycan Respublikasının Dövlət Neft Fondu bu gün neft gəlirlərinin xərclənməsində şəffaflığı yüksək səviyyədə təmin edir. Ümumilikdə, Dövlət Neft Fondu beynəlxalq səviyyədə şəffaflıq kriteriyaları üzrə nümunəvi qurum kimi dəyərləndirilir. Dövlət Neft Fondunun vəsaitləri hesabına həyata keçirilən sosial-iqtisadi layihələr ölkəmizin hərtərəfli inkişafını şərtləndirir.

## Dövlət quruculuğu

Hər bir ölkənin inkişafında iqtisadi amil əsasdır. Ümummilli liderin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" çağırışı bu gün də öz aktuallığını qoruyur. Bu məqamı da xüsusi qeyd etməliyik ki, Ümummilli lider iqtisadi və siyasi islahatların vəhdətinin qorunmasını qarşıya əsas hədəf kimi qoydu. Dahi rəhbərin hakimiyyətə qayıdışının ilk günündən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunu tutaraq bu istiqamətdə mühüm addımlar atdı. Ümummilli lider demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün atributların bərqərar olmasına- insan hüquqlarının qorunmasına, müstəqil, azad mətbuatın formalaşdırılmasına, çoxpartiyalı sistemin yaradılmasına, demokratik, beynəlxalq standartlara cavab verən seçkilərin keçirilməsinə və sair kimi demokratik dəyərlərin qorunmasına xüsusi diqqət yönəltdi və ölkəmizdə demokratik təsisatların yaradılması üçün yüksək şərait yaradıldı.

## Medianın inkişafı prioritet oldu

Mətbuatı cəmiyyətin güzgüsü kimi dəyərləndirən ümummilli lider Heydər Əliyevin azad medianın inkişafı istiqamətində atdığı addımlar davamlılığı ilə diqqətdə oldu. Dövlət başçısı İlham Əliyevin bu günlərdə imzaladığı "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamında qeyd edildiyi kimi, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizdə söz və məlumat azadlığının, fikir plüralizminin və digər demokratik dəyərlərin bərqərar olması üçün etibarlı zəmin yaratdı. Ümummilli lider medianın inkişafını prioritet vəzifələrdən biri hesab etmiş, onun fəaliyyətini tənzimləyən qanunvericilik bazasının formalaşdırılması, inkişafını əngəlləyən süni maneələrin aradan qaldırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl qərarlar qəbul etmiş, dövlət-media münasibətlərində mütərəqqi ənənələrin əsasını qoymuşdur. Onu da qeyd edək ki, Ümummilli liderin imzaladığı Fərmanla mətbuat üzərində senzuranın ləğvi azad, müstəqil medianın inkişafının başlanğıcı oldu.

**(ardı var)**

# Azərbaycanı Zəfərə aparan Heydər Əliyev yolu

**Dünya tarixi sübut etmişdir ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal haldır. Bu şəxsiyyətlər arasında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin özünəməxsus yeri vardır.**

Ümummilli lider fəaliyyət göstərdiyi bütün sahələrdə özünü məhz birinci şəxs kimi, lider kimi təsdiq etmişdir. Azərbaycanın görkəmli şəxsiyyətləri, xalq üçün danılmaz xidmətlər göstərmiş öncülləri çox olmuşdur. Fəxrlə deyim ki, tarix boyu Azərbaycanın dövlət xadimlərindən yalnız unudulmaz rəhbər, görkəmli dövlət xadimi və dünya miqyaslı siyasətçi Heydər Əliyev ümummilli lider səviyyəsinə yüksəlmişdir. Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milyonların məhəbbətini qazanan öndər kimi qalmışdır. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz ən böyük azərbaycanlı idi.

Ulu öndər Heydər Əliyev dünyanın bənzərsiz, böyük amalları və misilsiz əməlləri ilə seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi. Liderlər var ki, siyasi fəaliyyət, dövlət idarəetməsi sahəsində uzun illər çalışıb püxtələşdikdən sonra tanınırlar. Elə adamlar da var ki, bu, onlarda fitrətən mövcuddur, genlərində kodlaşdırılıb, bir sözlə ilahi vergisidir. Buna Allahın bəxş etdiyi liderlik deyirlər. Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir.

Sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan, min cür maneələrdən, çətinliklərdən keçərək Yer kürəsinin altıdan bir hissəsini əhatə edən SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən biri səviyyəsinə ucalan Heydər Əliyev Azərbaycan tarixinə, həm də, Qurtuluş Mübarizəsinin Qalibi kimi daxil olmuşdur. Heydər Əliyev şəxsiyyəti öyrənilməmiş dünyadır! Bu nadir dühanın siyasət aləmini bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzətmək olar. Misilsiz dövlət xadimi kimi ən mürəkkəb, ən ağır, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən



Vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı çıxış yolu tapmaq bacarığı Allahın ona əta etdiyi vergidir.

Müasir Azərbaycanın sosial-iqtisadi və ictimai-mədəni həyatının elə sahəsi yoxdur ki, orada Heydər Əliyevin quruculuq fəaliyyətinin fundamental nəticələri aydın şəkildə görünməsin. Belə bir deyim var ki, tarixi şəxsiyyətlərin nəhəngliyi zaman keçdikcə daha aydın şəkildə görünməyə başlayır. Çünki onlar uzaqgörən qərarları ilə öz millətinin gələcəyini müəyyən edərək bir növ zamanı qabaqlamaq missiyasını yerinə yetirilər. Bütün ömrünü xalqının azadlığı və xoşbəxtliyi uğrunda mübarizəyə həsr edən ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətləri də illər ötdükcə daha möhtəşəm görünməkdədir. Ölkəmizin bugünkü dinamik və hərtərəfli inkişafını, həyatımızın bütün sahələrində yüksəliş və tərəqqini müşahidə etdikcə Heydər Əliyevin böyüklüyünü və müdrikliyini daha dərindən dərk etmiş oluruq.

Xilaskarlıq missiyası ilə Azərbaycan xalqını ən ağır bəlalardan hifz edən, çox mürəkkəb geosiyasi reallıqların hökm sürdüyü bir şəraitdə Azərbaycan dövlətinin parçalanmaq təhlükəsindən qoruyan və bütün çətinliklərə, təzyiq və təhdidlərə sinə gərərək “Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır!” – deyən ümummilli lider Heydər Əliyev hər bir azərbaycanlının qəlbində əbədi taxt qura bildi. Özünün hərbi-siyasi, sosial-iqtisadi nailiyyətləri ilə bu gün bütün dünyanın diqqət mərkəzində olan müasir Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin əziz xatirəsi xalqımızın qəlbində və yaddaşında əbədi yer tutur.

Ulu öndərin Vətəni və xalqı qarşısında müstəsna xidmətlərindən biri İlham Əliyev kimi oğul yetişdirməsidir. Fotoların birində ata və oğul yanaşı dayanaraq uzaq üfüqlərə baxırlar. İllər arxasından sanki bugünkü modern, dinamik inkişaf edən, ərazi bütövlüyünü bərpa etməyə nail olan Azərbaycanı görürlər. Prezident İlham Əliyev 22 ildir ki, Azərbaycana bacarıqla rəhbərlik edir, onu inamla gələcəyə aparır...

Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. İllər öncə böyük uzaqgörənliklə deyirdi: “Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır”.

Həmin an 17 ildən sonra – 2020-ci ildə yetişdi. Heydər Əliyevin qoyduğu möhkəm təməl əsasında Azərbaycan ildən-ilə gücləndi, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirdi, qüdrətli ordu yaratdı. Məhz iqtisadi güc, rəşadətli ordumuz düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın döyünən ürəyi olan Şuşada qürurla dalğalanmağa başladı. Dəmir yumruqla beli qırılan, başı əzilən düşmən kapitulyasiya aktını imzalamağa məcbur oldu, ərazi bütövlüyümüz təmin edildi.

Azərbaycan dövlətçiliyinə, dövlətçiliyimizin inkişafına verilən əvəzolunmaz töhfələr məhz ulu öndər Heydər Əliyev şəxsiyyətində ən yüksək zirvəyə çatdı. Unudulmaz dahi şəxsiyyət müasir dövrdəki dövlətçiliyin yeni tipologiyasının möhkəm əsaslarını qoyub. Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi bu gün bütün dünyada etiraf olunur, hörmətlə qarşılanır və yüksək qiymətləndirilir. Ümummilli lider bizim üçün elmi prinsiplərə və zəngin intellektual potensiala əsaslanan mükəmməl bir dövlətçilik konsepsiyası yaratmış, dövlət idarəçiliyi sahəsində zəngin elmi-nəzəri və praktiki irs qoymuşdur. Onun dövlətçilik ideyalarının elmi-nəzəri əsasları təkcə bu gün üçün deyil, gələcək üçün də əhəmiyyətlidir.

Bu gün Azərbaycan Heydər Əliyev yolu ilə inamla irəliləyir və inkişaf edir.

*Tənzilə RÜSTƏMXANLI,*
*Milli Məclisin deputatı*

# Tanıdığım və dərk etdiyim HEYDƏR ƏLİYEV

**Heydər Əliyev siyasi kursunun layiqli davamçısı – möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin Çin Xalq Respublikasında çox yüksək səviyyədə qarşılanması qəlbimə qürur hissi doldurmaqla yanaşı, mənə 2 il bundan öncə Davosda baş vermiş bir hadisəni xatırlatdı. Düşündüm ki, cənab Prezidentimiz həm də Davosda baş vermiş hadisədə göstərdiyi təpərə görə dünyanın nəhəng dövlətlərində bu sayaq uca hörmətlə qarşılanır.**



Xatırladığım bu oldu ki, bəzi dövlət başçıları Davosda Türkiyə Prezidenti hörmətli Rəcəb Tayyib Ərdoğanın qarasına danışanda İlham Əliyev cənabları cəsarətlə yerindən qalxıb dedi ki, “Türkiyənin Prezidenti cənab Ərdoğan burada yoxdur, amma mən buradayam!” Məncə, həm də bu cəsarəti möhtərəm Prezidentimizlə dünya miqyasında hesablaşmağa və onu hər yerdə layiq olduğu tərzdə qarşılamağa müxtəlif dövlətlərin başçılarını səfərbər edir.

Davosda baş verən bu hadisə isə yadıma başqa bir məqamı, 1982-ci ilin sentyabrında Bakıda baş vermiş olduqca maraqlı bir olayı saldı. Və düşündüm: Atalarımız düz buyurub: “Ot öz kökü üstə bitər”.

O vaxt SSRİ rəhbəri Leonid Brejnev sonuncu dəfə Bakıya gələndə keçmiş Lenin Sarayında çıxışı zamanı buradakı tədbirdə oxumalı olduğu çıxışın mətni yerinə Azərbaycan KP MK-da keçirilən qapalı iclasda söylədiyi nitqin mətnini oxumağa başladı (mənə belə gəlir ki, bu hadisəni L.Brejnevin köməkçiləri qəsdən törətmişdilər). Təbii ki, həmin çıxış tamam fərqli idi və tənqidi iradlardan xali deyildi. Ümummilli liderimiz Heydər Əliyev yerindən qalxdı, Leonid Brejnevin söyləyəcəyi nitqin mətnini onun qarşısına qoyub dedi: “Leonid İliç, bunu oxumaq lazımdır!” və Brejnevdəki mətni götürüb yerinə qayıtdı. (Mən həmin tədbirin canlı şahidiyəm, o vaxt Mərkəzi Komitənin təbliğat və təşviqat şöbəsində təlimatçı işləyirdim). Bütün salonu bir anlıq heyrət bürüdü, sonra isə gurultulu alqışlar qopdu. Bu, əsl kişi cəsarəti idi. Güman edirəm ki, o zamankı başqa müttəfiq respublikaların rəhbərlərindən heç biri belə bir cəsarətli addım ata bilməzdi.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında, yəni Azərbaycan KP MK-da cəmi 6 ay işlədim. Bu qısa müddətdə bir neçə dəfə Heydər Əliyevin keçirdiyi zona müşavirələrində mətbuat işçilərinin fəaliyyətini yönəldən MK təlimatçısı kimi iştirak etdim – Saatlıda, Bərdədə, Xankəndidə, Şuşada, Vaqif Poeziya bayramında.

Görünür, hər kəsin bir tale yazısı var. Və mənim də taleyimə nəhəng şəxsiyyətlə yaxından tanış olmaq qisməti yazılıbmış. Əslində, Heydər Əliyev elə bir şəxsiyyətdir ki, ağlı başında olan adam onunla bilavasitə təmasda olmaqla da, ondan nəyisə götürər, nələrəsə sahib ola bilərdi.

Azərbaycan KP MK-ya təlimatçı vəzifəsinə təyin olunmazdan əvvəl mən Bakı Şəhər Partiya Komitəsində təlimatçı işləyirdim. Müxtəlif tədbirlərdə xidməti vəzifəmi yerinə yetirirdim və Heydər Əliyevin nitqinə, insanlarla davranışına, çıxışları zamanı etdiyi hərəkətlərə diqqətlə baxırdım. Bircə dəfə də olsun görmədim ki, Heydər Əliyev nitq söylədiyi zaman hazır mətnə baxsın.

İclaslar neçə saat çəksə də, Heydər Əliyev yorulmaq bilmədən hər kəsə diqqətlə qulaq asır, suallarını verir, cavablarını araşdırırdı. O vaxtlar indiki kimi videokameralar yox idi. Kino çəkən kameraların səsindən hiss edirdi ki, ya çəkiliş lenti bitmək üzrədir, ya da çəkiliş kameralarının mexanizminin yayları yenidən qurulmalıdır. Çıxışın əsas mövzusundan uzaqlaşa uzaqlaşır, çəkiliş aparatlarının işləməyə hazır olduğunu hiss edir və əsas mövzuna davam etdirirdi. Heydər Əliyev, sanki, ətrafındakı insanların ürəklərini oxuyurdu.

1982-ci ilin iyul ayının 14-də qatarla gəldik Bərdəyə, orada maşınlara minib yollandıq pambıq tarlalarına baxmağa. Rüstəm Səfərəliyev o vaxt Bərdə Rayon Partiya Komitəsinin 1-ci katibi idi. Mən tele və kino, habelə “Azərinform”un jurnalistləri ilə birlikdə mikroavtobusla gedirdik. Qayda belə idi ki, Heydər Əliyevin maşınının qabağında və arxasında yol nəzarəti polisinin maşınları gedirdi. Arxadakı polis maşınından sonra ətraf rayonlardan olan rayon rəhbərlərinin maşınları, yaxud digər vəzifəli şəxslərin olduğu avtomobillər gedirdi. Ən arxada gedən bizim mikroavtobus olurdu. Heydər Əliyev maşından çıxana kimi jurnalistlər özlərini çətinliklə çatdırırdılar. Nə isə, Bərdədə pambıq sahəsinin yanında dayandıq. Heydər Əliyev adəti üzrə pambıq tarlasının dərinliyinə yeridi, qısa bir zamandan sonra dayandı və hirsli halda geri qayıtdı. Sağ ayağından ayaqqabı xeyli palçığa batmışdı. Heydər Əliyev Rüstəm Səfərəliyevə hirslə dedi: “Sən bilirsən ki, mən pambıq kollarına baxmağa gedəcəm, qəsdən tarlaya su buraxmısan ki, yaxşı baxa bilməyim”. O vaxt Heydər Əliyevin mühafizəsində olan Saşa adlı şəxs tez bir qom pambıq götürüb rəhbərin ayaqqabısındakı palçığı təmizlədi.

Heydər Əliyev maşına əyləşəndə mən özümdə cəsarət tapıb yaxınlaşdım qapıya tərəf. Təbii ki, şüşə bağlı idi. Heydər Əliyev diqqətlə üzümə baxdı və başı ilə razılıq işarəsi verdi. Ulu öndər ürəyimi oxumuşdu; rəhbərin maşınına yaxınlaşmaqda məqsədim o idi ki, xahiş edəm – mikroavtobusumuzun öz maşınına yaxın buraxılması barədə tapşırıq versin. Sanki dediklərimi gözlərimdən oxudu. Qayıtdım mikroavtobusa. Polis maşınında olan yüksək rütbəli zabit gəldi ki, “Yoldaş Cəfərov, siz mikroavtobusu mənim maşınımdan sonra sürdürün”.

Gəldik Ağdama. Oradan isə Xankəndiyə. O vaxt vilayət partiya komitəsinin binasının qarşısında Ulu öndəri vilayətin o vaxtkı partiya rəhbəri B.Gevorkov qarşıladı. Möhtərəm Prezidentimiz İlham Əliyev dediyi kimi – “Dağlıq Qarabağ muxtar vilayətinin tabutuna sonuncu mıxı vurduğu” və Bayrağımızı ucaltdığı binanın divarında yalnız erməni və rus dillərində binanın tarixi barədə yazı var idi. Heydər Əliyev Gevorkova möhkəm təpindi. Biz axşam Şuşadan Xankəndiyə qayıdanda binanın girişində artıq Azərbaycan dilində yazılmış böyük lövhə var idi. Şuşada Vaqif Poeziya bayramı yüksək səviyyədə keçirildi. Xankəndidən sonra biz Bakıya döndük.

Qeyd edim ki, Leonid Brejnevin ayağı mənim taleyimə düşdü. O, sonuncu dəfə Bakıya 1982-ci ilin may ayında gəlməli idi. O vaxt mən Bakı Şəhər Partiya Komitəsində işləyəndə Bakı Hava Limanından tutmuş 20 Yanvar dairəsinə qədər şəhərin tərtibatı ilə mən və Xalq rəssamı Arif Əzizov məşğul idik. MK binasında Heydər Əliyev və MK büro üzvlərinə tərtibatla bağlı məlumat vermək mənə tapşırılmışdı. Görünür, məlumatım, söhbətim və davranışım Ulu öndərin xoşuna gəlmişdi. Bir neçə gündən sonra məni Mərkəzi Komitəyə dəvət etdilər.

Heydər Əliyev məni Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsinə təlimatçı vəzifəsinə təyin etməzdən öncə, 1982-ci il iyunun 11-də saat 12.15-də qəbul etdi. Söhbətimiz təxminən yarım saat çəkdi. Yadımda bu sözləri qaldı: “Mən MK-nın 1-ci katibi təyin olunandan indiyə kimi Bakı Şəhər Partiya Komitəsindən bura vəzifəyə gətirdiyim ilk azərbaycanlısan. Səndən əvvəl 4 nəfəri qəbul etdim və tez də yola saldım. Onlar, gördüyün kimi, başqa millətlərdən idilər. Mən özümə yaxın bilmədiyim adamların ağır günahına da yüngül cəza verirəm. Yaxın bildiyim adamların yüngül səhvlərini də bağışlamıram...”

Bu öyüdü qulağımda sırğa etdim və həyatım boyu Ulu öndərin bu etibarını və doğmalıq etimadını doğrultmağa çalışdım... Ulu öndərin həm respublikamıza partiya rəhbərliyi, həm M.Qorbaçovun onu xəyanətkarcasına Siyasi Büro üzvlüyündən və SSRİ Nazirlər Soveti Sədrinin 1-ci müavini vəzifəsindən kənarlaşdırdığı dövrdə, həm də hakimiyyətə 2-ci gəlişindən sonra dəfələrlə təmasda oldum. Onun Prezident kimi Naxçıvana ilk səfəri və Hüseyn Cavidin məqbərəsinin açılışı ilə bağlı tədbirlərinə dair “Ömrün üç günü” adlı nəfis bir kitab çap etdirdim. Kitab həm kiril, həm də latın qrafikasında, ayrı-ayrılıqda 5 min və 10 min tirajla Türkiyədə çap olundu. Bununla bağlı iki dəfə – 1997-ci il Novruz bayramı ərəfəsində qəbul otağında işdən çıxan vaxt, bir də iş otağında görüşüb söhbət etdik. Təkliflərimi diqqətlə dinlədi, müəyyən tapşırıqlar verdi. Və o vaxt “Vətənə qayıdanlar” adlı poema yazdım. Poema Ə. Cavada, H.Cavidə, M.Müşfiqə və Heydər Əliyevə həsr olunmuşdu.

*...Bir payız axşamı getmir gözümdən,*
*Şuşaya quşbaşı qar ələnirdi.*
*Babanın dağlara qonan səsindən*
*Xankəndi, Zəngəzur silkələnirdi!*
*O vaxt baba deyil, bir rəhbər idi,*
*Elə cavanlıqdan zəhmi ağırdı.*
*Erməni qorxudan dinə bilirdi?*
*Susurdu – elə bil – dələ baxırdı!*
*Vaqifdən, Müşfiqdən, Caviddən dedi,*
*Tarixi gətirib qoydu ortaya.*
*Şimal da, Cənub da, – dedi Vətəndi,*
*Qoynunda qarışdı o tay bu taya!*
*Taleyi gətirdi ərköyünlərin!*
*Babasız şair də ürəkli olmur.*
*Böyüyün qədrini bilməyənlərin,*
*Doyunca sevinci, çörəyi olmur!*
*Bir nəslin taleyi heç gətirmədi,*
*Yadlar qan ağlatdı bu yurda, elə,*
*Baba bir dəfə də – “Susun!” – demədi,*
*Güldü həddimizi aşanda belə!*

Gizli deyil ki, o vaxtlar hakimiyyətdə olan bəzi şəxslər mənə qarşı qərəzli mövqedə oldular. Heydər Əliyevə məlumatlar çatmışdı, qətiyyətlə bütün dedi-qoduları rədd edib, məni qorumağa çalışmışdı. Ulu öndərin şəxsi qayğısı olmasaydı, məni ya həbs edəcəkdilər, ya da həyatdan məhrum edəcəkdilər...

Heydər Əliyev ədəbiyyatımıza, sənət adamlarına, xalq içərisində nüfuz qazanmış və yenicə uğurlu addımlar atmağa başlayan şəxslərə çox yüksək həssaslıqla yanaşırdı, onları qoruyurdu. Və Ulu öndərin bərqərar etdiyi bu siyasəti cəsarətli övladı – möhtərəm Prezidentimiz İlham Əliyev bu gün olduqca böyük diqqətlə davam etdirir.

### Heydərdən öyrəndim bu ləyaqəti

*Torpaq vidalaşdı ağlamağıyla,*
*Uzaq səadətin ətri duyuldu.*
*Heydəri xalqıma qaytarmağıyla*
*Tarix neçə-neçə günahı yudu.*

*Polad iradəli, qərarı qəti,*
*“Bakı–Ceyhan” adlı bir ümman axır.*
*Elə bil, yenilməz Heydər qüdrəti*
*Əzablı yolların hayıfın çıxır.*

*Sabahdan söz açdı üzü gülməyən,*
*Sel kimi tökülən qanlar dayandı.*
*İllərlə sədası eşidilməyən*
*Xalqımın əbədi ulduzu yandı.*

*Ölçüsü bilinməz bu səadətin,*
*Öndərim, dünyaya vaxtında gəldin.*
*Var ol, Ulu Tanrım, var ol, Millətim,*
*Var ol ki, Heydəri qoruya bildin!*

*Satqınlıq, iftira, dost xəyanəti...*
*Heydər bu dünyada nələr görmədi!*
*Heydərdən öyrəndim bu ləyaqəti –*
*Namərd ayağına mərdi vermədi!*

*Çağdaş Azərbaycan ölməz əsəri,*
*Vətənə məhəbbət tək amalıydı.*
*Heydər öz Yurdunun sadiq əsgəri,*
*Türkün ən qüdrətli Generalıydı!*

*O qədər doğmadı xatirələri,*
*Sönməyən Günəşdi, odlu çıraqdı.*
*Güc verər hər kəsə nurlu əlləri,*
*Heydərin ruhu da xalqa dayaqdı!!!*

*Vahid ƏZİZ,*
*Xalq şairi*

# Müstəqil dövlətin tərəqqisinin Heydər Əliyev modeli

## *Ulu öndər hərtərəfli yüksəlişin quruculuq cəbhəsindən keçdiyini hamıya anladırdı*

**(əvvəli 1-ci səhifədə)**



Ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyini yenicə qazanan Azərbaycan dərin böhran içində çırpınırdı. Ölkə həm siyasi, həm də sosial sahələrdə çətin və təhlükəli proseslərlə üz-üzə qalmışdı, iqtisadiyyat dərin böhran içində idi: sənaye təlatümlü vəziyyətlə üzləşmiş, kənd təsərrüfatı çökmüş, inflyasiya sürətlə artmış, investisiyalar isə tamamilə dayanmışdı. Belə bir mürəkkəb şəraitdə hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyev, ilk növbədə, sabitlik və təhlükəsizliyi gerçəkləşdirməyə nail oldu. Lakin onun iqtisadi siyasət strategiyası sadəcə böhrandan çıxışla kifayətlənmirdi – əsas məqsəd iqtisadi müstəqilliyin təmin olunması idi.

Qeyd edək ki, 1991–1993-cü illərdə Azərbaycan iqtisadiyyatı tam iflic olmuşdu. İqtisadiyyatın bütün sahələrində kəskin tənəzzül müşahidə edilirdi: ÜDM 57,3 faiz, sənaye istehsalı 52,3 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 47 faiz azalmışdı. İnflyasiya 1000 faizi keçmiş, milli valyutanın –manatın dəyəri sürətlə düşmüşdü. Dövlət büdcəsinin gəlirləri demək olar ki, dayanmış, bank sektoru etimadı tamamilə itirmişdi. Ölkədə investisiya qoyuluşu yox səviyyəsində idi. Sosial sahədə də vəziyyət acınacaqlı idi – maaş və pensiyalar aylarla gecikdirilir, işsizlik artır, əhali yoxsulluqla mübarizə aparırdı.

Belə bir ümidsizlik şəraitində, 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişi ilə ölkədə sabitliyin bərpası, hüquqi və institusional islahatların aparılması, iqtisadiyyatın tənzimlənməsi üzrə mühüm tədbirlər görülməyə başlandı. Hökumət, ilk növbədə, idarəetmədə mərkəzləşməyə və resursların strateji istiqamətlər üzrə yönəldilməsinə çalışdı. 1994-cü ildən etibarən iqtisadiyyatda tənəzzül meyilləri dayandırıldı və artımın ilk əlamətləri özünü göstərməyə başladı.

Ermənistanın hərbi təcavüzü, keçmiş Dağlıq Qarabağ münaqişəsinin alovlanması, paytaxt Bakını da əhatə edən daxili qarşıdurmalar, iqtisadi sabitliyin pozulması müstəqil dövlətin gələcəyini ciddi şəkildə sual altına almışdı. 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyevin qətiyyətli və düşünülmüş siyasi-iqtisadi addımları isə bu gərginliyi aradan qaldırdı və Azərbaycanın gələcək inkişafının möhkəm təməlini qoydu.

Dahi şəxsiyyətin iqtisadi inkişaf modelinin əsasında, ilk növbədə, təbii resurslara əsaslanan milli sərvətlərin idarə olunması prinsipi dayanırdı. Ona görə də Azərbaycanın zəngin neft və qaz ehtiyatlarının ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayacağını müəyyənləşdirən Heydər Əliyev bu sərvətləri hasil etməklə bərabər, onların düzgün idarə olunması, gəlirlərin xalqın rifahına yönəldilməsi üçün şəffaf və davamlı mexanizmlərin yaradılmasını qarşıya mühüm vəzifə kimi qoydu.

Bu məqamda onu da xatırladım ki, 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" təkcə neft müqaviləsi deyildi. Bu, Azərbaycanın iqtisadi müstəqilliyinin başlanğıcı, beynəlxalq kapitalın ölkəyə axını və milli iqtisadi inkişaf üçün geosiyasi manevr imkanlarının genişlənməsi idi. "Əsrin müqaviləsi" ilə Azərbaycan dünya enerji bazarlarına çıxış əldə edə bildi və bu müqavilənin əsasında ölkəyə milyardlarla dollar xarici sərmayə cəlb olundu.

Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olan "Əsrin müqaviləsi" Xəzər regionunu beynəlxalq əməkdaşlıq məkanına çevirdi. Gənc Azərbaycan Respublikası az müddətdə qlobal enerji layihələrinin təşəbbüskarı və əsas iştirakçısı kimi tanındı, ölkəmizin beynəlxalq nüfuzu xeyli artdı. "Əsrin müqaviləsi"nin uğurla icra olunması isə Azərbaycanı iqtisadi tənəzzüldən sürətli inkişafı yoluna çıxardı. İlk növbədə, Azərbaycana güclü xarici investisiya axını başladı.

Yeri gəlmişkən, "Əsrin müqaviləsi"-nin uğurla reallaşdırılması üçün səhmdarlar tərəfindən yaradılan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin Rəhbər Komitəsi "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun bir neçə mərhələdə işlənməsi barədə qərar qəbul etdi. "Əsrin müqaviləsi"nin ilkin neft layihəsi çərçivəsində dənizdə mövcud "Çıraq" platformasında və "Dədə Qorqud" üzən yarımdalma qurğusunda əsaslı yenidənqurma işləri aparıldı. Bundan əlavə, hazırda Ulu öndərin adını daşıyan Bakı Dərin Dəniz Özülləri Zavodu tamamilə yenidən quruldu, xam neftin qəbul edilib ixrac sisteminə vurulması üçün Səngəçal terminalı inşa olundu, dənizdən bura sualtı boru kəməri çəkildi.

Nəhayət, 1997-ci il noyabrın 7-də "Çıraq" platformasından ilkin neftin hasilatına başlanıldı. Beş gün sonra, noyabrın 12-də ölkəmizin rəsmi dövlət və hökumət üzvlərinin, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin nümayəndələrinin, eləcə də xarici ölkələrdən gələn qonaqların iştirakı ilə "Çıraq" platformasında təntənəli mərasim keçirildi. Tədbirdə bu möhtəşəm tarixin yaradıcısı Heydər Əliyevin şəxsən iştirak etməsi isə olduqca qürurverici idi.

Azərbaycanın yeni neft strategiyasının möhtəşəm uğurunun müjdəsini xalqımıza çatdıran Ümummilli lider mərasimdə çıxış edərək bu təntənənin, əldə edilən nailiyyətlərin ölkəmizin dövlət müstəqilliyinin qazanılmasından sonra mümkün olduğunu söyləyərək deyib: "1994-cü ilin sentyabr ayında biz ilk böyük neft müqaviləsini imzalayarkən dünyaya nümayiş etdirdik ki, Azərbaycan müstəqil dövlətdir və müstəqil dövlət kimi öz təbii sərvətlərinin sahibi olaraq onlardan istifadə edilməsi haqqında qərarlar qəbul edir. Üç il keçəndən sonra biz bir daha təsdiq edirik ki, Azərbaycan müstəqil dövlətdir, Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və biz artıq bu müstəqilliyimizin gözəl bəhrələrini görürük".

"Əsrin müqaviləsi"nin ilkin neft layihəsinin həyata keçirilməsi sahəsində qazanılan zəngin təcrübə sonralar "Azəri" və "Dərinsulu Günəşli" yataqlarının da mərhələli şəkildə işlənməsinə imkan yaratdı. 2001-ci ilin avqust ayında "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun tammiqyaslı işlənməsinə başlanıldı. Bu mərhələ çərçivəsində "Azəri" yatağında və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsində unikal hasilat və texniki təchizat platformaları inşa olundu, neftin Səngəçal terminalına nəqli üçün yeni sualtı kəmərlər çəkildi. Xam nefti qəbul etmək üçün terminalın ərazisində əlavə genişləndirmə işləri aparıldı.

Beləliklə, "Əsrin müqaviləsi" adlandırılan beynəlxalq neft sazişi Azərbaycanın gələcək iqtisadi inkişafının əsas təkanverici qüvvəsinə çevrildi. Bu müqavilə ilə Azərbaycan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənməsini dünyanın ən iri neft şirkətləri ilə birlikdə həyata keçirməyə başladı. Sazişin iştirakçıları arasında ABŞ-ın "Amoco", Böyük Britaniyanın "BP", Rusiyanın "LUKoil", Norveçin "Statoil", Türkiyənin "TPAO", Səudiyyə Ərəbistanının "Delta" şirkətləri və digərləri var idi.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin yaradılması isə ölkəyə milyardlarla dollar xarici investisiyanın cəlb edilməsinə səbəb oldu. Bu sərmayələr yalnız neft sektoruna deyil, əlaqəli sahələrə də stimullaşdırıcı təsir göstərdi. "Əsrin müqaviləsi" təkcə iqtisadi deyil, həm də siyasi baxımdan Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu artırdı, regionun enerji xəritəsində ölkənin strateji rolunu müəyyənləşdirdi.

İnsan kapitalına və sahibkarlığın inkişafına dəstək də unudulmadı. Ulu öndərin rəhbərliyi ilə iqtisadi inkişafın dayanıqlı ola bilməsi üçün təhsil və insan kapitalına xüsusi önəm verildi. Sahibkarlığın inkişafı üçün müxtəlif təşviq mexanizmləri tətbiq edildi, dövlətin iqtisadiyyatda rolu mərhələli şəkildə azaldıldı.

O dövrdə özəl bölməyə göstərilən diqqət və qayğıdan söz düşmüşkən bir məqamı xüsusi nəzərə çarpdırmaq istərdik. Belə ki, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və artırılması üçün dövlət tərəfindən müxtəlif dövrlərdə qəbul olunmuş "Azərbaycanda Kiçik və Orta Sahibkarlığa Dövlət Yardımı Proqramı (1997–2000-ci illər)", "Azərbaycan Respubliksaında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002–2005-ci illər)" respublikamızda özəl bölmənin inkişafına güclü təkan verdi. Adları qeyd edilən bu mühüm sənədlərdə vurğulanan prinsiplər hazırda da dövlətimizin başçısı tərəfindən uğurla davam etdirilir.

Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra iqtisadi siyasətdə əsas hədəflərdən biri sərmayədarlar üçün əlverişli və sabit investisiya mühitinin yaradılması oldu. Xarici investorların hüquq və mənafelərinin qorunması, qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması, investisiya risklərinin azaldılması məqsədilə bir sıra qanunvericilik islahatları həyata keçirildi.

1995-ci ildə qəbul olunan ilk Konstitusiyada mülkiyyətin toxunulmazlığı, sahibkarlığın azadlığı, iqtisadi fəaliyyətin dövlət tərəfindən dəstəklənməsi kimi fundamental prinsiplər təsbit edildi. Xarici və yerli sahibkarlara bərabər hüquqların tanınması, lisenziya və qeydiyyat prosedurlarının sadələşdirilməsi sahibkarlığın inkişafına əlverişli zəmin yaratdı. Nəticə etibarilə qeyri-neft sektoruna da maraq artdı və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində ilk addımlar atıldı.

Ümummilli liderin müdrik siyasəti ilə ölkənin kənd təsərrüfatında nəzərə çarpan və ciddi narahatlıq doğuran durğunluq da aradan qaldırıldı, respublikada mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüffat dövrüyyəsinə cəlb olunması, aqrar sektorun inkişaf etdirilməsinə dair qəbul olunaqn islahatlar bu inkişafı daha da sürətləndirdi. 1996-cı il iyulun 16-da "Torpaq islahatı haqqında" çox mühüm bir qanun qəbul edildi. Ümumiyyətlə, 1995–2004-cü illərdə aqrar sahə ilə əlaqədar 100-dən yuxarı normativ-hüquqi akt imzalandı. "Azərbaycan Respublikasında aqrar bölmənin inkişafının Dövlət Proqramı (2002–2006-ci illər)"nın həyata keçirilməsi aqrar sahədə uğurlar əldə edilməsini şərtləndirdi.

O dövrdə dahi şəxsiyyətin müdrik siyasəti, gərgin əməyi sayəsində vergi sahəsində də bir çox önəmli islahatlar həyata keçirildi. Bir sıra dövlət mülklərinin özəlləşdirilməsi nəticədə dövlətə ödənilən verginin faizində artım əldə edildi. Bir çox sahələrdə özəlləşdirmə dövlətə ödənilən verginin artmasına və büdcənin yüksəlməsinə gətirib çıxardı.

Torpaq sahəsində özəlləşdirmə torpaq sahibkarlarına öz pay torpaqlarını azad əkib, becərmək imkanı yaratdı. Vergi münasibətlərini tənzimləyən bir sıra qanunlar – "Mədən vergisi haqqında" (1995-ci il), "Əmlak vergisi haqqında" (1995-ci il), "Müəssisələrin və təşkilatların mənfəət vergisi haqqında" (1996-cı il) qanunlar qəbul edildi və qüvvədə olan qanunlara ("Əlavə dəyər vergisi haqqında", "Fiziki şəxslərin gəlirlərindən vergi haqqında" qanunlar və s.) bir sıra əlavə və dəyişikliklər olund. 2001-ci il yanvarın 1-dən isə "Azərbaycan Respublikasının Vergi Məcəlləsi" qüvvəyə mindi.

Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ölkədə bazar iqtisadiyyatının formalaşması məqsədilə qanunvericilik bazası da yaradıldı, məqsədli dövlət proqramları qəbul edildi, institusional islahatlar aparıldı, mülkiyyət münasibətlərində köklü dəyişikliklər edilməsi üçün müvafiq addımlar atıldı. Dahi siyasətçi tərəfindən müəyyənləşdirilmiş strategiyanın əsasını iqtisadiyyatın inkişafına, mövcud resurslardan səmərəli istifadəyə, dünya iqtisadiyyatına inteqrasiyaya və nəticə etibarilə vətəndaşların rifah halının yüksəldilməsinə hesablanan sosialyönümlü bazar iqtisadiyyatının yaradılması təşkil etdi.

Heydər Əliyev dönəmində həyata keçirilən əsas iqtisadi islahatlardan biri də dövlət mülkiyyətinin özəlləşdirilməsi proqramı oldu. 1995-ci ildən başlayaraq bir neçə mərhələdə həyata keçirilən bu proqram çərçivəsində minlərlə müəssisə və obyekt özəlləşdirildi. Özəlləşdirmə həm daxili sahibkarlığın inkişafını sürətləndirdi, həm də iqtisadiyyatda rəqabət mühitinin formalaşmasına təkan verdi.

Bazar iqtisadiyyatına keçidin hüquqi bazasının yaradılması üçün mülki məcəllə, vergi və gömrük qanunvericiliyi, bank və kredit sisteminə dair yeni normativ aktlar qəbul edildi. Maliyyə sisteminin sabitləşdirilməsi istiqamətində Mərkəzi Bankın müstəqilliyi təmin olundu, pul siyasəti tənzimləndi və inflyasiya səviyyəsi nəzarətə götürüldü.

Göründüyü kimi, Ümummilli lider strateji iqtisadi islahatlar və qanunvericilik bazasının təməlinin qoyulmasını da diqqətdə saxladı. Heydər Əliyev tərəfindən qəbul olunan iqtisadi islahatlar paketi, özəlləşdirmə proqramları, bazar iqtisadiyyatına keçid üçün normativ-hüquqi bazanın yaradılması ilə uzunmüddətli iqtisadi inkişafın əsası qoyuldu.

Heydər Əliyevin iqtisadi strategiyası nəticəsində Azərbaycan tədricən sabitlik və inkişaf yoluna qədəm qoydu. 1996-cı ildən etibarən ÜDM-in artımında müsbət göstəricilər diqqət çəkdi. 1995–2003-cü illər arasında inflyasiya səviyyəsi 2–3 faizədək azaldıldı, büdcə intizamı təmin edildi, ölkənin valyuta ehtiyatları artdı. Xarici investisiya həcmi 25 milyard ABŞ dollarını keçdi. Sosial sahədə də irəliləyişlər müşahidə olundu: maaş və pensiyalar artırıldı, yoxsulluq səviyyəsi tədricən azalmağa başladı.

Nəticə etibarilə Heydər Əliyevin həyata keçirdiyi iqtisadi siyasət qısa müddətdə ölkəni dağılmaqdan xilas etdi və gələcək inkişafın strateji konturlarını formalaşdırdı. Ulu öndərin qurduğu iqtisadi model sonrakı illərdə Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilərək Azərbaycanı regionun lider dövlətlərindən birinə çevirdi. Bu gün əldə etdiyimiz uğurların təməlində məhz ötən əsrin 90-cı illərin ortalarında atılmış cəsarətli və uzaqgörən addımlar dayanır.

2003-cü ildə xalqın etimadı ilə Prezident seçilən İlham Əliyev atasının başladığı iqtisadi inkişaf strategiyasını davam və inkişaf etdirməklə onu müasir çağırışlara uyğun yeniləyərək Azərbaycanın dayanıqlı iqtisadi inkişafını gerçəkləşdirdi. Onun iqtisadi strategiyasının əsas istiqamətləri Heydər Əliyevin müəyyənləşdirdiyi əsasların üzərində qurulsa da, bu siyasət, eyni zamanda, yeni mərhələyə keçidi simvolizə etdi.

Neft gəlirlərinin düzgün idarə olunması və Dövlət Neft Fondunun səmərəli fəaliyyəti də diqqət mərkəzində saxlanıldı. Başqa sözlə, Prezident İlham Əliyevin dövründə adıçəkilən fondun fəaliyyəti daha da təkmilləşdirildi, gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi prioritetə çevrildi. Bu fonddan, yalnız sosial layihələrin maliyyələşdirilməsi deyil, həm də strateji infrastruktur təşəbbüslərinin gerçəkləşdirilməsi üçün mühüm maliyyə mənbəyi kimi istifadə olundu.

Dövlət başçısı İlham Əliyevin prezidentlik fəaliyyətinin ötən dövründə qeyri-neft sektorunun inkişafına böyük əhəmiyyət verilib. Ölkə liderinin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı təkcə enerji sahəsində deyil, kənd təsərrüfatı, sənaye, turizm, informasiya texnologiyaları kimi sahələrdə də dinamik inkişaf etdirilib. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində respublikanın bütün bölgələrində infrastruktur yenilənib, sahibkarlığa geniş dəstək tədbirləri həyata keçirilib.

Prezident İlham Əliyevin fəaliyyətində infrastruktur və sənaye siyasəti xüsusi yer tutub. Bakı – Tbilisi – Ceyhan, Bakı – Tbilisi – Ərzurum, TANAP və TAP kimi beynəlxalq layihələrin reallaşması Azərbaycanın iqtisadi və geosiyasi mövqeyini gücləndirib. Azad iqtisadi zonalar, texnoparklar və sənaye məhəllələri kimi təşəbbüslər iqtisadiyyatın şaxələndirilməsinə mühüm töhfələr verib.

Rəqəmsal inkişaf və innovasiya sahəsi də prioritet sahə kimi diqqətdə saxlanılıb. Başqa sözlə, müasir dövrdə Prezident İlham Əliyevin iqtisadi siyasətində rəqəmsal texnologiyaların tətbiqi, rəqəmsal hökumət platformalarının inkişafı, innovasiya əsaslı iqtisadiyyatın qurulması önə çıxarılıb.

Yeri gəlmişkən, burada bir məqamı xüsusilə diqqətə çatdırmaq istərdik. Belə ki, 2020-ci il Vətən müharibəsində qazanılan tarixi Zəfər Azərbaycanın iqtisadi inkişaf strategiyasında yeni mərhələni şərtləndirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərin bərpası, "yaşıl enerji zonası" konsepsiyasının tətbiqi, "ağıllı" şəhər və kənd layihələrinin gerçəkləşdirilməsi Azərbaycan iqtisadiyyatında innovativ yanaşmaların önə çıxması zərurətini yaratdı. Bu ərazilər – Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları həm yerli, həm də xarici investorlar üçün geniş imkanlar açdı.

Beləliklə, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu milli iqtisadi inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək, Azərbaycanın müasir və rəqabətqabiliyyətli iqtisadi modelə malik ölkəyə çevrilməsini gerçəkləşdirib. Bu model təkcə enerji ehtiyatlarına əsaslanmayıb – o, insan kapitalına, texnoloji tərəqqiyə, infrastruktur inkişafa və strateji planlaşdırmaya söykənən kompleks bir sistem kimi prioritet istiqamətlər sırasında yer alıb.

*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Müstəqil dövlətin memarı və qurucusu

**İbrahim ZEYNALOV,**
**Bakı Dövlət Universiteti tarix fakültəsinin dekanı, professor**



**Bəşər tarixi dahi şəxsiyyətlərin uzaqgörən siyasəti, cəmiyyətlərin həyatını dəyişən əməlləri ilə zənginləşib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də öz xalqının tarixində məhz belə rol oynamış qüdrətli şəxsiyyətdir.**

Bu nadir dühanın, fenomen liderin siyasi və dövlətçilik fəaliyyəti bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzəyir. Məntiqi fikirləri, iti duyumu, uzaqgörənliyi ilə fərqlənən və misilsiz dövlət xadimi kimi ən çətin, mürəkkəb, hətta çıxılmaz hesab olunan vəziyyətdən Vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı və düzgün çıxış yolu tapmaq bacarığına malik dahi şəxsiyyət idi.

Xalqının, torpağının misilsiz təəssübkeşi olan Heydər Əliyev dünyanın bütün başqa dahi şəxsiyyətlərindən fərqli olaraq iki müxtəlif ictimai-siyasi sistemdə yaşamış və fəaliyyət göstərmişdir. O hər iki sistemdə siyasət və idarəçilik nərdivanının ən yüksək pilləsinə ucala bilmişdir.

Azərbaycana rəhbərliyinin birinci dövründə – 1969–1982-ci illərdə Heydər Əliyev qeyri-adi idarəçilik bacarığı, polad iradəsi, uzaqgörənliyi, vətənpərvərliyi sayəsində, məqsədyönlü, düşünülmüş dərin məntiqi düşüncəyə əsaslanan qərarları ilə çox qısa müddətdə Azərbaycanda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük yüksəlişlərə nail olmuşdur. Azadlıq və müstəqillik duyğularının düşüncəmizdə üstünlük təşkil etməyə başladığı o dövr Azərbaycanın quruculuq salnaməsinin parlaq səhifələridir.

Ulu öndər Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir. Bu qurucu insan təkcə Azərbaycanın deyil, həm də keçmiş SSRİ-nin xalq təsərrüfatının inkişafına böyük töhfə vermişdir. Sovet DTK-sının sıravi leytenantından general-mayor rütbəsinədək, kommunistlər ordusunun sıravi nəfərindən Kreml liderlərindən birinə qədər yüksəlmiş, dünyanın ən görkəmli dövlət xadimlərindən, dünyanın ən tanınmış siyasətçilərindən biri kimi tanınmış və beynəlxalq nüfuz qazanmışdır.

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra ümummilli lider Heydər Əliyev yenidən respublikaya başçılıq etməyə başladı, ölkədə qayda-qanun yaratdı. O, eyni zamanda, qan tökülməsinin qarşısını aldı, müharibəni dayandırdı. Təcrübəli dövlət xadimi Azərbaycanı sosial rifah yolunda möhkəm addımlarla irəliləyən, beynəlxalq birliyin nüfuzlu bir üzvü kimi etibarlı mövqeyini gündən-günə gücləndirən ölkəyə çevirdi.

Ulu öndər Hüydər Əliyev dünya şöhrətli siyasət və dövlət xadimi mərtəbəsinə çoxillik həyat mübarizəsi, yurd sevgisi, möhkəm iradəsi, yüksək amallara bağlılığı ilə yüksəlmişdi. O, 1939-cu ildə 16 yaşında Naxçıvan Pedaqoji Texnikumunu əla qiymətlərlə bitirmişdi. Sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsilini davam etdirmişdi. İkinci Dünya müharibəsi zamanı Naxçıvana qayıdıb Daxili İşlər Komissarlığının məxfi hissəsində çalışmışdı.

1944-cü idən Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində müxtəlif vəzifələrdə fəaliyyət göstərən gələcəyin lideri 1967-1969-cu illərdə bu quruma rəhbərlik etmişdi. O zaman dövlət təhlükəsizliyi orqanlarında işləmək asan deyildi. Azərbaycan təhlükəsizlik orqanlarında isti yuva salmış kənar millətlərin nümayəndələri, xüsusilə məkrli ermənilərlə belə bir şəraitdə işləməyin kifayət qədər böyük çətinlikləri var idi. Lakin qətiyyətli, əzmli, dözümlü, iti duyumlu, fitri istedadlı və ən başlıcası cəsarətli və prinsipal olması nəticəsində Heydər Əliyev bu maneələri uğurla dəf etmişdi, xalqımızın azadlıqsevər və dəyərli övladlarını qorumuşdu.

Bir zaman memar olmaq arzusu ilə yaşayan Heydər Əliyev bir bu sənətlə məşğul ola bilməmişdi. Amma o, taleyin hökmü ilə öz xalqının, ölkəsinin baş memarı olmuşdur. 1969-cu il iyulun 14-də sosial-iqtisadi həyatın bütün sahələrində tənəzzülün, geriliyin başladığı mənfi meyillərin gücləndiyi hakimiyyət uğrunda gizli rəqabətin artdığı, bütün bunların isə xalqın milli mənəvi birliyinə pis təsir etdiyi bir vaxtda Azərbaycan dövlətinin rəhbərliyinə Heydər Əliyev gəlmişdir.

Azərbaycan xalqının müharibədən sonra əldə etdiyi nailiyyətlərə, uğurlara baxmayaraq, bir sıra obyektiv və subyektiv səbəblər üzündən XX yüzilliyin 60-cı illərində Azərbaycan iqtisadiyyatının bir çox sahələrində: həm sənayedə, həm də kənd təsərrüfatında mənfi meyillər özünü göstərməyə başladı. İstehsalın, o cümlədən, sənaye məhsulları istehsalının ümumi inkişaf səviyyəsinə, milli gəlirin həcminə, əmək məhsuldarlığının artım sürətinə görə, kənd təsərrüfatında olan vəziyyətə görə Azərbaycan müttəfiq respublikalar arasında sonuncu yerlərdən birini tuturdu.

1969-cu il avqustun 5-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nın plenumu oldu. Plenumda Heydər Əliyev çıxış edərək Azərbaycanın sosial-iqtisadi böhran vəziyyətinin, uzun müddətli geriliyinin təhlilini verdi, səbəblərini açıqladı və çıxış yollarını müəyyənləşdirdi. Həmin vaxtdan da Azərbaycanda tənəzzüldən tərəqqiyə dönüş başladı, dirçəliş və inkişafın, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə və milli özünəqayıdışa dönüş mərhələsinin başlanğıcı qoyuldu.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə respublikanın iqtisadi inkişaf konsepsiyası hazırlanmış, iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında ixtisaslaşma, maddi-texniki və müasir istehsal sahələrinin yaradılması ilə bağlı kompleks tədbirlər hazırlanmış və həyata keçirilmişdir. Heydər Əliyevin fədakar əməyi, xüsusi təşkilatçılığı ilə iqtisadi inkişafın dinamikası Azərbaycanda İttifaq respublikalarından xeyli yüksək olmuşdur.

Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində fəaliyyət göstərdiyi dövrdə də Azərbaycanın sosial-iqtisadi inkişafı üçün bütün imkanlarından istifadə etmişdir. 1970–1982-ci illərdə Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə İttifaq respublikaları arasında öndə gedərək ilk yerlərdən birini tutmuşdur.

O illərdə Heydər Əliyevin gərgin, fədakar əməyi və rəhbərliyi altında respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektləri istifadəyə verilmiş, 630 min nəfərlik yeni iş yerləri yaradılmışdır. Bu illərdə sənaye istehsalı 2,2 dəfə artmış, məhsulun orta illik artım sürəti 8,2 faiz olmuş, neft hasilatında istehsalın həcmi 2,8 dəfə, həmçinin maşınqayırma və metal emalı 3,3 dəfə, kimya və neft kimyası 2,8 dəfə artmışdır. Sənayedə əmək məhsuldarlığı 7 dəfə yüksəlmiş, 4,4 min yeni maşın, cihaz, avadanlıq və digər məmulatlar yaradılmışdır, onlardan 400-ü keçmiş SSRİ-də ilk dəfə həyata vəsiqə almışdır.

1980-ci illərin ortalarında respublika iqtisadiyyatında kənd təsərrüfatının xüsusi çəkisi də artmışdır. Pambıqçılıq, üzümçülük, taxılçılıq daha sürətlə inkişaf etmişdir. Bu illərdə respublika üzrə 5,5 milyon ton pambıq, 7 milyon 399 min ton üzüm istehsal olunmuşdu. Həmin dövrdə milli gəlir 2,6 dəfə çoxalmış, respublikanın payı keçmiş SSRİ-nin milli gəlirində 1,5 dəfə, sənaye istehsalının həcmində 1,5 dəfə, kənd təsərrüfatı istehsalının həcmində isə təqribən 1,8 dəfə artmışdır.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə əldə edilən ən mühüm tarixi nailiyyətlərdən biri də respublikanın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yetişdirilməsi idi. Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1970-1982-ci illərdə Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəblərinə respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və xüsusi ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaradılmışdır.

1969–1982-ci illər Azərbaycanın tarixinə intibah, nəhəng quruculuq dövrü kimi daxil oldu. Ölkə iqtisadiyyatının bütün sahələrində yüksəliş baş verdi, dinamik inkişaf təmin olundu. Respublika iqtisadiyyatında çox ciddi struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı.

Sonralar tariximizin bu dövrünü Heydər Əliyev belə qiymətləndirirdi: “1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yer tutur”.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir.

1991-ci ildə SSRİ-nin dağılması ilə əlaqədar Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa etmişdir. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti “Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında” Konstitusiya Aktı qəbul etmişdir, Konstitusiya Aktı 1991-ci il dekabrın 30-da ümumxalq səsverməsi – referendum vasitəsilə bəyanilmişdir. Bu aktla Azərbaycan Respublikasının dövlət müstəqilliyinin təmin olunması üçün hüquqi əsaslar yaradılmış, ölkəmiz dövlət müstəqilliyini bütün dünyaya bəyan etmişdir. Azərbaycanın dövlət müstəqilliyini dünyanın bütün ölkələri tanımış, Azərbaycan BMT-yə daxil olmuş və dünyanın böyük beynəlxalq təşkilatlarının hamısının üzvüdür.

Ulu öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir.

1995-ci il noyabr ayının 12-də Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu görkəmli dövlət xadimləri və siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Ulu öndərin böyük səyləri ilə bu təhlükələrin qarşısı alınmışdır. Ümummilli lider, ikinci müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin Azərbaycan xalqının təkidli tələbləri nəticəsində 1993-cü ilin iyununda, son dərəcədə ağır və kritik bir dövrdə ikinci dəfə hakimiyyətə qayıdışından, tarixi xilaskarlıq missiyasına başlamasından sonra ölkəmizdə vətəndaş qarşıdurmasına, separatçılıq meyllərinə, xaosa, anarxiyaya, hərc-mərcliyə son qoyuldu.

O böhranlı aylarda və illərdə ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanın parçalanmaq, müstəqilliyini yenidən itirmək təhlükəsi və qorxusu birdəfəlik aradan qaldırıldı. İlk növbədə, yeni yaranmaqda olan Azərbaycan Ordusunda hökm sürən intizamsızlığa son qoyuldu. Ayrı-ayrı silahlı dəstələr, hərbi birləşmələr, könüllülər batalyonları ləğv edildi, Orduda dəmir nizam-intizam yaradılmağa başlandı, əsl ordu quruculuğuna qədəm qoyuldu.

Təcrübəli dövlət xadimi Heydər Əliyev qəti əmin oldu ki, ağır vəziyyətdə olan respublika iqtisadiyyatını dirçəltmək, ölkənin dünya inteqrasiyasında iştirakını canlandırmaq üçün ən sanballı mənbə neft amili ola bilər. 1994-cü ildə “Əsrin müqaviləsi” imzalandı. Respublikaya güclü investisiya axını başlandı. Neft strategiyası müstəqil respublikamızda demokratiyanın inkişafı, ictimai-siyasi sabitliyin təmin edilməsi, milli dövlət quruculuğunun möhkəmləndirilməsi, onun dünya iqtisadiyyatına qovuşması üçün möhkəm baza yaratdı. Artıq 1996-cı ildə iqtisadiyyatda tənəzzül meyillərinin qarşısı alındı.

Eyni zamanda, ölkədə yeni iqtisadi sistemin qurulması, aqrar islahatların, özəlləşmənin aparılması, sahibkarlığın inkişafı ilə əlaqədar qanunvericilik bazası yaradıldı. Heydər Əliyev əhalinin sosial şəraitinin yaxşılaşdırılmasını fundamental əhəmiyyət kəsb edən bir məsələ kimi ön plana çəkirdi.

Ümummilli lider Heydər Əliyev xarici şirkətlər ilə danışıqlarda, sazişlərin imzalanmasında həmişə tam milli mənafelər mövqeyindən çıxış edir, onların qeyri-neft sektoruna, regionların sosial-iqtisadi inkişafına daha geniş cəlb edilməsinə mane olan səbəblərin aradan qaldırılmasına daha çox üstünlük verirdi.

Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir.

Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ümummilli lider Heydər Əliyev qeyd edirdi ki: “Azərbaycan artıq o ölkədir ki, öz torpağının işğalına dözməyəcəkdir. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi hərbi potensialından istifadə edib, istədiyinə nail olacaqdır. Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt icazə verməyəcəyik”.

Ulu öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 2020-ci il 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir. Müasir tariximizin yarım əsrlik dövrü, o cümlədən, müstəqil Azərbaycan dövlətinin formalaşması, dinamik inkişafı və dünya inteqrasiya sisteminə qovuşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dünyanın ən güclü dövlət xadimləri, siyasətçiləri Azərbaycan Respublikasının memarı, qurucusu Azərbaycan xalqının yetişdirdiyi ən mükəmməl tarixi şəxsiyyəti, beynəlxalq miqyaslı böyük siyasət və dövlət xadimi fenomen lider kimi qiymətləndirirlər.

Müstəsna təşkilatçılıq qabiliyyətinə, zəngin idarəçilik təcrübəsinə, dərin təfəkkürə və iti analitik duyuma malik olan Heydər Əliyev həm də nüfuzlu, iradəli, cəsarətli, qətiyyətli, dünya birliyi tərəfindən sayılan, seçilən nadir şəxsiyyətlərdən biri idi. Bunun nəticəsi idi ki, onun dünyanın ən nüfuzlu təşkilatları, güclü dövlətlərin başçıları ilə Azərbaycanda yeni iqtisadi sistemin qurulması, respublikamızın dünya inteqrasiyasına qovuşması kimi qlobal problemlərə dair apardığı danışıqlar dünya ictimaiyyəti tərəfindən bu gün də çox yüksək qiymətləndirilir.

Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin inkişaf və sabitlik yolunu müəyyən edib, gələcək tərəqqinin əsaslarını formalaşdırdıqdan sonra əbədiyyətə qovuşdu. Ulu öndərin ən layiqli davamçısı, müasir tipli siyasi lider İlham Əliyev 2003-cü ildə keçirilən prezident seçkilərində seçicilərin həlledici hissəsinin etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçildi.

Azərbaycanın yeni rəhbəri andiçmə mərasimində dedi: “Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur”.

Heydər Əliyev Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşi, qurtuluş mübarizəsinin qalibi, yeni Azərbaycanın qurucusu, öz xalqını, dövlətini zamanın mürəkkəb tarixi-siyasi sınaqlardan uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqiliyyə qovuşdurmuş tarixi şəxsiyyət, fenomen liderdir. Azərbaycan xalqı yeni əsrə və III minilliyə məhz Heydər Əliyevin zəkasının işığında qədəm qoymuşdur.

İllər keçdikcə Heydər Əliyev siyasi kursunun dəyəri azalmır, onun ideyaları, dövlətçilik siyasəti yaşayır, Azərbaycançılıq fəlsəfəsi inkişaf edir. Ən başlıcası isə, ümummilli lider Heydər Əliyevin ideyaları və müəyyən etdiyi siyasət əsasında müstəqil Azərbaycan ildən-ilə qüvvətlənir, inkişaf edir və beynəlxalq aləmdə respublikamızın nüfuzu durmadan artır.



# Ulu öndərin milli mətbuat və söz azadlığı təlimi

**Ümummilli lider Heydər Əliyev çoxcəhətli ictimai-siyasi fəaliyyətində Azərbaycan xalqının ədəbi-mədəni həyatı ilə bağlı problemlərə, o cümlədən milli medianın inkişafı ilə bağlı önəmli məsələlərə də xüsusi diqqət və qayğı ilə yanaşırdı. O, milli mətbuatımıza yüksək dəyər verərək deyirdi: "Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir".**

Bu gün əsas vəzifə onun geniş imkanlarından milli dövlət quruculuğunda, demokratik dəyərlərin bərqərar edilməsində, sivil vətəndaş cəmiyyətinin formalaşmasında, islahatların həyata keçirilməsində, insanların mənəvi saflaşmasında səmərəli istifadə etməkdən ibarətdir.

Zəngin və çoxəsrlik tarixə sahib olan Azərbaycan xalqının böyük inkişaf yolu keçərək yüksək sivilizasiyaya çatması, ilk mətbu orqanımız olan "Əkinçi" qəzetinin nəşrə başlaması Şərq dünyasında milli oyanışın təzahürü kimi böyük əhəmiyyət kəsb etdi və keçən əsrin əvvəllərində nəşrə başlayan mətbuat orqanları milli dövlətçiliyimizin qurulması və formalaşmasında müstəsna rol oynadı. XX əsrin 1918-1920-ci illəri həm tariximizin və istiqlalımızın, həm də dövlətçiliyimizin şərəf zirvəsi idi. Bu zaman milli mətbuat, milli ideologiya, maarif və mədəniyyət öz məcrasına düşmüşdü.

Ümummilli lider milli mətbuatımızın inkişafında, azad fəaliyyətində ana dilinin böyük əhəmiyyət kəsb etdiyini xüsusilə diqqət mərkəzində saxlayırdı. Buna görə də Heydər Əliyev bütün dövrlərdə ana dilimizə diqqət və məhəbbətlə yanaşıb. Hələ 1978-ci ildə sovet rejiminin hökm sürdüyü, totalitar ideologiyanın hegemonluğu dövründə Heydər Əliyevin təkidi ilə Azərbaycan Respublikasının Konstitusiyasına Azərbaycan dili dövlət dili kimi daxil edildi.

Ulu öndər bu hadisəni belə xatırlayır: "Yadımdadır, 1978-ci ildə biz Azərbaycanın Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük. Hələ 1978-ci ildə qəbul olunmuş Konstitusiyada bir çox başqa respublikalardan fərqli olaraq Azərbaycan dili haqqında maddə yazdıq və Azərbaycanın dövlət dilinin Azərbaycan dili olduğunu orada göstərdik". Həqiqətən də, Heydər Əliyev ana dilinin taleyinə Ana Vətənin taleyi kimi baxırdı.

Ulu öndərin heyrətamiz mənəvi irsində mətbuatın ayrıca bir yeri vardır. Onun 40 illik məruzə və çıxışlarında, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrində mətbuat haqqında olduqca yüksək fikirlər yer tutur. Heydər Əliyev dəfələrlə çıxışlarında qeyd etmişdir ki, mətbuat da ədəbiyyat kimi xalqımıza böyük faydalar gətirir və gətirməkdədir.

Heydər Əliyev, eyni zamanda, milli mətbuatımızın qarşısına xalqının zəkasını düşmənlərimizin uydurduğu təsəvvürlərin buxovundan xilas etməyi, ictimai həyatda onun mövqeyini təmin etməyi, vətəndaşlıq hüquqlarını başa salmağı başlıca məqsəd kimi qoymuşdu. Çünki maarifçiliyin əsasında milli şüurun dərki, tarixin tanınması, dini və milli dəyərlərin qorunması dururdu.

XX əsrin sonunda Azərbaycanda baş verən siyasi sarsıntılar, Azərbaycan ərazilərinin erməni vandalları tərəfindən işğalı, Azərbaycan xalqına qarşı soyqırımı siyasəti, Moskvadakı sovet rəhbərlərinin Azərbaycana qarşı haqsızlıqları, təbii ki, Azərbaycan ədəbiyyatının və mətbuatının da tənəzzülə uğraması ilə nəticələndi. Yazıçıların, şairlərin, jurnalistlərin sözünü eşidən olmadı, həqiqəti söyləyənləri susdurdular. Heydər Əliyevin Azərbaycana qayıdışı ilə hər şey kökündən dəyişdi. Azərbaycan ədəbiyyatında və mətbuatında yeniliklər yarandı, tərəqqinin hər tərəfdən öz qapılarını Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, eyni zamanda, mətbuatının üzünə açması ilə ədəbi mühit sələflərin yaratdığı ənənələrə böyük hörmət və qayğı ilə yanaşdı.

Uzun illər gələcəyə ümidlə baxan milli mətbuat nümayəndələrinin yazıları yeni məzmun kəsb edərək fikir, başlanğıc, mənəvi-əxlaqi mövqe (meyar, dəyərləndirmə) kimi dəyərləri sərgiləməyə müvəffəq oldu. Onlar artıq öz yaradıcılıqlarını əxlaq normaları üstündə kökləndilər və yaşadıqları dövr nə qədər təlatümlü, fırtınalı, qasırğalı, sarsıntılı olsa da, yaradıcılığının kökünü, qayəsini, mayəsini zəngin əxlaq təşkil etdi və bu genetik saflığın işığı ilə yazıb-yaratmağa başladılar.

Ölkəmizdə kütləvi informasiya vasitələrinin azad olması Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmişdir. Azərbaycan, hələ 1998-ci ildə, MDB məkanında birinci olaraq, senzuranı ləğv etmişdir. 2000-ci ildə Mətbuat Nazirliyinin ləğv olunması KİV-lərin fəaliyyətində söz azadlığının təmin edilməsinə yönəlmiş çox mühüm addım idi. 2001-ci ildə qəbul edilmiş, çox demokratik və Avropa standartlarına müvafiq olan "Kütləvi informasiya vasitələri haqqında" Qanun medianın fəaliyyəti üçün qanunverici baza oldu. 2005-ci ildə isə "İnformasiya azadlığı haqqında" qanun qəbul edildi.

Azərbaycanda plüralizmin bərqərar olmasına belə bir fakt da dəlalət edir ki, hazırda 30-dan çox gündəlik və yüzlərlə həftəlik qəzet nəşr edilir, respublika əhəmiyyətli 9 telekanal, 15-ə yaxın regional telekanal verilişlərini yayılır, internet azadlığı var. Bütün bunlar müstəqil mətbuat modelinin əsas elementləridir.

Bununla bərabər, qeyd etməliyəm ki, Azərbaycanda KİV ilə dövlətin münasibətləri sintezləşdirilmiş model əsasında qurulur. Bu model dünyada ümumi qəbul edilmiş "dövlət-mətbuat" qarşılıqlı münasibətlərinin bir neçə modelinin elementlərini özündə cəmləşdirir: mətbuatın sosial məsuliyyət modeli, əsasən milli dövlət qurmaqda olan gənc müstəqil ölkələrdə tətbiq edilən "inkişaf modeli" və s.

Sosial məsuliyyət modeli medianın cəmiyyət qarşısında müəyyən öhdəliklərini nəzərdə tutur: yüksək peşəkar standartlara uyğunluq, informativlik, düzgünlük, dəqiqlik, obyektivlik. Bu model iki prinsipi birləşdirir: medianın azadlığı və cəmiyyət qarşısında borcu. Bu, dövlət ilə mətbuat arasında müstəqil ictimai təsisatlar vasitəsilə tənzimlənir.

Azərbaycanda belə bir təsisat rolunda Mətbuat Şurası çıxış edir. Sosial məsuliyyət modelində KİV-lərə ictimai rəy, peşə etikası vasitəsilə nəzarət edilir. Bu baxımdan Azərbaycanda qəbul edilmiş Jurnalistin Etik Davranış Kodeksi mətbuat işçilərindən təkcə yüksək peşəkar vərdişlər deyil, həm də düzgünlük və qərəzsizlik tələb edir, KİV-lərin tənzimləyicisi rolunu oynayır.

Dövlətin medianın inkişafı sahəsində atdığı bütün addımlar gələcəyə istiqamətləndirilmişdir. 2008-ci ildə kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyasının qəbul edilməsi, Azərbaycan Respublikası Prezidenti yanında KİV-lərə Dövlət Dəstəyi Fondunun təsis edilməsi buna əyani sübutdur. Hər il qəzet və jurnal redaksiyalarının, informasiya agentliklərinin inkişafı üçün maliyyə vəsaiti ayrılır, KİV işçilərinin sosial rifahının yaxşılaşdırılmasına yönəlmiş tədbirlər görülür.

Mətbuat və söz azadlığını daim diqqət mərkəzində saxlayan Ulu Öndər jurnalistlərlə müntəzəm görüşlər keçirir, onların suallarını cavablandırır, təklif və müraciətlərinə həssaslıqla yanaşırdı. O, milli mətbuatımızın keçdiyi şərəfli və mübarizələrlə dolu tarixi inkişaf mərhələlərini öz dəyərli məruzə və çıxışlarında həmişə qürurla xatırlamışdır.

Ölkə mediası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə etdi. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da məhz Ulu öndərin Azərbaycan mətbuatı ilə bağlı qəbul etdiyi dövlət əhəmiyyətli sənədlərlə hüquqi qiymətini aldı.

1988-ci ildən ortaya atılan Qarabağ münaqişəsinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Keçirilən mitinqlərdə torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşun yeridildi, yüzlərlə dinc insan məhv və şikəst edildi, yaralandı, fiziki təzyiqlərə məruz qoyuldu.

Vətənimizin paytaxtında imperiyanın törətdiyi soyqırıma etiraz səsini ucaldaraq şovinist bir sistemin partiya biletindən imtina etməsi, mətbuat konfransı keçirərək Azərbaycanın haqq səsini dünyaya bəyan etməsi kimi faktlar Heydər Əliyevin yüksək vətənpərvərliyindən xəbər verməklə yanaşı, həm də ən çətin situasiyalarda mətbuata inamını ifadə edən mühüm fakt kimi diqqəti cəlb edir.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə bitdi. Tarixi torpaqlarımızın işğalı nəticəsində bir milyon soydaşımız qaçqına çevrildi, iyirmi faiz torpaqlarımız otuz il erməni vandallarının işğalı altında qaldı. Azərbaycan xalqının üzləşdiyi bu ağır və çətin situasiyada haqq səsimizi bütün dünyaya mətbuat vasitəsilə çatdıra bildik.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan milli mətbuatına, söz azadlığına verdiyi yüksək dəyər, milli mətbuat və söz azadlığı sahəsində müəyyənləşdirdiyi strategiya Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident jurnalistlərlə mütəmadi olaraq görüşür, onların problemlərinə diqqətlə yanaşır və mətbuatın inkişafı üçün konkret layihələrə dəstək verir. Azərbaycanda mətbuatın maddi-texniki bazasının gücləndirilməsi, yeni media institutlarının yaradılması bu siyasətin tərkib hissəsidir.

2021-ci ildə Medianın İnkişafı Agentliyinin yaradılması və jurnalistlərin peşəkarlığının artırılması istiqamətində atılan addımlar bu sahəyə göstərilən diqqətin əyani sübutudur. Bu, həm də Azərbaycanda demokratik cəmiyyətin daha da möhkəmləndirilməsi və söz azadlığının qorunmasının prioritet olduğunu göstərir.

***Vüqar ƏHMƏD,***
***AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor***

**(əvvəli 8-ci səhifədə)**

# Zamanın fövqündə dayanan lider

## Region və dünya geosiyasətinin dəyişməsinə təsir edən lider

Heydər Əliyev Cənubi Qafqazın və Orta Asiyanın geosiyasətini dəyişərək dünya siyasətinə təsir edən lider oldu. O, hakimiyyətə gələrkən böhran içərisində olan dövlətin xarici siyasəti xalqın və dövlətin qarşısında dayanan başlıca vəzifələri yerinə yetirə, dövlət quruculuğu üçün əlverişli beynəlxalq şəraiti təmin edə bilmir, problemlər yaradırdı. Azərbaycan xalqı və dövlətinin maraqlarına cavab verməyən xarici siyasət xəttindən qətiyyətlə imtina edən Heydər Əliyev milli maraqların qorunmasını nəzərdə tutan tarazlaşdırılmış xarici siyasət xəttini dövlətin beynəlxalq fəaliyyətinə gətirdi.

Qonşu dövlətlərlə münasibətlərin nizama salınması üzrə addımlar atıldı. İran və Rusiya ilə mehriban qonşuluq münasibətləri tədricən bərqərar edildi. Türkiyə və Gürcüstan ilə strateji müttəfiqlik xətti seçildi. Azərbaycanın mehriban qonşuları, ticarət ortaqları, starteji tərəfdaşları və müttəfiqləri müəyyənləşdirildi.

Azərbaycan dövləti neft strategiyasını reallaşdırdı. Bütün müqavimətləri dəf edən Azərbaycan xarici tərəfdaşlarla birlikdə çoxşaxəli neft və qaz kəmərlərini inşa etməyə başladı. Heydər Əliyev 1997-ci ilin iyul-avqustunda ABŞ-a rəsmi səfəri zamanı Prezident B.Klintonla görüşündə "mən tacir deyiləm, siyasətçiyəm, əsas ixrac neft boru kəməri Türkiyədən keçməlidir" deməklə və bu məqsədinə nail olmaqla bir sıra vacib məsələləri həll etdi. Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri Azərbaycanın müstəqilliyi kəməri oldu. Hər hansı bir dövlətdən asılılığa son qoyuldu. Rusiya–Ukrayna müharibəsinin davam etdiyi indiki şərait Heydər Əliyevin verdiyi qərarın düzgünlüyünü və zəkası ilə zamandan ucada dayandığını göstərir. Bir zamanlar təzyiq yolunu tutanlar indi Azərbaycana möhtacdırlar.

Heydər Əliyevin neft və nəqliyyat-kommunikasiya strategiyası Orta Asiyanın yeni müstəqil dövlətlərinin də dünyaya çıxışına kömək etməklə müstəqilliklərini möhkəmləndirdi. Azərbaycan, eyni zamanda, tranzit ölkəyə çevrildi. Tarixi İpək yolu bərpa edildi. Regionun geosiyasəti dəyişdi.

Əsas ixrac neft boru kəmərinin və digər layihələrin həyata keçirilməsi Türkiyənin gücünü artırdı, dünya siyasətində rolunu möhkəmləndirdi, bu gün neft və qaz paylaşdırıcı ölkə, G-20 cərgəsində olmasını şərtləndirən amillərdən oldu. "Soyuq müharibə başa çatdıqdan sonra NATO-da Türkiyəyə ehtiyac qalmır" deyən bəzi şəxslərin arzuları ürəklərində qaldı. Bununla Heydər Əliyev həm Türk dünyasının lideri, həm də zamanın fövqündə dayanan lider oldu.

## Arzuların gerçəkləşməsi

Heydər Əliyevin həyata keçirə bilmədiklərini Prezident İlham Əliyev məharətlə yerinə yetirdi. 2003-cü ildən sonrakı Azərbaycan tarixi qarşıda dayanan başlıca məqsədə nail olmaqdan – işğal altında olan torpaqları azad etməkdən ötrü müasirləşmə və güclü dövlətin qurulması ilə səciyyələnir. Məhz Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan müasirləşən bir ölkəyə çevrildi. Azərbaycanı satış bazarına çevirmək istəyən bəzi ölkələr özləri Azərbaycan məhsulları üçün satış bazarı oldular. Sovet dövrü başa çatdıqdan sonra yaranmış boşluqda Azərbaycan xalqının əməyi yadırğamasının qarşısı alındı. Ərazilərinin bir hissəsinin təcavüzkar Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasına baxmayaraq, Azərbaycan tərəqqi etdi, tikinti-quruculuq işləri genişləndirildi. Qaçqın və məcburi köçkünlərin problemlərini həll etməklə paralel olaraq ölkə tikinti quruculuq meydanına çevrildi.

İlham Əliyev Azərbaycan xalqının minilliklər qədim və zəngin dövlətçilik tarixində Qurucu Prezident adını qazandı. Azərbaycan borc alan ölkədən borc verən ölkəyə çevrildi, dünyanın enerji təhlükəsizliyində mühüm rol oynamağa başladı. Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri Avropanın enerji təhlükəsizliyi sistemində Azərbaycanı açar ölkəyə çevirdi. Avropa bu gün Azərbaycan qazına möhtacdır. Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin tikintisinin uğurla başa çatması, Şərq–Qərb, Şimal–Cənub marşrutları ilə Azərbaycan dünyanın nəqliyyat qovşağına çevrilib.

Başlıca məqsədə nail olmaqdan ötrü tariximizdə bir sıra ilklərə imza atan İlham Əliyev BMT Baş Məclisində çıxış edən Azərbaycan Respublikasının ilk baş naziri, ruhumuzun şəhəri olan Təbrizə səfər edən ilk dövlət rəhbəridir. İlham Əliyev Azərbaycanı BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçdirən, Təhlükəsizlik Şurasının iclasına sədrlik edən və ən vacib dünya məsələləri barədə nitq söyləyərək, bəşəri problemlərin həlli yollarını göstərən ölkə başçısıdır. İlham Əliyev başlıca məqsədə çatmaqdan ötrü "yumşaq güc"dən məharətlə istifadə edən, "Eurovision" mahnı yarışmasını, Avropa IV İslam həmrəyliyi oyunlarını ən mükəmməl şəkildə keçirərək Azərbaycan tarixini, maddi və mənəvi mədəniyyətini təbliğ etdirən, ölkə ərazisindən xarici hərbi bazanı və ya obyekti tamamilə çıxaran, kosmosa ilk peyki göndərərək Azərbaycanı Kosmos klubunun üzvü edən liderdir. İlham Əliyev ölkəmizi mədəniyyətlərarası, sivilizasiyalararası dialoq məkanına çevirən rəhbərdir.

Nəhayət, İlham Əliyev ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək 2020-ci ildə 44 günlük Vətən müharibəsində təcavüzkar Ermənistanı darmadağın edən, 2023-cü ildə lokal xarakterli antiterror tədbirlərində düşməni diz çökdürərək separatçılığa birdəfəlik son qoyan, dövlət suverenliyini tam bərqərar edən, Azərbaycan xalqının arzularını gerçəkləşdirən müzəffər Ali Baş Komandan, müharibə başa çatdıqdan sonra işğaldan azad edilmiş ərazilərdə nəhəng dirçəliş işlərini heç bir xarici yardım olmadan həyata keçirərək yeni Azərbaycan quran rəhbərdir.

## Alternativ varmı?

Anadan olmasının 102-ci ildönümündə bir daha soruşulur: əsasını Heydər Əliyevin qoyduğu yolun alternativi varmı? Heydər Əliyev yolundan kənara çıxmaq Azərbaycanı dağıtmaq, milli dövləti məhv etmək, ölkəni və xalqı parçalamaq, vətəndaş müharibəsinə sürükləmək, onu rəzil günə salmaqdır. Azərbaycan xalqı ona bədbəxtliklər gətirmiş 90-ci illərin əvvəllərinin təcrübəsini birdəfəlik tarixin zibilliyinə atıb.

Heydər Əliyevin əsasını qoyduğu siyasətin davam etdirilməsi Azərbaycan xalqının, qonşu dövlətlərin və bütün demokratik dünyanın maraqlarına uyğundur. Azərbaycan xalqının xəyallarını, arzularını həyata keçirən, onu qalib edən bu zəfər yolu daha böyük uğurlarla davam edəcəkdir...

# Zəhmət və halallığın böyük himayədarı

**Ulu öndərin diqqət və qayğısı ilə şöhrət zirvəsinə pərvazlanan sadə zəhmət adamları çox olub. Onlardan biri də bərdəli pambıq ustası – "Qırmızı Əmək Bayrağı", "Xalqlar Dostluğu" ordenli, 23 yaşından başlayaraq 10 il keçmiş SSRİ-nin ən gənc deputatı, müstəqil Azərbaycanın 1-ci çağırış Milli Məclisinin üzvü olmuş Prezidentin fərdi təqaüdçüsü Tərlan Musayevadır.**

Bu il 70 yaşı tamam olan əmək qəhrəmanının yubileyini daha da əlamətdar edən məqam onun ulu öndər Heydər Əliyevlə bağlı xatirə-memuar janrında yazılmış "Ulu Öndərə mənəvi borcum" kitabının və öz bioqrafiyasına işıq tutan "Ulu öndərin "canlı əsəri" Tərlan" adlı bədii publisistika nümunəsinin çap olunaraq geniş ictimaiyyətə təqdim edilməsidir.

Redaksiyamızın qonağı olan Tərlan xanım həmin kitablarını baş redaktor Əflatun Amaşova bağışladı və bu nəşrlərin unudulmaz dahi şəxsiyyətin anadan olmasının 102-ci ildönümündə, həmçinin "Konstitusiya və Suverenlik İli" çərçivəsində oxuculara töhfəsi olduğunu bildirdi.

İlk növbədə nəfis tərtibatı ilə diqqət çəkən "Ulu öndərə mənəvi borcum" kitabı "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin dəstəyi ilə nəşr edilib. Memuarların redaktoru araşdırmaçı yazar Vaqif Osmanlı, məsləhətçisi birliyin sədri, "Kəlağayı" ev muzeyinin direktoru, şair-publisist Güllü Eldar Tomarlıdır. Bütövlükdə bu kitab Tərlan xanımın dahi liderin qayğısı ilə nurlanmış 70 illik zəngin və mənalı ömrünə özünün bir baxış prizmasıdır.

Son günlərdə xatirə kitabının Bakının Yasamal rayonunda, Naxçıvan və Culfada geniş təqdimatları olub. Müəllif bununla bağlı təəssüratlarını dilə gətirərək dedi ki, maraqla qarşılanan nəşrdə onun həyatının Heydər Əliyevlə bağlı mühüm dönəmlərini həzin xatirələr işığında oxucularına çatdırıb. Bu kitab həm də Azərbaycan tarixinin son yarım əsrlik dövrünün ictimai-siyasi hadisələri, Tərlan Musayevanın Ümummilli liderlə müxtəlif illərdə görüşlərindən doğan təəssüratları, Ulu öndərin ona göstərdiyi böyük atalıq qayğısı, ona güvənməsi, özünün isə etimadı doğrultmaq üçün göstərdiyi fədakar səyləri barədə maraqlı və yaddaqalan hekayətdir. Onun haqqında yazılmış "Ulu öndərin "canlı əsəri" Tərlan" kitabı isə, adından da göründüyü kimi, Tərlan xanımın özünün ömür yolunun vərəqləndiyi bir nəşrdir və sadə zəhmət adamı onu şöhrət zirvəsinə qaldırmış Heydər Əliyevi sonsuz qədirbilənliklə yad edib. Bu kitab qəhrəmanın parlaq tərcümeyi-halı üzərində ədəbi təhlilçi, Vaqif Osmanlının publisistik düşüncələrinin toplusudur.

Görüşümüz zamanı orta məktəbi əla qiymətlərlə bitirsə də, zəhmət meydanında çalışmağa üstünlük verib şan-şöhrət qazanmış Tərlan xanımın çox gənc yaşlarından tanınmasında Ümummilli liderin böyük rolu dəfələrlə vurğulandı. O, dünya siyasətində silinməz izləri olan əbədiyaşar liderin anadan olmasının 102-ci ildönümündə könül duyğularını dilə gətirdi:

– Ulu öndər Heydər Əliyev məndən mənəvi ata qayğısını əsirgəməyib və uğurlarıma hər zaman xüsusi diqqət və qayğı göstərib, böyük həssaslıqla yanaşıb. Həyatda qazandığım nə varsa, hamısına görə özümü Ümummilli liderin ruhuna hər zaman borclu bilirəm. Xatirə kitabımda bütün bunları bacardığım qədər ifadə etməyə çalışmışam. Uzaqgörən və müdrik siyasəti ilə Azərbaycan dövlətçiliyinin tarixində əbədilik qazanmış Heydər Əliyevin mənalı həyat yolunun, zəngin və çoxşaxəli irsinin Azərbaycan xalqı üçün tükənməz bir miras olduğunu vurğulamışam.

## Kitabdan sətirlər...

**"Heydər Əliyevlə bağlı qürurverici, qiymətli, unudulmaz, son dərəcə kövrək xatirələrim var. Dahi şəxsiyyətin sağlığında xatirələrimi yazmaq məqsədilə ilk qeydlərimi etməyə başlayanda, hadisələri zaman axarıyla sıralayanda bir az tərəddüd etdim. Ona sonsuz ehtiramımın, məsuliyyət hissimin böyüklüyü həmin xatirələri Ulu öndərin sağlığında yazmağa imkan vermədi, indi düşünürəm ki, bəlkə də cəsarətim çatmadı. Əlbəttə, Ulu öndər mənim üçün həmişə sağdır, yaşayır, əbədi yaşayacaq, unudlumazdır, indi də işıqlı xatirələri ilə yolumun yönünü istiqamətləndirir. Çətinə düşəndə, məsləhətə, öyüd-nəsihətə ehtiyacım olanda birinci üz tutduğum yer Ulu öndərlə görüşlərimdən yaranan unudulmaz xatirələrimdir. Bütün bunlar sənədli film kimi gözümün qarşısından keçir, onun insanlığına, mərhəmətinə sığınıb təsəlli tapıram. Bax, bu təsəlli, qayğı məni yoluma davam etməyə, ölməz şəxsiyyət haqqında xatirələrimi qələmə almağa vadar etdi, həvəslə işə başladım. Bu kitabı mənim əməyimə dəyər verən, ucaldan, mənəvi atalıq missiyasını ömrünün sonuna kimi təmənnasız yerinə yetirən böyük insana mənəvi övladının birinci dərəcəli mənəvi borcunun bir hissəsi hesab edirəm".**



Tərlan Musayeva Ulu öndərlə ilk görüşlərini bugünkü kimi, ən xırda detallarına qədər xatırlayır:

– Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi ilk dönəmdə 14 dəfə mənim yaşadığım, əmək fəaliyyəti göstərdiyim, respublikamızın ən nəhəng kənd təsərrüfatı rayonlarından biri, "aranın anası", Nüşabə yurdu Bərdəyə səfər edib. Bu səfərlərin 12-də mən Ulu öndərlə görüşmüşəm. Elə səfərlər olub ki, protokola salınmasa da, mənimlə görüşmək üçün bizim kolxozun "ağ qızıl" tarlalarına gəlib.

Taleyimə minnətdaram ki, Heydər Əliyev kimi qədirbilən bir insanın diqqətini cəlb etmişəm. Mənim çağırışımla 400-ə qədər gənc, necə deyərlər, bir "ordu" arxamca gələrək sürücü-mexanik sənətini seçmişdi. 20 ilimi bu "kişi sənəti"nə həsr etməyimə qətiyyən peşman olmamışam... Bir gün məlumat verildi ki, Heydər Əliyev bizim sahəyə gəlir. Respublika rəhbəri ilə ilk dəfə görüşəcəyim üçün çox həyəcanlı idim. 21 yaşında, sakit təbiətli, böyüklər nəsə soruşanda yanaqları allanan bir kənd qızıydım. Maşın karvanı tarlanın kənarında dayandı, qonaqlar görüşmək üçün bizə tərəf addımladılar. İlk dəfə idi canlı görürdüm. Qabaqda Heydər Əliyev gəlirdi. Ürəyim elə döyünürdü ki, elə bil sinəmdən çıxmaq istəyirdi. Kolxozun sədri bizi bir-bir təqdim etdi. Heydər Əliyev hamımızla əl tutub görüşdü, hal-əhval tutdu. Onun üzündə xoş, qarşısındakı insanı ümidləndirən, cəsarətləndirən doğma təbəssüm vardı. Bu təbəssümün istiliyini ilk baxışdan hiss etdim. Ulu öndər əlini çiynimə qoydu, – Hə, maşınları işə salın, görək, – dedi. Eyni anda sürücü-mexanik yoldaşlarım bir-birinin üzünə baxdılar. Heydər Əliyev bizim duruxduğumuzu görüb soruşdu:

– Niyə başlamırsınız? Mən maşınla pambıq yığımını izləmək istəyirəm.

Bizdən yaşına görə böyük və səriştəli olan Soltan adlı mexanizator:

– Yoldaş Heydər Əliyev, belə hava şəraiti yığıma münasib deyil, – dedi.

Mənə tərəf dönüb "Bəs sən nə düşünürsən?" soruşanda ani fikirləşdim ki, uzunluğu 1 kilometrdən çox olan pambıq sahəsini o başa gedib gələnə kimi Heydər Əliyev bizi gözləməz, çıxıb gedər. Ona görə də mənə bir cəsarət gəldi.

– Yığmaq olar, mən yığıma başlayıram, – deyib tez sükan arxasına keçdim. Kombaynı işı salıb sahəyə girdim. Digər iş yoldaşlarım da həvəslənib kombaynlarını işə saldılar. Allaha yalvarırdım ki, kombayn sahədə batıb qalmasın, həm də nəmli pambıq maşında "dolama" yaratmasın. Gördüm ki, Heydər Əliyev və qonaqlar yığılan sahəyə baxa-baxa arxamca gəlirlər. Həyəcanlı idim. Maşından düşüb arxadakı pambıq kollarına baxdım. Sahə tərtəmiz yığılmışdı. Bunkeri doldurdum. Həmkarlarımın maşınları tarlanın ortasında batıb qalmışdı.Heydər Əliyev hamısının yaxın gəlməsini tapşırdı. O, üzünü sahədə batıb qalmış maşınlara tərəf çevirib nəsə düşünürdü. Sonra heç nə olmamış kimi, məni yanına çağırıb ata məhəbbəti ilə alnımdan öpərək mehribanlıqla söhbətə başladı:

– Sağ ol, qızım, sahənin pambığını çox təmiz yığdın, bir qozada da pambıq lifi qalmadı, – deyib əlimi sıxdı.

Sonra üzünü o biri sürücü-mexaniklərə tutdu:

– Niyə siz yarı yolda qaldınız, sahənin başına gəlib çata bilmədiniz? Həm də sizin yığdığınız cərgələr Tərlanın yığdığı cərgələrdən çox fərqlənir. Sizin cərgələrdəki qozalarda pambıq qalıb. Niyə belə oldu?

İş yoldaşlarımdan biri cavab verdi:

– Bəli, yoldaş Əliyev, pambıq nəm olanda maşın yaxşı yığmır, bunu açıq şəkildə sizə deməyə utandıq.

Ulu öndər soruşdu ki, bəs Tərlanın maşını niyə təmiz yığdı, həm də gəlib sahənin başına çatdı?

İş yoldaşım özünəməxsus mərdliklə: "Yoldaş Əliyev, o, Tərlandı, çox bacarıqlı, cəsarətli qızdı, – dedi. – Tərlan qız olsa da, maşına bizdən yaxşı qulluq edib, odur ki, "dolama" olmadı".

Respublika rəhbəri əlini əlinə vurub, Soltanın sözlərinə ürəkdən güldü:

– Deməк, boynunuza alırsınız ki, Tərlan həm siz kişilərdən qoçaq, cəsarətli, həm də bacarıqlıdır, eləmi?

Həmkarlarım onun dediklərini təsdiqlədilər. Heydər Əliyev əlini çiynimə qoyub, bu səhnəni izləyən insanlara məni göstərərək dedi ki, baxın, bu qız sizin və bizim "canlı" əsərimizdir.

Beləcə, onunla ilk görüşüm mənim həyatımda uğurlarıma bir tramplin oldu. Onu da deyim ki, dahi rəhbər hər bir tanınmış bərdəli əmək adamının adını əzbər bilirdi. Fenomenal yaddaşı vardı, bir dəfə görüşdüyü əmək adamını yaddan çıxarmazdı.

Tərlan xanımın yazdığına görə, sonrakı illərdə Heydər Əliyev nə vaxt Bərdəyə gəlirdisə, mütləq onların sahələrinə baş çəkirdi, problemlərlə maraqlanırdı. Bərdədə neçə-neçə sosial obyekti onların xahişi ilə inşa etdirmişdi. Bir görüşdə Tərlan xanım bildirib ki, kənddə feldşer-mama məntəqəsinə ehtiyac var. Onda Ulu öndər yanında dayanmış Nazirlər Sovetinin işçisinə tərəf dönərək deyib: "Yaz ora, Tərlan xanım deyirsə, biz onu eləməliyik".

Bir dəfə də Tərlan Musayeva deputat olanda raykomun 1-ci katibi Rüstəm Səfərəliyev onu çağıraraq deyib: "Rayonumuza bir pambıqtəmizləmə zavodu bəs etmir, ikincisi tikilməlidir. Amma artıq Nazirlər Soveti plan tutub, bunu oraya daxil etməyib. Bəlkə sən desən, Heydər Əliyev qəbul edər". Ümummilli lider Bərdədə olanda Tərlan xanım çıxışında bu məsələni deyib və rəhbər göstəriş verib ki, plana salınsın. Tarla qəhrəmanı nə qədər yaşayış evi, poçt, aptek, xəstəxana tikilməsinə kömək edib...

**– Sizin 10 il dalbadal Sevil Qazıyeva adına mükafatın, həmçinin Paşa Angelina, Tursunoy Axunova mükafatlarının qalibi kimi şəninə mahnılar, poemalar, şeirlər yazılan tanınmış mexanizator kimi sənətçilərlə unudulmaz görüşləriniz də olub...**

– Elədir. Ulu öndər rayonlara səfərlərə çıxarkən, camaatla görüşərkən yaradıcı insanlar – şair, yazıçı, bəstəkar və rəssamlar onu müşayiət edirdilər. Şairlərimizdən Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Davud Nəsib, yazıçılar Bayram Bayramov, İmran Qasımov, rəssam Tahir Salahov və bir çox məşhurları mən Heydər Əliyevin Bərdəyə səfərləri zamanı iş başında tanımışam, yaxından görmüşəm, görüşüb söhbət etmişəm. Belə görüşlərin birində Nəriman Həsənzadə "Tərlan bacım" şeirini yazdı. Heydər Əliyevin mənə bir dəfə "Maral" kimi müraciət etməsini şair o şeirində bədii dillə qələmə aldı. Dahi rəhbərin təklifi ilə bu şeirə görkəmli bəstəkarımız Emin Sabitoğlu o vaxt dillərdən düşməyən, indi də oxunan məşhur mahnını bəstələdi, Xalq artisti Yalçın Rzazadə möhtəşəm ifa etdi.

*"Maral" dedi bir qardaşın sənə, Tərlan,*
*Maral kimi boylandın sən*
*cərgələrin arasından.*
*Başında bir mavi örpək, sinəndə*
*bir duyan ürək,*
*Uca, zərif, gözəl, göyçək*
*ellər qızı, ellər qızı –*
*Tərlan bacım, çöllər qızı...*

## Kitabdan sətirlər...

**"Bunun maraqlı tarixi var. Heydər Əliyev cənablarlı Bərdəyə, bizim "Kommunizm" kolxozuna gəlmişdi. Mövsümün qızğın vaxtıydı. Havada bəlkə 40 dərəcədən çox istilik vardı. Bakıdan gələn qonaqlar dözməyib sahənin kənarındakı çinarların kölgəsinə çəkilmişdilər. Amma Heydər Əliyev qızmar Günəş şüalarının istisinə fikir vermədən tarlanın kənarında durub gözləyirdi. Tər-qan və kirpiklərimə kimi toz içində maşından düşəndə möhtərəm Heydər Əliyev mənə "Maral qızım" deyə müraciət etdi. Tarladakılar mənim adımın Maral yox, Tərlan olduğunu bildirdilər. Heydər Əliyev cənabları özünəməxsus təmkinlə: – Nə fərqi var? Maral sürətlə qaçır, tərlan isə şığıyır. Hər ikisi ürəkaçandır, – dedi. Bundan sonra mənə "Bərdənin maralı" deyənlərin sayı çoxaldı. Nəriman Həsənzadə də şeirində belə yazdı..."**

Tərlan Musayeva Ulu öndərin necə həssas, diqqətcil olmasından danışmaqla doymur. Unudulmaz anları sevə-sevə xatırlayır.

– Sizə bir epizod da danışım. 22 yaşımda Heydər Əliyevin məsləhəti ilə SSRİ Ali Sovetinə deputatlığa namizədliyim verilmişdi. Ən gənc deputat idim. Brejnev Azərbaycana gəlmişdi, Heydər Əliyev hər sahə üzrə adamları ona təqdim edirdi. Mən təzə deputat seçilmişdim. Gənc, arıq, qara və çəlimsiz qız idim. Deputat nişanım da yaxamda idi. Brejnev mənimlə görüşəndə dedi ki, "Vao, deyəsən, bu bizim deputatımızdır. Heç deputata oxşamır. Bu balacadır, cırtdandır". Heydər Əliyev dedi ki, "yoldaş Brejnev, onun balaca olmağına baxmayın, gördüyü işlər çox nəhəngdir". Sanki o mənim bütün həyatımı öyrənmişdi.

**Söhbətimizin yekunda isə Tərlan xanım belə dedi:**

– Heydər Əliyev belə rəhbər, çox diqqətli insan idi. Xalqımızın zirək övladlarını çox sevirdi. Onların, xüsusilə də qızların, qadınların gözəl, yaraşıqlı, zövqlü, intellektual səviyyəli olmasını, başqa millətlərin nümayəndələrindən daha səviyyəli görünməsini istəyirdi. Bu, ona xas xarakter kimi heç vaxt yadımdan çıxmır. Bu barədə bilgiləndirdiyim bir rəfiqəm mənə duyğulu şəkildə bayatı ilə belə cavab vermişdi:

**Əzizim, mərd işidir,**
**İgidlik mərd işidir.**
**Yaşamağa nə var ki,**
**Yaşatmaq mərd işidir.**

Onunla ata-bala, adi adam kimi etdiyim söhbətləri ömrüm boyu unutmaram. Moskvada Ali Sovetin sessiyalarında kreslolarımız yanaşı idi. Vəzifələrdən istefa vermiş Heydər Əliyev haqsızlıqlara sinə gərir, ruhdan düşmür, vüqar və əzəmətini azaltmırdı. Həmişə mənimlə respublika barədə söhbət edir, yarımçıq qoyub gəldiyi tikintilərlə maraqlanırdı. Xeyli müddət keçsə də, hamı, hər şey yadında idi.

Bir dəfə öz həyatından danışdı. Ömürgün yoldaşını itirməsi onu sarsıtmışdı. Və mən ilk dəfə o böyük insanın səsində titrəyiş duyurdum: "Zərifənin ölümü mənə ağır zərbə oldu. O mənim həm də köməkçim, həkimim, mənəvi dayağım idi"...

İndi də Ulu öndərlə bağlı görüşlərdə, yığıncaqlarda çox oluram. Heydər Əliyevi xalq təbliğ edir, tükənməz sevgisini bildirir. Mən də fəxr edirəm və nə qədər ömrüm var, fəxr edəcəyəm ki, dünya arenasında tanınan, nüfuz qazanan, siyasi çəkisinə görə sözü keçən Azərbaycan Respublikasının Heydər Əliyev kimi unudulmaz rəhbəri olub. O, xalqımızın ömrünə doğan Günəş idi.

Ulu öndər Azərbaycanda 2-ci dəfə hakimiyyətə gələndən sonra yenə də Tərlan Musayevadan qayğısını əsirgəməyib. Onun məsləhəti ilə tanınmış əmək qəhrəmanı müstəqil Azərbaycanın 1-ci çağırış Milli Məclisinin deputatlığına namizədliyini verib və layiq olduğu mandatı qazanıb.

*Hazırladı:*
***Əli NƏCƏFXANLI***
***XQ***

# Ümumxalq bayramına çevrilən 10 may günü

**Ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü Azərbaycanımızın paytaxtında olduğu kimi, bölgələrimizdə də böyük sevgi və məhəbbətlə qeyd olunur. Xalqımız dahi siyasətçiyə olan dərin hörmət və ehtiramını tarix durduqca yaşadacaq. Bu, bir reallıqdır ki, Ümummilli liderin titanik səyləri ilə ölkəmizin yüksək inkişaf və tərəqqisinin möhkəm bünövrəsi qoyulub. Bu gün isə Azərbaycan xalqı Prezident İlham Əliyevin müdrik liderliyi ilə öz tarixinin ən xoşbəxt dövrünü yaşayır. Bunu Ulu öndərin növbəti ad günü lilə bağlı bölgələrdə keçirilən rəngarəng tədbirlər bir daha sübut edir. Onlardan bir neçəsi barədə xəbərləri oxuculara təqdim edirik.**





## Tərtər

Tərtərdə "Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanın Konstitusiyasının müəllifidir" mövzusunda elmi-praktik konfrans keçirilib.

Tərtər Rayon İcra Hakimiyyətinin, YAP rayon təşkilatının və Tərtər-Ağdərə rayonları üzrə Təhsil sektorunun birgə təşkilatçılığı ilə keçirilən konfransın iştirakçıları əvvəlcə Ulu öndərin abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüblər. Sonra rayon mədəniyyət evinin foyesində Ümummilli liderə həsr olunmuş foto və kitab sərgisinə baxış olub.

Konfransda çıxış edən Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, YAP rayon təşkilatının sədri Eldar Əsədov, rayon prokuroru Əli Qurbanov, rayon Ağsaqqallar Şurasının sədri Faiq Məmmədov və başqaları ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətindən, dahi rəhbərin fədakar əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi sayəsində müasir Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarının yaradılmasından, respublikamızın dünya məkanında öz layiqli yerini tutmasından, Azərbaycan Respublikasının Konstitusiyasının yaranmasından və bu istiqamətdə Ümummilli liderin tarixi xidmətlərindən bəhs ediblər.

## Qazax

Qazax Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası (YAP) Qazax rayon təşkilatı və Qazax Rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilmiş "ümummilli lider Heydər Əliyev müstəqil, suveren, demokratik, hüquqi dövlətin Azərbaycan modelinin müəllifidir" adlı elmi-praktik konfrans keçirilib.

Tədbirdə çıxış edənlər bildiriblər ki, Heydər Əliyev Azərbaycan dövlətçiliyinin dünəni, bugünü və sabahıdır. Heydər Əliyev zamanında dünyada sülhün carçısı imicini qazanmış, əmin-amanlığın qarantına çevrilmiş dahi bir şəxsiyyətdir. Tarix ümummilli lider Heydər Əliyevi XXI əsrin əvvəlində tərəqqi edən Azərbaycanın təməlini qoymuş şəxs kimi yaddaşında əbədi yaşadacaq. Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilən müdrik və uzaqgörən siyasət nəticəsində müasir müstəqil Azərbaycan dövləti möhkəmləndi. Dövlətimiz dahi liderinin rəhbərliyi altında tamamilə yeni inkişaf mərhələsinə qədəm qoydu.

## Ağdaş

Ağdaşda ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə ədəbi-bədii tədbir keçirilib. Ağdaş Rayon İcra Hakimiyyətinin dəstəyi və Mərkəzi Aran Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə baş tutan "Səssiz xatirələr" adlı bədii-poetik kompozisiya rayon sakinlərinə təqdim edilib.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ardınca dahi siyasətçi Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Gecənin bədii hissəsində Ulu öndərin zəngin və mənalı həyat yolunu, Azərbaycanın müstəqil dövlət kimi formalaşmasında, dövlətçiliyimizin möhkəmləndirilməsində, xalqımızın rifahı və müasir Azərbaycanın qurulmasında göstərdiyi misilsiz xidmətlərini əks etdirən sənədli film nümayiş olunub. Filmdə Heydər Əliyevin xalqına bağlılığı, uzaqgörən siyasəti və quruculuq fəaliyyəti geniş işıqlandırılıb.

## Şamaxı

Şamaxıda ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş toplantı keçirilib. Şamaxı Mədəniyyət Mərkəzində keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş "Əbədiyyətin ilk əsri" adlı film nümayiş etdirilib.

Tədbirdə çıxış edən Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov ümummilli lider Heydər Əliyevin ölkənin ictimai-siyasi və iqtisadi həyatında açdığı yeni mərhələdən danışıb, onun siyasi kursunun bu gün də uğurla davam etdirildiyini vurğulayıb.

Milli Məclisin deputatı Tamam Cəfərova çıxışında dahi rəhbər Heydər Əliyevin dövlətçilik ənənələrinin əhəmiyyətindən, xüsusən bölgələrin sosial-iqtisadi inkişafında oynadığı roldan bəhs edib.

Mərasim iştirakçıları dahi rəhbərin parlaq ideyalarının bu gün də dövlətimizin inkişafına yol göstərdiyini, Azərbaycan xalqının Ulu öndərin əziz xatirəsini daim uca tutduğunu bildiriblər.

## Xocalı

Xocalı şəhərində Qarabağ Regional Təhsil İdarəsinin və Qarabağ Universitetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 102 illiyinə həsr edilmiş "Ümummilli Lider: Konstitusiyamızın müəllifi, suverenliyimizin banisi" mövzusunda mərasim keçirilib.

Xocalı şəhər 1 nömrəli tam orta məktəbdə baş tutan tədbirdə çıxış edən Qarabağ Universitetinin rektoru Şahin Bayramov ümummilli lider Heydər Əliyevin təhsil sahəsində həyata keçirdiyi mühüm islahatlara diqqət çəkib.

Qarabağ Regional Təhsil İdarəsinin təşkilat sektorunun müdiri Dəyanət Fərzəliyev və digər natiqlər çıxışlarında Ulu öndərin təhsil sahəsində müəyyənləşdirdiyi strateji hədəflərin bu gün də davam etdirildiyini vurğulayıb.

Çıxışlardan sonra "Tarixə çevrilən ömür" adlı videoçarx nümayiş olunub. Tədbirin bədii hissəsində tələbələr və şagirdlər Ulu öndərə həsr olunmuş şeir və musiqi nömrələri təqdim ediblər.

*Hazırladı:*
***Məsaim ABDULLAYEV***
***XQ***

# Revanşist ritorikanın iflası və tarixi həqiqətlər

## *Yaxud cinayətin qəhrəmanlıq kimi təqdim olunması*

**Bir neçə aydan sonra İkinci Qarabağ müharibəsinin beşinci ildönümü tamam olacaq. Bu müharibə və 2023-cü ildəki antiterror əməliyyatı Azərbaycan torpaqlarının işğaldan tam azad olunması, dövlət suverenliyinin bərpası, həmçinin erməni separatizminin və faşizminin darmadağın edilməsi ilə başa çatdı.**

Ancaq görünən odur ki, faşizm ünsürləri Hayastanda yenidən baş qaldırmaqdadırlar. Xəstə təxəyyülə malik bu qüvvələr hələ də Qarabağın qaytarılacağı düşüncəsi ilə yaşayırlar. Demək olar ki, hər gün bu istiqamətdə şifahi açıqlamalara və yazılı bəyanatlara şahidlik etmək mümkündür. Bu isə hiddət doğurur və Azərbaycanın Ermənistan konstitusiyasına dəyişiklik edilməsi ilə bağlı tələbinin nə qədər haqlı olduğunu bir daha sübuta yetirir.

Bugünlərdə Ermənistanın təbliğat dairələrinin təsiri altında fəaliyyət göstərən "Artsaxın qorunması komitəsi" adlı qondarma təşkilat yenidən "bəyanat diplomatiyası"nı işə salaraq, 1992-ci il mayın 8-9-da Şuşanın işğalını "erməni xalqının müasir tarixinin ən şanlı səhifələrindən biri" kimi təqdim etməyə çalışıb. Bildirilib ki, həmin gün öz əlçatmazlığı və simvolik əhəmiyyəti ilə əfsanəyə çevrilən, "Artsax"ın qəlbi və ruhu olan Şuşa işğal edilib. Təbii ki, komitə öz bəyanatında "işğal" deyil, şəhərin "azad olunması" (?) sözünü işlədib: "Ancaq bu gün, 30 ildən çox vaxt keçəndən sonra biz ağrılı şəkildə qeyd edirik ki, Şuşa daha bizə aid deyil. Biz təkcə bir şəhəri yox, həm də milli ləyaqət, döyüş hazırlığı, qələbə simvolunu itirdik. Şuşanın itirilməsi təkcə kədər deyil, həm də məsuliyyət yaradır".

Bəyanat daha sonra revanşist fikirlərlə davam etdirilib. Qeyd edilib ki, erməni xalqı "Artsax uğrunda daimi mübarizə aparmağa borcludur". Əsası 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulmuş, hər tərəfdən sıldırım qayalar və təbii landşaftla mühafizə olunan Şuşa həyasızcasına "Biz bəyan edirik ki, Şuşa ermənilərin olub, var və olacaq. Ədalət bərpa olunana, "Artsax xalqı"nın təhlükəsiz və suveren gələcəyi olana qədər biz susmayacağıq. Bizim mübarizəmiz davam edir".

Bəyanatda Ermənistanın bütün siyasi qüvvələrindən, dövlət və diaspor strukturlarından öz yanaşmalarına yenidən baxmaları və "Şuşanın və Artsaxın tam qaytarılmasına yönəlmiş milli maraqlara" əsaslanan aydın mövqe tutmaları tələb olunub.

Qeyd etmək lazımdır ki, bu tip "təşkilatlar" Ermənistan və erməni diasporu tərəfindən tez-tez informasiya müharibəsi vasitəsi kimi istifadə olunur. "Artsaxın qorunması komitəsi" kimi qurumlar hüquqi və beynəlxalq legitimliyi olmayan, əsasən təbliğat məqsədi daşıyan strukturlardır. Onların yayımladığı bəyanatlar reallıqdan uzaq, birtərəfli və tarixə saxta yanaşma ilə seçilirlər. Konkret olaraq, bu bəyanatın məzmunu və ritorikası açıq şəkildə revanşist, təxribat xarakterli və beynəlxalq hüquqa zidd bir mövqeyi əks etdirir. "Artsaxın qorunması komitəsi"nin bu cür açıqlamaları, əslində, Ermənistan cəmiyyətində və xüsusilə də diaspor mühitində revanşizmi alovlandırmaq, sülh prosesini pozmaq və ictimai rəyə təsir göstərmək məqsədi daşıyır.

Bəyanatda Şuşanın işğalına "şanlı səhifə" deyilməsi, yəni Azərbaycanın tarixi şəhərinin qanlı hərbi əməliyyatla zəbt olunmasının qəhrəmanlıq kimi təqdim edilməsi beynəlxalq hüququ, xüsusilə də BMT-nin dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığına dair prinsiplərini açıq şəkildə inkar etməkdir. Çünki Şuşanın 1992-ci ildə işğalı Azərbaycanın suveren ərazisinin zorla zəbt olunması faktıdır və bu, beynəlxalq hüquq normalarına ziddir. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri də işğalı təsdiqləyir və erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Bu faktlara baxmayaraq, "Artsaxın qorunması komitəsi" kimi qurumlar bu cinayətləri "müdafiə" adı altında pərdələməyə çalışırlar. Bu, bir daha sübut edir ki, Ermənistanda bəzi dairələr hələ də tarixə və reallığa saxta prizmalardan yanaşır, süquta uğramış işğalçı siyasətin külündən revanşist arzular doğurmağa çalışırlar. Məqsəd erməni cəmiyyətində revanşist əhval-ruhiyyəni diri saxlamaq, beynəlxalq ictimai rəydə çaşqınlıq yaratmaqdır.

Həmçinin qeyd edilir ki, "əlçatmaz və simvolik əhəmiyyət daşıyan" Şuşa 1992-ci ilin mayında, guya, "azad olunub" və bu hadisə "erməni xalqının milli ləyaqətinin, döyüş qabiliyyətinin simvoluna" çevrilib. Əslində isə həmin tarixdə Azərbaycanın qədim şəhəri Şuşa beynəlxalq hüququn pozulması, etnik təmizləmə və hərbi cinayətlərin müşayiəti ilə işğal edilib. 33 il bundan öncə Ermənistan silahlı qüvvələrinin Şuşaya hücumu nəticəsində yüzlərlə dinc sakin qətlə yetirilib, şəhər talan edilib, əhalisi kütləvi şəkildə didərgin salınıb. Belə bir tarixi reallığın fonunda qondarma komitənin "Şuşa azad olunub" ifadəsi, əslində, cinayəti qəhrəmanlıq kimi təqdim etmək cəhdidir. Bu yanaşma təkcə təhrif deyil, həm də yeni qarşıdurmalara zəmin yaratmağa yönəlmiş siyasi təxribatdır.

Şuşa yalnız Azərbaycanın mədəni paytaxtı deyil, eyni zamanda, ərazi bütövlüyünün və dövlət suverenliyinin rəmzidir. Şuşa tarixən azərbaycanlıların məskunlaşdığı, zəngin mədəniyyətin inkişaf etdiyi bir mərkəz olub. XIX əsrdən başlayaraq çar Rusiyası tərəfindən aparılan məskunlaşdırma siyasəti nəticəsində bölgəyə ermənilər köçürülsə də, şəhərin milli kimliyi dəyişməyib.



Komitənin bəyanatında yer alan "Şuşa ermənilərin olub, var və olacaq" ifadəsi, "mübarizə davam edir" çağırışı və Ermənistanın siyasi qüvvələrinə yönəlmiş təzyiq elementləri açıq şəkildə revanşizmə xidmət edir. Eyni zamanda, siyasi qüvvələrə çağırışlar Ermənistanın daxilində və diasporunda yeni hərbi-siyasi strategiyalara keçid üçün zəmin yaratmaq məqsədi güdür. Əslində isə bu tip ritorika Ermənistan cəmiyyətini sülhə deyil, yeni qarşıdurmalara sürükləyir. Halbuki 2020-ci ildə Azərbaycanın apardığı 44 günlük Vətən müharibəsi beynəlxalq hüququn və tarixi ədalətin bərpası ilə nəticələndi. Şuşanın azad olunması yalnız bir şəhərin qaytarılması deyil, həm də xalqımızın milli heysiyyatının, tarixi hüququnun və dövlət iradəsinin təntənəsidir.

Qondarma təşkilatın bu bəyanatı Ermənistan cəmiyyətində parçalanmış ictimai fikri yönləndirmək, diaspor və siyasi dairələri ortaq revanşist mövqeyə toplamaq məqsədi güdür. Ermənistan siyasi qüvvələrini və diasporunu "bir mövqeyə" çağırmaq daxili siyasətdə populizmin gücləndirilməsi cəhdi hesab oluna bilər. Bu isə bir dövlətin gələcəyini təhlükə altına qoyan, regionda davamlı sülh və əməkdaşlıq perspektivlərini çətinləşdirən, eyni gərginlik riski yaradan mövqe kimi qiymətləndirilməlidir.

Reallıq ondan ibarətdir ki, bu gün Şuşa azaddır. Azərbaycan dövlətinin suverenliyi bu şəhərdə tam təmin olunub. Tarix yenidən yazılmadı, sadəcə, doğru olan bərpa edildi. İndi Şuşa təkcə Azərbaycan xalqı üçün deyil, bütün region üçün sülh, mədəniyyət və sabitlik simvoludur.

*

Yeri gəlmişkən, 1992-ci ildən 2021-ci ilədək may ayının 9-u Ermənistanda və erməni diasporunda "üçqat bayram" kimi təntənəli şəkildə qeyd edilib. Bunlar 9 May faşizm üzərində Qələbə Günü, Şuşanın işğalının bayram edilməsi və keçmiş "dqr-in müdafiə ordusu"nun yaranması günləri idi. Rəsmi şəxslər, məsələn, xarici işlər nazirinin müavini Mnatsakan Safaryan, təhlükəsizlik şurasının katibi Armen Qriqoryan dünən jurnalistlərə verdikləri açıqlamada bu günü sadəcə, faşizm üzərində Qələbə Günü kimi qeyd etdiklərini bildirsələr də, "Respublika" partiyasının icra orqanının üzvü, parlamentin sabiq vitse-spikeri Eduard Şarmazanov sərsəmləyib. Ölkənin hakim "Mülki müqavilə" partiyası nümayəndələrinin İrəvandakı qələbə parkını ziyarət etməsindən təəccübləndiyini bildirən Şarmazanov deyib: "Onlar hər şeyi elə etdilər ki, bu gün biz üçqat bayramı ağrı ilə ürəyimizdə qeyd edirik, çünki bu günün əsas simvollarından biri "Artsaxın müdafiə ordusu"nun yaradılması və "Şuşanın azad edilməsi" idi. Nikol Paşinyan Praqada "Artsax"ı Azərbaycanın bir hissəsi kimi tanıdı. O, tarixə kapitulyant kimi düşəcək".

Şarmazanov deyib ki, "üçqat bayram" ideyasına sadiq qalmaq, bütün milli qüvvələrin iştirakı ilə düzgün proqram hazırlamaq və vətənin maraqlarının diktə etdiyi addımlar atmaq lazımdır. Bu isə açıq-aşkar revanşizm və müharibə ritorikası, həm Ermənistanın, həm də regionun sabitliyi üçün təhlükəli yanaşmadır.

Beləliklə, bir daha aydın olur ki, qondarma "Artsax" mifindən əl çəkə bilməyənlər təkcə diaspor təşkilatları və ya marginallaşmış ideoloji qruplar deyil. Ermənistanda bir sıra tanınmış siyasi fiqurlar da bu xəttin davamçısı kimi çıxış edirlər. E.Şarmazanovun son bəyanatı bunu bir daha sübut edir. Bu cür açıqlamalar Ermənistan siyasi məkanında revanşist mövqeləri qoruyub saxlayan dairələrin hələ də fəal olduğunu və reallıqla barışmaq istəmədiklərini göstərir. Şarmazanovun çıxışı da məhz reallıqdan uzaq, siyasi populizmə hesablanmış və regionda sabitliyə təhdid yaradan məsuliyyətsiz bəyanat kimi dəyərləndirilməlidir. Əslində isə bu sözlər tarixə təhrifli baxışın və reallığı qəbul etməməyin təzahürüdür. 2020-ci ilin noyabrında Azərbaycan Silahlı Qüvvələri Şuşanı işğaldan azad edib. Şarmazanovun "azad etmə" dediyi əməliyyat isə 1992-ci ildə Azərbaycanın mədəniyyət beşiyinin işğalı, şəhərin talan edilməsi və əhalinin etnik təmizlənməsi idi. Bu, bir daha onu göstərir ki, erməni siyasi elitasının müəyyən dairələri üçün məğlubiyyətin izahı hələ də tapılmayıb. Onlar bu boşluğu təxribatçı çağırışlar və yeni qarşıdurmalara təhriklə doldurmağa çalışırlar. Halbuki doğru yol sülh, əməkdaşlıq və beynəlxalq hüququn tanınmasıdır.

***Səxavət HƏMİD***
***XQ***

# Zatulini nə Qarabağ, nə də ermənilər maraqlandırır

**Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsi sədrinin birinci müavini Konstantin Zatulin növbəti dəfə Azərbaycan əleyhinə sərsəm açıqlama ilə çıxış edib. O bildirib ki, Azərbaycan 2020–2023-cü illərdə "Dağlıq Qarabağ" münaqişəsinin həlli ilə bağlı uzun illər aparılan danışıqları bir kənara atıb, Türkiyənin köməyi ilə Qarabağı faktiki olaraq ələ keçirib və erməni əhalini oranı tərk etməyə məcbur edib: "Bu, mənim fikrimcə, nə əvvəllər aparılmış danışıqların ruhuna, nə də bütövlükdə Rusiyanın maraqlarına uyğun gəlir. Təbii ki, Rusiya Ermənistanla Azərbaycan arasında müharibənin olmamasında maraqlıdır. Amma, eyni zamanda, əhalinin qovulmasında, məsələn, min illik tarixi olan erməni monastrlarının alban və ya başqasına məxsus olduğunu elan edilməsində maraqlı ola bilməz".**



Əslində, K.Zatulini nə Qarabağ, nə də orada yaşamış ermənilər maraqlandırır. Məqsədi Azərbaycana qarşı düşmənçiliyi körükləmək, Rusiya–Azərbaycan münasibətlərinə kölgə salmaqdır. Hər halda hadisələrin axarına nəzər salsaydı, bu cür sərsəm açıqlama ilə çıxış etməzdi.

Erməniləri Qarabağdan heç kəs qovmayıb, özləri oranı könüllü tərk ediblər. Bunu Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin TASS-a müsahibəsində təsdiqləyib: "Təəssüf ki, Qarabağ erməniləri bölgəni tərk edib. Bu, onların çətin, amma könüllü seçimi olub". Qaluzin xatırladıb ki, 2023-cü il sentyabrın 19–20-də baş verən toqquşmalar nəticəsində Qarabağ Bakının tam nəzarətinə keçib: "Rusiya sülhməramlı kontingentinin fəal vasitəçiliyi ilə sentyabrın 20-də hərbi əməliyyatların dayandırılması barədə razılıq əldə edilib. Qarabağın erməni əhalisi ilə Azərbaycan hakimiyyətinin nümayəndələri arasında danışıqlar aparılıb. Sülhməramlılarımız mülki şəxslərə sığınacaq verib, humanitar yardım çatdırıb, tibbi evakuasiya təşkil edib".

Eyni zamanda, Qaluzin hadisələrin təsadüfən baş vermədiyini diqqətə çatdırıb: "Ermənistan tərəfi hələ 2022-ci ilin oktyabrında Avropa İttifaqının himayəsi altında Praqada keçirilən sammitdə Azərbaycanın ərazi bütövlüyünü, o cümlədən Qarabağı onun tərkib hissəsi kimi tanıyıb. O vaxt regionun erməni əhalisinin hüquq və təhlükəsizliyinin təmin edilməsi məsələsi açıq qalmışdı. İndi isə Qarabağ Azərbaycanın hüquq sisteminə inteqrasiya olunur".

*

Azərbaycan ermənilərin Qarabağdan köçməsində heç vaxt maraqlı olmayıb. Bakının istəyi bölgədə yaşayan erməni əhalinin reinteqrasiyasına nail olmaq, onları Ermənistanın və qanunsuz separatçı xunta rejiminin girovluğundan qurtarmaq idi. Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə müsahibələrinin birində demişdi: "Azərbaycan tərəfindən dəfələrlə qeyd edildiyi kimi, bölgədə yaşayan erməni əsilli sakinlərin reinteqrasiyası Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericilik aktlarına uyğun olaraq təmin ediləcək. Azərbaycan tərəfi bu istiqamətdə erməni sakinlərlə dialoq aparılmasında qərarlıdır və bu məsələdə kənar müdaxilələrin qarşısı alınacaq".

Beləliklə, 44 günlük Vətən müharibəsindən keçən üç il müddətində separatçılar və onları dəstəkləyən Ermənistan iqtidarı heç cür sülhə gəlmədi, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədi, bölgədə çirkin əməllərini davam etdirdi. Eyni zamanda, qanunsuz erməni silahlı birləşmələri tərəfindən ordumuzun mövqeləri daim atəşə tutuldu. Separatçılar Azərbaycan Ordusunun bölmələrinə qarşı kəşfiyyat fəaliyyətlərini genişləndirdi, mövqelərimizin dərinliyinə sızaraq minalardan təmizlənən əraziləri və mülki təyinatlı yolları yenidən minaladılar. Bu kimi əməllərə birdəfəlik son qoyulmalı idi. Hayastanın və qanunsuz erməni hərbi ünsürlərin Azərbaycanın suveren ərazisində törətdikləri təxribatlarların qarşısını almaq məqsədilə Azərbaycan zəruri tədbirlər görmək məcburiyyətində qaldı. Nəhayət, ermənilərin təxribatlarına 2023-cü il 19–20 sentyabr antiterror əməliyyatı ilə son qoyuldu. Lokal xarakterli antiterror tədbirləri beynəlxalq humanitar hüquqa uyğun aparıldı. Bu zaman mülki obyektlər hədəfə alınmadı.

Həmin günlərdə Azərbaycana qarşı döyüşmüş erməniəsilli şəxslərə silahı yerə qoyacaqları təqdirdə məsuliyyətə cəlb edilməyəcəkləri ilə bağlı çağırış edildi. Bakı onların təhlükəsizliyinin təmin ediləcəyini, hüquqlarının qorunacağını bildirdi. Əsas şərt kimi Azərbaycan vətəndaşlığının qəbulu irəli sürüldü. Bu məqsədlə Qarabağ ermənilərinin nümayəndələri ilə Azərbaycanın dövlət strukturlarının nümayəndələri arasında Yevlax şəhərində görüşlər keçirildi. Bakının tələbləri arasında Qarabağ hakimiyyətinin istefası, reinteqrasiyanın müzakirəsi və erməni qoşunlarının bölgədən çıxarılması vardı. Döyüş əməliyyatlarının başlamasından bir gün sonra tanınmamış respublikanın hakimiyyət orqanları atəşkəsə razılaşdı və separatçşı rejimin rəhbəri Samvel Şahramanyan qondarma qurumun mövcudluğuna xitam verilməsi haqqında fərman imzaladı. Bundan sonra ermənilərin Qarabağdan könüllü köçü başladı. Əslində, bu köçün səbəbkarı keçmiş separatçı xunta rejiminin başçıları və Ermənistandakı "Qarabağ klanı" olub. Bunu K.Zatulin də çox yaxşı bilir. Məsələnin absurd tərəfi budur ki, Rusiya Dövlət Dumasının MDB ölkələri ilə əlaqələr üzrə komitəsinin sədr müavini kimi Zatulinin vəzifəsi bu məkanda münasibətləri tənzimləməkdir. Amma bunun tam əksinə olaraq, o, birliyin üzvü olan ölkələrin ərazi bütövlüyü və suverenliyi əleyhinə təxribatçı fikirlər səsləndirir.

**Mövzu ilə bağlı Milli Məclisin deputatı Fatma Yıldırım bildirdi ki,** Qarabağ-



dan könüllü köçmüş erməni əhalinin böyük əksəriyyəti Ermənistan vətəndaşı idi: "Aralarında Rusiya vətəndaşları da vardı. Suriyadan, Livandan gələn ermənilər də az deyildi. Azərbaycanın işğal olunmuş ərazilərində əhalinin sayı buraya qeyri-qanuni köçürülən sakinlərin hesabına hər il artırdı. Məsələn, 2015-ci ildə onların hesabına işğal olunmuş ərazilərimizdə əhali 23 min nəfər çoxalıb. Köçürülənlər – 13 min Laçında, 8500 nəfər Qarabağın dağlıq hissəsində, 700 nəfər Kəlbəcərdə, 520 nəfər Zəngilanda, 280 nəfər isə Cəbrayılda məskunlaşdırılmışdı.

Suriyadan (bu ölkədə 2011-ci ilin martında vətəndaş müharibəsi başladıqdan sonra), eləcə də Livandan etnik ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərinə aktiv gəlişini nəzərə alsaq, 2020-ci ilin payızında Vətən müharibəsi zamanı işğal altındakı ərazilərdə qeyri-qanuni məskunlaşdırılanların sayı yüksək idi. Çox az sayda erməni Birinci Qarabağ müharibəsindən öncə orada yaşayan Azərbaycan vətəndaşları idi". Bəli, gəlmələr gəldikləri yerə qayıtdılar, Qarabağda əvvəllər yaşayanlar isə Azərbaycan vətəndaşlığını qəbul etmədilər və könüllü oranı tərk etdilər.

*

Zatulinin qədim erməni monastırlarının albanlaşdırıldığına dair açıqlaması da qərəzlidir. Söhbət, ilk növbədə, Xudavəng və Gəncəsər monastrlarından gedir. AMEA-nın Arxelogiya və Etnoqrafiya İnstitutunun böyük elmi işçisi Ülviyyə Hacıyeva deyir ki, tarixi və memarlıq nöqteyi-nəzərdən bu abidələr Qafqaz Albaniyasının maddi mədəniyyət irsinə daxildir: "Xaçın knyazlığı sülaləsi və knyazlıq əhalisi Azərbaycan xalqının etnogenezində iştirak etmiş albanlara mənsub idilər. Abidə də onlardan yadigar qalıb".

**A.Bakıxanov adına Tarix İnstitutunun böyük elmi işçisi Ramin Alizadə də monastr kompleksinin Qafqaz Albaniyasının yadigarı olduğunu bildirdi:** "Kompleks Azərbaycan xalqının əcdadlarının yaratdığı möhtəşəm maddi-mədəniyyət nümunəsidir. Hər kəs bilməlidir ki, bu monastr Qafqaz Albaniyasının tarixi mirasıdır. 1723-cü ilin martında Qarabağ məliklərinin I Pyotra göndərdiyi məktubda alban türkü ifadəsi öz əksini tapıb. Maraqlıdır ki, ermənicə mətndə bu ifadə alban türkü, rus dilinə tərcüməsində isə müsəlman alban kimi təqdim olunur. Göründüyü kimi, onların ermənilərin Xudavəngin monastr kompleksi ilə heç bir bağlılığı yoxdur".

R.Alizadənin sözlərinə görə, monastrda yağlı boya ilə çəkilmiş çoxlu rəsmlər və yazılar olub: "Erməni apostol kilsəsinin dəstəyi və Ermənistan dövlətinin vəsaiti hesabına "bərpa" adı altında monastrda qanunsuz işlər görülüb. Arzu xatun, Böyük Həsən kilsələri və kompleksə daxil olan digər tikililərə əlavələr edilib. Ermənilər Arzu xatun məbədinim divarlarında yağlı boya ilə çəkilmiş xeyli şəkilləri və yazı nümunələrini, Alban–Qıpçaq xaç daşlarını balta ilə çaparaq, burada saxta erməni xaçdaşları yerləşdiriblər. Yəni, özlərinin sərsəm iddialarını "reallaşdırmaq" üçün tədricən "tarixi əsaslar" hazırlamaqla məşğul olublar".

K.Zatulinin açıqlamasında maraqlı bir məqam var. O deyir ki, erməni kilsəsinin həm də başqasına məxsus olduğu bildirilir. Yəqin, Şuşadakı Qazançı kilsəsini nəzərdə tutur. Ermənilər bu kilsəyə iddialıdırlar. Amma kilsənin onlara heç bir adiyyəti yoxdur. Şuşada xristian kilsəsi Qarabağ xanlığının Çar Rusiyası tərəfindən işğalından sonra inşa olunub. Çar ordusunun hərbi hissələrinin Qarabağda yerləşməsi onların özlərinə dini abidə tikmələri üçün bəhanə olub.

Bir sözlə, ermənilər 200 ilə yaxındır ki, ən çirkin vasitələr və üsullardan istifadə edərək qədim Azərbaycan dövləti olan Albaniyaya aid xristian irsini yox etmək, yaxud da özününküləşdirmək istiqamətində davamlı olaraq fəaliyyətdədirlər. Erməni kilsəsi, erməni siyasi dairələri, diasporu və nəhayət, elm, sənət adamları bu saxtakarlığı təbliğ etməklə məşğuldurlar. Zatulin kimilər isə onların küyünə düşərək yalan və böhtanlarına şərik olurlar...

***Pünhan ƏFƏNDİYEV***
***XQ***



# DTX-də Ulu öndərin xatirəsi dərin ehtiramla anılıb

**Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi, general-polkovnik Əli Nağıyev və Xidmətin əməkdaşları Fəxri xiyabanda dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla yad etmiş, məzarı önünə əklil və gül dəstələri qoymuşlar.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi anılmış, məzarı üzərinə gül dəstələri düzülmüşdür.

Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətinin məlumatında bildirilir ki, daha sonra DTX-nin akt zalında keçirilmiş tədbirdə öncə ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunmuş, Dövlət Himni səsləndirilmişdir.

Tədbirdə çıxış edən DTX-nin rəisi, general-polkovnik Əli Nağıyev əvvəlcə Ulu öndərin təhlükəsizlik orqanlarındakı 25 illik şərəfli fəaliyyəti, dahi rəhbərin bu təsisatın inkişafındakı müstəsna xidmətləri, eləcə də təhlükəsizlik təşkilatının milliləşdirilməsi istiqamətində atdığı qətiyyətli addımlar barədə ətraflı söhbət açmış, Heydər Əliyevin bu orqanlarda əsasını qoyduğu xalqa və dövlətə sədaqət amallarının Xidmətin şəxsi heyəti tərəfindən daim əsas götürüldüyünü qeyd etmişdir.

General-polkovnik Əli Nağıyev bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr ölkənin tarixinə qızıl hərflərlə yazılmış, respublikada bütün sahələrin hərtərəfli inkişafı, Azərbaycanın davamlı tərəqqisi və yüksəlişi, həmçinin dövlətçilik strategiyasının formalaşması, milli ideyanın güclənməsi və müstəqilliyin möhkəmlənməsi ilə müşayiət olunmuşdur.

Ulu öndərin siyasət xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin yeni zirvələrə doğru inamla addımladığını və bütün istiqamətlərdə mühüm nailiyyətlərin qazanıldığını vurğulayan Xidmət rəisi təhlükəsizlik orqanlarının fəaliyyətinin də dövlətimizin başçısının diqqət və qayğısı ilə keyfiyyətcə yeni səviyyəyə yüksəldiyini, DTX-nin əməkdaşlarının üzərinə düşən vəzifələrin bundan sonra da layiqincə icra olunacağını demişdir.

Sonra tədbir digər çıxışlarla davam etmiş, xidmətdə fərqlənən əməkdaşlara mükafatlar təqdim olunmuşdur.

***XQ***

# 9 May təbriki, yoxsa revanşizmə çağırış?

**Ermənistanda da 9 May – Qələbə Günü qeyd edilir və bununla bağlı təbrik sıralayan siyasilər var. Əlbəttə, onların sırasında baş nazir Nikol Paşinyanın təbriki öndə gəlir. Nikol subliminal fikirlərlə bəzədiyi təbrik mətninin son hissəsində pozitivliyə köklənib, ölkəsi ilə Azərbaycan arasında sülhün mütləq əldə olunacağını qeyd edib.**

Hərçənd, ümumi yanaşsaq, onun bildirdiklərini pozitiv saymaq olmaz. Amma Ermənistanda 9 May təbrikləri arasında başdan-ayağa məkrə köklənmişlər az deyil. Onlardan biri isə bütün Ermənistanın katolikosu II Qareginin tərkibidir.

II Qaregin 9 may tarixinə yalnız faşizm üzərində qələbə günü kimi yox, həm də "Şuşanın azad olunması və Artsax müdafiə ordusunun yaradılmasının ildönümü" kimi yanaşıb. Özü də təbrik mətninin lap başlanğıcında. Keşişin bu xatırlatması heç kəsə adi gəlməsin. Nəzərə alaq ki, kilsə erməni avantürizminin əsas qaynağıdır. Deməli, Qaregin avantürizmə "sadiqliyini" göstərir və Azərbaycana qarşı ərazi iddiasını və separatçılığı təbliğ edir. Belə nəticəyə gəlirik ki, bu qoca məxluq Paşinyanın az-çox nəzərə çarpan mütərəqqi fikirlərini sıradan çıxarır.

Hər bir qələbənin inamla, inadlı mübarizə və sınaqlara qarşı dözümlə əldə olunduğunu bildirən II Qaregin əlavə edir ki, bu anlayışla yüz minlərlə erməni sabiq Sovet İttifaqının digər xalqları ilə birgə təhlükəsiz və firavan dünya naminə faşizmə qarşı döyüşdü. Ancaq, necə deyərlər, ayının min oyunu bir armudun başındadır. "Eyni anlayışla xalqımız Artsax ermənilərinin doğma torpaqlarında müstəqil və təhlükəsiz yaşamaq hüququnu müdafiə etdi", – deyən II Qaregin ardınca əsl ağlaşmaya keçib. Sən demə, Qarabağdan ermənilər deportasiya edilibmiş, Ermənistan bəlalarla üzləşibmiş. Bu fonda keşiş ucuz populizmə və saxta vətənpərvərliyə güc verərək hayları sınmamağa, ayaqda qalmağa və qələbəyə səsləyib.

Bir sözlə, II Qaregin 9 May təbrikində revanşizmə güc verib. Əlbəttə, o, sayıqlayarkən Azərbaycanın adını çəkməyib. Amma keşişin mübarizliklə qələbə qazanmaq "düsturunun" başqa hədəfinin olmadığı məlumdur. Katolikos məhz bu hədəf üçün ermənilərin faşizm üzərində qələbənin əldə olunmasındakı rolunu qabardıb. Yəni, dolayısı ilə bildirib ki, guya, alman faşizmini yenən ermənilərin ölkəmizə qarşı da mübarizə aparmaq əzmi var.

Əvvəldə kilsənin erməni avantürizmində müstəsna "rolunun" olduğunu vurğuladıq. Söhbət 9 May faşizm üzərində qələbədən düşürsə, onu da deməliyik ki, həmin kilsə erməni cəmiyyətinin həm də faşizm təmayüllərinin formalaşmasında müstəsna pay sahibidir. İndiki durumda II Qaregin özünün sərsəmliyi ilə faşizmi qəbirdən qaldırmaq naminə "Martin Lüterlik" edir.



## II Qaregin yenə sayıqlayıb

Əlbəttə, II Qaregin təkcə din xadimi deyil. Yəni, kilsənin tarixən terrorun və təxribatların hazırlanmasında mühüm rol oynadığını nəzərə alsaq, əslində, bütün Ermənistanın katolikosu da böyük ölçüdə terrorçu və təxribatçıdır. Amma II Qaregini heç də ideoloji baxımdan xəstə saymaq olmaz. Başqa sözlə desək, bu məxluq göründüyü kimi deyil. Yada salaq ki, vaxtilə onun lüks həyat tərzi keçirməsi və qiymətli hədiyyələr qəbul etməsi erməni ictimaiyyətin narazılığına səbəb olub. Məsələn, 5 kq qızıldan hazırlanmış əsa hədiyyə verilərkən II Qareginin, az qala, uşaq kimi sevinməsi hayları çox pis hiddətləndirmişdi. Onlar keşişin düşdüyü gülünc durumu kilsənin sadəlik və təvazökarlıq prinsiplərinə zidd saymış və sərt etirazlarını bildirmişdilər.

Qeyd edək ki, II Qareginin kilsə daxilində avtoritar idarəçilik üsulları yaratması və nepotizmə üstünlük verməsi də erməni cəmiyyətində ciddi tənqid olunub. Bəzi hallarda onun kilsə rəhbərlərinə qarşı sərt tədbirlər gördüyü və müxalif fikirlərə qarşı dözümsüz yanaşdığı bildirilib. Məsələn, Fransadakı Erməni Apostol Kilsəsinin rəhbəri arxiyepiskop Norvan Zakaryanın istefasında intriqabaz katolikosun rolunun olduğu danılmazdır.

Onu da bildirək ki, erməni cəmiyyətində II Qareginə qarşı etirazlar 2018-ci ildən daha açıq müstəviyə keçib. Həmin il Ermənistanda "məxməri inqilab"ın baş verməsi və Qərbpərəst N.Paşinyanın hakimiyyətə gəlməsi ölkənin bütün sferalarında dəyişikliklərə səbəb oldu. Lakin Nikol nə qədər çalışsa da, köhnəliyin iyrənc qalığı olan II Qaregini postundan tərpədə bilmədi. 2018-ci ildə hətta İrəvanda yüzlərlə insanın onun istefasını tələb edən etiraz aksiyaları keçirməsi, etirazçıların keşişin kilsəni siyasi alətə çevirdiyini və xalqın ehtiyaclarına laqeyd qaldığını iddia etməsi də fayda vermədi. 2020-ci ilin 44 günlük müharibəsində isə II Qaregin bütün əndazələri aşaraq Azərbaycana qarşı nifrət püskürdü. Hətta, onun çağırışı ilə erməni din xadimlərinin bir qrupunun silaha sarıldığını da gördük.

Bəli, II Qareginin siyasi məsələlərə aşkar müdaxiləsi və əksər hallarda hökumətə qarşı açıq tənqidi mövqeyi Paşinyanın tərəfdarları tərəfindən sərt qarşılanır. İkincilər din xadiminin fəaliyyətini kilsənin neytrallıq prinsipinə zidd saydıqlarını bildirirlər. Onu da deyək ki, II Qareginin N.Paşinyanı istefaya çağırdığı və hökumətin Qarabağ siyasətini tənqid etdiyi vaxtlar da olub. Qarşı tərəfin cavabı isə qeyri-standart məzmunu ilə seçilib. Nikolun jurnaist dostlarından bəziləri II Qaregini hətta əxlaqsızlıqda günahlandırıblar.

Sonda onu da bildirək ki, təkcə biz yox, ümumən bir sıra ekspertlər, o cümlədən erməni siyasi müşahidəçilərinin müəyyən qismi II Qareginin bəyanatlarının Ermənistan və Azərbaycan arasında gərginliyi artırdığını, Bakı–İrəvan sülh prosesinə maneçilik törətdiyini vurğulayırlar. Hesab edirik ki, katolikosun 9 May – Qələbə Günü ilə bağlı yaydığı təbrik mətnindəki fikirlər, o cümlədən, Azərbaycanın beynəlxalq hüquqla tanınmış ərazilərini heçə sayması, separatçılığı dəstəkləməsi də bu baxımdan qiymətləndirilə bilər.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# "Baş naziri dəyişdiniz, amma özünüzü yox..."

## "Sülh populizmi"ndən əl çəkməyən Paşinyanın öz xalqına mesajı

**"Bütün daxili və xarici təxribatlara baxmayaraq, Ermənistanla Azərbaycan arasında müharibə olmayacaq, sülh olacaq". Ermənistan KİV-in yazdığına görə, bunu Ermənistan baş naziri Nikol Paşinyan xalqa müraciətində dilə gətirib. Bununla onun özünü növbəti dəfə dünyaya "sülh göyərçini" qismində təqdim etməyə çalışdığı məlumdur. Konkret olaraq indiki halda Paşinyanın belə etiraflar və mesajlarla hansı məqsədi güddyünü ehtimal edə bilərik.**

"Bu gün regionumuzun dinc və firavan gələcəyinə töhfə vermək imkanımız var. Ermənistanla Azərbaycan arasında sülhün və dövlətlərarası münasibətlərin qurulmasına dair saziş layihəsi razılaşdırılıb və imzalanmasını gözləyir. Biz məhz bu yolla gedəcəyik. Sülh və firavanlıq şəraitində yaşamaq regionumuzun haqqıdır və belə də olmalıdır".

Bunları çox eşitmişik. Onun gəlişigözəl ifadələrlə sülhün gözünə kül üfürdüyünü də az görməmişik. Baş nazir bu dəfə də köhnə "mahnılar"ından birini səsləndirib. O, haylara bayram təbrikində diqqəti tarixi Ermənistana yox, real Ermənistana yönəltməyin və gələcək nəsillər üçün xoşbəxt və azad dövlət qurmağın vacibliyini qeyd edib.

Müxtəlif məqamlarda, situasiyalarda təzadlı, bir-birini təkzib edən fikirləri ilə tanıdığımız Paşinyana görə, dünyanı dəyişmək üçün özünüzdən başlamaq lazımdır: "Deyirlər ki, baxın, Sarkisyanı çıxardılar, Nikolu gətirdilər, bəs niyə ölkə dəyişmədi? Əgər ölkəni dəyişmək istəyirsənsə, təkcə baş naziri deyil, özünü də dəyişməlisən".

Son vaxtlar məsələlərə "fəlsəfi yanaşması" ilə seçilən Ermənistan baş nazirinin xalqına ünvanladığı bu mesajın altında hansı niyyətin gizləndiyini deyə bilmərik, amma ictimai şüurda dəyişmənin sülhə tərəf olacağını söyləmək çətindir. Daşnak–revanşistlər, "eks"lər, Qarabağ klanı, xaricdəki erməni lobbi təşkilatlarının sülh sazişinin indiki variantda imzalanmasına qarşı çıxdığını bilirik. İndi Paşinyanın ona qarşı müxalif cəbhədə birləşən bu "çete"ni mesaj və etiraflarla ram edə biləcəyinə inanmaq sadəlövhlük olardı.



* * *

Təxminən bir ay bundan əvvəl də Ermənistan baş naziri ölkəsi ilə Azərbaycan arasında müharibənin qarşısını almaq və sülh qurmaq barədə oxşar mesaj vermişdi. Parlamentdəki həmin çıxışında Paşinyan Azərbaycan ilə sülh sazişi üzərində son razılaşmanın artıq əldə edildiyini, onu imzalamağı səbirsizliklə gözlədiyini bildirmişdi: "Bu gün bizim regionumuz üçün sülh və inkişafın təmin olunması istiqamətində öz töhfəmizi vermək imkanımız var. Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi və dövlətlərarası münasibətlər haqqında layihə razılaşdırılıb və imzalanmağı gözləyir. Biz bu yolu davam edəcəyik".

O, həmçinin daxili və xarici təhriklərə baxmayaraq, Ermənistan ilə Azərbaycan arasında müharibənin olmayacağına və sülhün təmin ediləcəyinə əminliyini vurğulamışdı. Paşinyan regionun sülh və inkişaf içində yaşamağa haqqı çatdığını, bu prinsipə sadiq qalacaqlarını bildirmişdi. O, Ermənistan və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü, suverenliyini, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını, güc tətbiqinin və ya güc tətbiqi ilə hədənin yolverilməzliyini tanıdıqlarını da qeyd etmişdi.

Azərbaycan hökumətini "bu məntiqə birbaşa və ya dolayısı ilə zidd olan və ya şübhə altına alan bəyanatlar verməməyə, hərəkətlər etməməyə" çağıran Paşinyan "Ermənistanla Azərbaycan arasındakı gərginliyi və müharibəni unudun. Biz birlikdə Cənubi Qafqazın tarixində yeni səhifə açmalı və Minsk qrupu strukturlarının ləğvi ilə eyni vaxtda sülh sazişini və Ermənistan–Azərbaycan birgə bəyanatını imzalamağa hazırıq" kimi pozitiv bəyanat vermişdi.

* * *

Yeri gəlmişkən, son vaxtlar zəifləmiş sülh danışıqları prosesinə Şimal qonşumuzun diqqətinin artdığı müşahidə olunmaqdadır. Bakı–İrəvan dialoquna marağını gizlətməyən Kremlin Ermənistandakı elçisi Sergey Kopırkin ölkəsinin ikitərəfli dialoqda vasitəçi rolunda çıxış etməyə hazır olduğunu bəyan edib. Dünən isə 9 May – Qələbə Günü münasibətilə erməni jurnalistin sualına cavabında bunları deyib: "Biz Ermənistanı öz müttəfiqimiz, sıx əməkdaşlıq etdiyimiz qardaş ölkə kimi görməkdə davam edirik. Əlaqələrimizi, o cümlədən Avrasiyaya inteqrasiya prosesləri çərçivəsində qurmağa və dərinləşdirməyə davam etməyə hazırıq".

Səfir iki ölkə arasında münasibətlərin pisləşib-pisləşməməsi barədə suala belə cavab verib: "Biz reallığa baxmalıyıq. Münasibətlərimiz, təbii ki, yeni reallığa uyğunlaşmalıdır. Amma əsas odur ki, hər iki tərəfdə siyasi iradə və mövcud olanı qorumaq istəyi var. Hesab edirəm ki, bu əlaqələr dərin və çox güclüdür". Cənab səfirin bununla nəyə işarə vurduğunu güman etmək çətin deyil. Bakı və İrəvan sülh danışıqlarını vasitəçisiz, üçüncü tərəfin iştirakı olmadan davam etdirməyə, dialoqda "referiyə" ehtiyac duymadıqlarına iki il bundan əvvəl qərar veriblər və bunun praktiki nəticələrini görüblər. Yəni, sülhün alternativinin olmadığının tərəflərə kiminsə deməsinə lüzum yoxdur.

Prezident İlham Əliyev cari ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində sülh müqaviləsi ilə bağlı jurnalistin sualını cavablandırarkən demişdir: "Əgər Ermənistana sülh müqaviləsi lazım deyilsə, bizə də lazım deyil. Bu imzalanmadan da biz yaşaya və öz siyasətimizi apara bilərik". Ermənistan tərəfinə hər şeyi, o cümlədən dünyadakı geosiyasi dəyişiklikləri yaxşı ölçüb-biçməyi məsləhət görən Azərbaycan Prezidenti İrəvanın nəzərinə həm də bunu çatdırmışdı: "Onların yaxın dostları siyasi səhnədən biabırçılıqla silinirlər. Bax, dünən xəbər gəldi ki, Ermənistanın və Paşinyanın yaxın dostu cənab Trüdo da vəzifədən getməli oldu. Həmin bu ölkə ki, İkinci Qarabağ müharibəsi dövründə və ondan sonrakı dövrdə qatı anti-Azərbaycan mövqeyində idi, heç Fransadan çox da uzağa getmir. Fransaya gəldikdə, indi orada siyasi səhnədə nələr baş verir? Hər kəs görür".

İndi Bakı hayların baş nazirinə sözdən işə keçməyin vacibliyini neçənci dəfə və hansı üslübda və formada başa salmalıdır ki, sülhlə manipulyasiyadan, siyasi populizmdən əl çəksin?

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**



– Nikol Paşinyanın budəfəki pafoslu, gurultulu etirafına inanmaq çox çətindir. Çünki, indiyə qədər sülh sazişi ilə bağlı o qədər belə ifadələr işlədib ki, artıq onun səmimiyyəti şübhə doğurmaya bilməz. Ermənistan baş naziri vaxtilə buna tamamilə əks bəyanatlar verməklə məşğul idi. Xankəndidəki separatçı rejimə hər cəhətdən kömək edirdi. İndi bunların hamısı Bakıda məhkəmədə üzə çıxır. Digər tərəfdən onun Azərbaycanla sülh şəraitində yaşamaq istəyi heç də "sülh göyərçini" olduğunu nümayiş etdirmir. Sadəcə olaraq, indiki vəziyyətdə bu xarakterli etirafları səsləndirməyə məcburdur. Ona görə ki, Azərbaycanın siyasi iradəsi və hərbi gücü, ən əsası isə tələblərində haqlı dövlət kimi atdığı konkret addımları baxımından heç nəyə nail ola bilməyəcəyini yaxşı başa düşür. Bu həqiqəti zaman dəfələrlə göstərib və sübuta yetirib. Arxada qalan sülh danışıqları prosesinin gedişində də hamı görüb.

Qətiyyən şübhə yoxdur ki, Paşinyan özünün sonuncu etirafını məcburiyyət qarşısında qaldığından edib. Əgər, o, doğrudan da, Azərbaycanla sülhə gəlmək istəyirsə, bunu konkret addımları ilə təsdiqləməlidir. Həmin konkret addımların nədən ibarət olduğunu isə Paşinyan özü çox yaxşı bilir. Buyursun, sözünü əməldə göstərsin. Yoxsa, daxili auditoriyaya və dünya ictimaiyyətinə üfürdüyü sülh mesajları ilə problem öz həllini tapmır. Onun üçün vaxt daralmaqdadır.

### Ekspert rəyi

**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı**



– Ermənistan hökumətinin sülh sazişini imzalamaq fikri yoxdur. Paşinyanın son davranışları da bunu göstərir. İndi də yeni çağırışlar səsləndirir. Azərbaycan hər zaman bu çağırışlara hazır olmalıdır. Ermənistan baş naziri diqqəti sülh prosesindən yayındırmaq üçün gah bütün kommunikasiya xətlərinin açılmasından danışır, gah da Zəngəzur dəhlizinin İran dəhlizi kimi işləməsi variantını irəli sürür. Yəni, bununla da Zəngəzur dəhlizinə Ermənistanın nəzarət etməsini istəyir. Bu da onu göstərir ki, Paşinyan hələ də Zəngəzur dəhlizindən maneəsiz keçidin əleyhinədir. Bu gedişatla sülh danışıqları elə yerində sayacaq.

Baxmayaraq ki, bu günlərdə Paşinyanın başqa bir açıqlaması da oldu. Guya, regionda dinc və yanaşı yaşamağa, birgə xoşbəxt gələcəyin qurulmasına töhfə vermək imkanı var. Lap yaxşı, bunun üçün Bakının məntiqi və beynəlxalq hüquqa söykənən tələblərini yerinə yetirsin. Sülh sazişi bu il imzalanmasa, bölgədə gərginlik arta bilər. Çünki Ermənistan ordusunun içərisində "5-ci kolon" mövcuddur, bunu Paşinyan özü etiraf edib. Həmin "5-ci kolon" Ermənistanda hakimiyyət çevrilişi edə, təmas xəttində gərginlik yarada bilər. Atəş açılacağı təqdirdə təbii ki, biz artıqlaması ilə bunun cavabını verəcəyik.

Ermənistan əvvəllər Rusiyanın əmrlərini yerinə yetirirdisə, indi Qərbdən gələn tapşırıqlara əməl edir. Paşinyan anlamalıdır ki, əgər ölkəsinin maraqlarından çıxış edirsə, ona sülh lazımdır. Nə qədər silah alsa da, hərbi büdcəsini artırsa da, İlham Əliyevin dediyi kimi Azərbaycanla ayaqlaşa bilməyəcək. Mümkün toqquşmada yenə də özü və ölkəsi məğlub olacaq.

# Qeyri-neft mallarının ixracı çoxalır

## *4 ayda xarici bazarlara 1,1 milyard dollarlıq məhsul göndərilib*



**Ölkəmizdə ümumi iqtisadi artımın əsas hissəsi neft-qaz strategiyasının uğurlu nəticələri hesabına təmin olunsa da, son illər qeyri-neft sektoru üzrə də xüsusi fəallıq nəzərə çarpır. Bu da Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən ardıcıl, məqsədyönlü tədbirlərin məntiqi nəticəsidir. Müqayisə üçün qeyd edək ki, 2010-cu ildə ölkəmizin qeyri-neft sektorunda 18,4 milyard manatlıq məhsul istehsal olunduğu halda, 2024-cü ildə bu göstərici 85 milyard manatı ötüb.**

Bu sahədə artım tendensiyası 2025-ci ilin birinci rübündə də müşahidə olunub. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, yanvar-mart aylarında Azərbaycanda 29 milyard 892,9 milyard manatlıq ümumi daxili məhsul istehsal olunub ki, bunun da 20 milyard 102,6 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşüb. Rüb ərzində ölkə üzrə qeyri-neft-qaz ÜDM-i əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,5 faiz artıb.

Ölkənin qeyri-neft-qaz sahələrinin inkişaf etdirilməsinin uğurlu nəticələri ixrac əməliyyatlarında da özünü qabarıq şəkildə büruzə verir. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına əsasən, yanvar-aprel ayları ərzində Azərbaycanın qeyri-neft-qaz sektoru üzrə ixracının dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 18 faiz artaraq 1,1 milyard ABŞ dolları təşkil edib.

Son illər Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər, kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayığısı ölkədə yeyinti məhsullarının istehsalının artması ilə müşayiət olunur. Bu da ixrac strukturunda bu növ məhsulların payının çoxalmasına gətirib çıxarır. Təkcə onu qeyd etmək kifayətdir ki, cari ilin yanvar-aprel aylarında ölkəmizdən 300,1 milyon dollarlıq yeyinti məhsulları ixrac olunub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 12,1 faiz çoxdur. İlin ilk 4 ayında şəkərin ixrac dəyəri isə 25,8 faiz artaraq 1,9 milyon dollar təşkil edib.

Bu ilin yanvar-aprel ayları ərzində ölkənin aqrar və aqrar-sənaye məhsullarının ixracında da əhəmiyyətli artım qeydə alınıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına görə, bu ilin 4 ayında aqrar məhsulların ixrac dəyəri 14 faiz artaraq 232,7 milyon dollar, aqrar-sənaye məhsullarının ixrac dəyəri isə 7,9 faiz artaraq 90,8 milyon dollara çatıb. Bütövlükdə, hesabat dövründə qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,2 faiz çoxalaraq 323,6 milyon dollar təşkil edib.

Yeri gəlmişkən, son illər Azərbaycanın kənd təsərrüfatı sektorunda yaradılmış məhsul bolluğu daxili bazarın tələbatını ödəməklə yanaşı, ölkənin ixrac potensialının artmasına da mühüm töhfələr verir. Bu baxımdan əsas bitkiçilik məhsullarından sayılan pambıq mahlıcı və pomidoru xüsusi qeyd etmək olar. Elə cari ilin yanvar-aprel aylarında ölkəmizdən ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında adıçəkilən məhsulların üstünlük təşkil etməsi də bunu təsdiqləyir. Belə ki, hesabat dövründə Azərbaycandan 26,8 milyon dollarlıq meyvə-tərəvəz ixrac olunub ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 14,8 faiz çoxdur.

Cari ilin ilk 4 ayında sənaye mallarının ixracı üzrə də uğurlu nəticələr əldə olunub. Belə ki, hesabat dövrü ərzində kimya sənayesi məhsullarının ixrac dəyəri 35 milyon dollar və ya 42,5 faiz, qara metallar və onlardan hazırlanan məmulatların ixrac dəyəri 4,1 milyon dollar və ya 16,7 faiz, alüminium və ondan hazırlanan məmulatların ixrac dəyəri 6,1 milyon dollar və ya 9,8 faiz, pambıq ipliyin ixrac dəyəri isə 360,9 min dollar və ya 5,3 faiz artıb.

Göründüyü kimi, son illər ölkəmizdə qəbul olunmuş məqsədli dövlət proqramları, əlverişli biznes mühiti, eləcə də uğurlu şaxələndirmə siyasəti qeyri-neft sektorunun inkişafını sürətləndirir. Bu da öz növbəsində ixracın strukturunda qeyri-neft mallarının payının getdikcə artmasına imkan yaradır.

# Bakı Metropoliteni AİB ilə əməkdaşlıq qurur

**Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON) tərkibində fəaliyyət göstərən "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Vüsal Aslanov Asiya İnkişaf Bankının (AİB) yeni yaranan sahələr üzrə enerji sektorunun direktoru Sindi Tiyankonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



"Bakı Metropoliteni"ndən XQ-yə verilən məlumata görə, görüş Bakı Metropoliteninin fəaliyyətinin yeni sahələrinin inkişaf perspektivlərinin müzakirəsi və birgə əməkdaşlıq istiqamətlərinin müəyyən edilməsi məqsədilə keçirilib. Müzakirələr zamanı enerji səmərəliliyinin təmin edilməsi, metropoliten infrastrukturunun effektiv istismarı, mütərəqqi texnologiyalar, o cümlədən süni intellekt və data əsaslı qərarların qəbul edilməsi ilə səmərəyə nail olmaq üçün yeni konsepsiyanın hazırlanmasını özündə ehtiva edən 3 əsas istiqamət müəyyənləşdirilib.

Görüşdə atılacaq mərhələli addımların razılaşdırılması aparılıb. Həyata keçiriləcək tədbirlər Bakı Metropoliteninin beynəlxalq bilik, təcrübə və ekspert mübadiləsindən istifadə etməklə hazırladığı layihələrin texniki-iqtisadi əsaslandırması və tətbiqindən ibarət olacaq. 2025-ci ilin sonunadək isə Bakı Metropolitenində bir neçə istiqamət üzrə birgə səmərəli fəaliyyətə başlanılması nəzərdə tutulur.

Xatırladaq ki, ölkəmiz 1999-cu ildə Asiya İnkişaf Bankına üzv olub. 2004-cü ildən bankın Azərbaycanda nümayəndəliyi fəaliyyət göstərir. Bankın Rəhbərlər Şurasının 48-ci illik toplantısı 2015-ci ildə Bakıda keçirilib.

Asiya İnkişaf Bankı iqtisadiyyatın şaxələndirilməsi, yeni iqtisadi imkanların genişləndirilməsi, inklüziv inkişafın təşviqi istiqamətindəki fəaliyyətlərdə Azərbaycana dəstək göstərir. Belə ki, AİB nəqliyyat, su təchizatı, enerji, həmçinin maliyyə sektoru (bank və sığorta), təhsil, səhiyyə və digər sahələr üzrə 1999-cu ildən bəri Azərbaycana 130-dan çox kredit, qrant, investisiya, texniki yardım layihələrinin, ticarət və təchizat zəncirinin maliyyəsi və mikromaliyyə proqramlarının maliyyələşdirilməsi üçün 5,27 milyard ABŞ dolları vəsait ayırıb. Ötən il isə bankının birgə maliyyələşdirmə üzrə ayırdığı vəsaitlərin həcmi 399,1 milyon dollar təşkil edib. Bunun da 398,3 milyon dolları layihələr, 0,8 milyon dolları isə texniki məsləhət proqramı ilə bağlı olub.

# Xəzər gəmiçiliyinin "təmiz" layihələri

**Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON) tərkibində fəaliyyət göstərən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) gəmilərin istismarı və sahil obyektlərinin fəaliyyəti nəticəsində yaranmış tullantıların ekologiyaya mənfi təsirlərinin minimuma endirilməsini daim diqqətdə saxlayır. Bu məqsədlə əməliyyatlar zamanı zəruri qabaqlayıcı tədbirlər görülür.**



ASCO-dan verilən məlumatda bildirilib ki, 2025-ci ilin yanvar-mart aylarının nəticələrinə görə, qurumun istismarında olan gəmilərindən 18,78 kubmetr plastmas, 104,33 kubmetr qida qalığı, 153,91 kubmetr məişət tullantısı (kağız-karton, əski, şüşə, metal və s), 13 kubmetr istismar tullantısı, 79,2 kubmetr neft qalığı-şlam, 737,5 kubmetr döşəməaltı lyal sular, 24 min 89,3 kubmetr məişət təsərrüfat çirkab su bağlanmış müqavilələr əsasında təcrübəli mütəxəssislərə və texniki resurslara malik sertifikasiyalı qurumlara təhvil verilməklə ərazilərdən kənarlaşdırılıb.

İlin ilk rübündə ASCO-nun sahil obyektləri üzrə 3,7 ton yanmış qəlib qumu, 263,54 ton abraziv (gəmi gövdəsindən çıxan pas-boya-çınqıl-qum qarışığı), 19 min 686 ton məişət çirkab suyu, 265,9 ton neftli döşəməaltı-lyal su, 51,24 ton sürtgü yağı, 1105,19 kubmetr məişət tullantısı (kağız-karton, taxta, əski, şüşə, metal, butulka və s), 204,21 kubmetr qida qalığı, 84,25 kubmetr polimer əsaslı və plastmas tullantı, 14,75 kubmetr yağlı və neftli tullantı, 30,38 kubmetr rezin tullantı, 85,6 kubmetr istismar tullantı və 0,06 kubmetr tibbi tullantı aidiyyəti üzrə təhvil verilib.

Hesabat dövründə, ümumilikdə ,0,16 ton kağız və 0,05 ton plastmas təkrar emala göndərilib.

**Xəzərin Azərbaycan sektorunda bir sıra iri neft və qaz layihələrinin operatoru olan BP şirkəti ölkəmizdə, eləcə də ixrac kəmərlərinin keçdiyi ölkələrdə çoxsaylı sosial sərmaye proqramları icra edir. Bundan da məqsəd region ölkələrinin əhalisi üçün bu layihələr vasitəsilə hiss edilən faydalar yaratmaqdan ibarətdir.**

# BP "sosial missiya"nı davam etdirir




Əvvəlki dövrlərdə olduğu kimi, 2025-ci ilin birinci rübündə də BP və tərəfdaşları Azərbaycan, Gürcüstan və Türkiyədə mühüm sosial investisiya layihələrinin həyata keçirilməsini davam etdirib. Həmin layihələrə təhsil proqramları, yerli icmalarda bacarıq və qabiliyyətlərin yaradılması vasitəsilə yeni imkanların açılması, icmalarda sosial infrastrukturun təkmilləşdirilməsi, maliyyə vəsaitlərinə çıxışın təmin edilməsi və təlim vasitəsilə yerli müəssisələrə dəstək, mədəni irs və idmanın inkişafına dəstək, eləcə də hökumət qurumlarına texniki yardım daxildir.

Cari ilin ilk rübündə BP və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları Azərbaycanda belə sosial investisiya layihələrinə 0,4 milyon dollardan çox vəsait xərcləyiblər. Rüb ərzində bu layihələrə hazırda davam edən 16 təhsil proqramı və yerli bacarıqların yaradılmasını və sahibkarlığın inkişafını dəstəkləyən 1 layihə daxil idi.

Bundan əlavə, BP ayrıca bir şirkət kimi öz adından ölkəmizdə sponsorluq etdiyi layihələrə birinci rüb ərzində 0,2 milyon dollardan çox vəsait xərcləyib. Bunlara hazırda davam edən 13 təhsil təşəbbüsü, yerli bacarıqların yaradılmasını və sahibkarlığın inkişafını dəstəkləyən 1 layihə, ətraf mühit üzrə 5 təşəbbüs və müxtəlif mövzularda 3 konfrans və seminara dəstək olmaqla, ümumilikdə, 22 layihə daxildir.




# "Startap"çı KOB-ların sayı 210-a çatıb

Biznes layihələri inkişaf mərhələsində olan mikro və kiçik sahibkarlıq subyektləri tərəfindən "Startap" şəhadətnaməsi almaq üçün İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) edilən müraciətlərin sayında artım müşahidə olunur.

Bu yaxınlarda KOBİA-da "Startap" şəhadətnaməsinin verilməsi üzrə yaradılmış Ekspertlər Şurasının növbəti iclasında kiçik və orta biznes subyektlərindən daxil olmuş 7 müraciətə baxılıb. Nəticədə, 4 kiçik və orta biznes subyektinə "Startap" şəhadətnaməsinin verilməsi barədə qərar qəbul edilib. Bununla da, ölkədə "Startap" şəhadətnaməsi almış KOB subyektlərinin sayı 210-a çatıb. Bu barədə KOBİA məlumat yayıb.

Bildirilib ki, "Startap" şəhadətnamələri "Smart Soft and Services" MMC-nin "Whatsapp" üzərindən avtomatlaşdırılmış müştəri ünsiyyəti və marketinq həlləri təqdim edən platforması, "Simic App" MMC-nin bizneslər üçün Aİ əsaslı platforması, "Mediatrends" MMC-nin intellekt əsaslı media monitorinq və təhlil sistemi və "Builders and Realtors Unity" MMC-nin beynəlxalq təchizat və şəbəkə platforması layihələri üçün təqdim edilib.

Qeyd edək ki, "Startap" şəhadətnaməsi KOB subyektlərini bu sənədi aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edir.



# Qəbələ də pivə buraxacaq

**Qəbələdə illik istehsal gücü 140 milyon litr olan, beynəlxalq standartlara uyğun texnologiyalarla işləyən yeni pivə və sərinləşdirici içkilər zavodu tikiləcək. Müəssisədə il ərzində 140 milyon litr pivə və sərinləşdirici içkilər istehsalı nəzərdə tutulur.**

"Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin məlumatına görə, Gürcüstanın "Georgian Beer Company" şirkəti ilə icra edilən layihə iki ölkə arasında iqtisadi əməkdaşlığı yeni səviyyəyə yüksəldir. Layihənin həyata keçirilməsi ilə Qəbələ və ətraf rayonlarda yüzlərlə yeni iş yerləri yaradılacaq, yerli iqtisadi fəallıq və ixrac üçün yeni imkanlar açılacaq. Yeni müəssisə ölkənin idxaldan asılılığını azaltmağa və bazardakı rəqabət qabiliyyətini gücləndirməyə imkan yaradacq. Burada istehsal ediləcək içkilər daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək.

# Paytaxt Ulu öndəri ehtiramla anır

**Müstəqil Azərbaycanın memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar paytaxt Bakının idarə və təşkilatlarında, elm, təhsil və mədəniyyət müəssisələrində çoxsaylı anım mərasimləri, aksiyalalar keçirilir. Tədbirlərdə Ulu öndər böyük ehtiramla yad edilir, xalq və Vətən qarşısında tarixi xidmətləri xatırlanır.**

## Daxili İşlər Nazirliyi



DİN-in əməkdaşları və hərbi qulluqçuları Suraxanı rayonu ərazisindəki yaşıllıq massivində keçirdiləri növbəti ağacəkmə kampaniyasını Ümummilli liderin anadan olmasının 102-ci ildönümünə həsr ediblər.

Əvvəlcə polis əməkdaşları və hərbi qulluqçular ərazidə olan bitkilərə qulluq göstərib, yaşıllıq zonasında təmizlik işləri aparıblar. Sonra yerli iqlimə uyğunlaşdırılmış zeytun tinglərini əkib, suvarılmasını təmin ediblər. Tinglərin küləkdən qorunması və normal böyüməsi üçün qoruyucu dirəklər basdırılıb. Ərazinin nəzarətdə saxlanılması, əkilmiş ağaclara mütəmadi qulluq göstərilməsi üçün müvafiq tədbirlər bundan sonra davam etdiriləcəkdir.









## Elm və Təhsil Nazirliyi

Yeni Azərbaycan Partiyası (YAP) Nərimanov rayon təşkilatının Elm və Təhsil Nazirliyi üzrə ərazi ilk partiya təşkilatında Ulu öndər Heydər Əliyevin anadan olmasının 102 illiyi ehtiramla qeyd edilib. Xüsusi vurğulanıb ki, unudulmaz dahi şəxsiyyət hakimiyyətdə olduğu hər iki dönəmdə milli elm və təhsilin inkişafına diqqət göstərib.

Öncə "Heydər Əliyev və Azərbaycan təhsili" adlı videoçarx nümayiş etdirilib. Sonra elm və təhsil nazirinin müavini Firudin Qurbanov dünya şöhrətli siyasətçinin Azərbaycanda dövlət quruculuğu, siyasi sabitliyin təmin edilməsi, ölkənin beynəlxalq nüfuzunun gücləndirilməsi, təhsil və digər sahələrin inkişafı baxımından müstəsna xidmətləri barədə danışıb. Ulu öndərin müəyyən etdiyi inkişaf strategiyasının, təhsil sahəsinə göstərdiyi yüksək diqqətin bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi vurğulanıb.

YAP rayon təşkilatının sədri Elçin Quliyev, nazirliyin maliyyə şöbəsinin müdiri, Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının Elm və Təhsil Nazirliyi üzrə ərazi partiya təşkilatının sədri Rauf Orucov, Bakı Dövlət Universitetinin kafedra müdiri Azad Rzayev və digər qonaqlar ulu öndərin xalq qarşısında misilsiz xidmətlərini qədirbilənlik duyğuları ilə yada salıblar. Çıxışlardan sonra Elm və Təhsil Nazirliyi Ərazi üzrə Partiya Təşkilatının İdarə heyətinin yeni üzvlərinə biletlər təqdim edilib və uğurlar arzulanıb.

## Diasporla İş üzrə Dövlət Komitəsi

Əlamətdar ildönümü ilə əlaqədar olaraq, DİDK-nin əməkdaşları və xaricdəki Azərbaycan icmalarının üzvləri Fəxri xiyabanı ziyarət ediblər. Ulu öndərin məzarı önünə əklil və gül dəstələri qoyublar.

Komitədə keçirilən toplantıda sədr Fuad Muradov çıxışında Ulu öndərin Azərbaycan Respublikasının müstəqilliyinin qorunması və möhkəmləndirilməsində yorulmaz fəaliyyətini xatırladıb, eləcə də Azərbaycan diasporunun formalaşması, vahid diaspor şəbəkəsinin yaradılması üçün Ümummilli lideri yürütdüyü hərtərəfli düşünülmüş, məqsədyönlü siyasətindən bəhs edib. Prezident İlham Əliyevin tapşırıqları, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə milli-mədəni irsimizin qorunub saxlanması, xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə ardıcıl və davamlı işlərin görüldüyün, müxtəlif ölkələrdə Azərbaycan evlərinin açıldığı diqqətə çatdırılıb.

Tədbirdə Ulu Öndərin 100 illik yubileyinə həsr edilmiş "Böyük sənət hamisi" sənədli filmindən bir hissə, həmçinin "Heydər Əliyev və diaspor quruculuğu" adlı videoçarx nümayiş olunub.

Natiqlər böyük lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərini qeyd edib, əvəzolunmaz lider kimi yaddaşlarda əbədi yaşayacağını söyləyiblər.

## Müdafiə Sənayesi Nazirliyi

Fəxri xiyabanı ziyarət edən Müdafiə Sənayesi Nazirliyinin əməkdaşları ulu öndər Heydər Əliyevin ölməz ruhu qarşısında baş əyib, məzarı önünə gül dəstələri qoyublar. Ziyarətçilər məşhur oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını da ziyarət edib, ruhuna dualar oxuyublar.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə nazirlikdə könüllü qanvermə aksiyası keçirilib. Respublika Qan Bankının həkimləri tərəfindən hər bir donorun sağlamlığı yoxlanıldıqdan sonra onlardan qan götürülüb.

## Dövlət İmtahan Mərkəzi

DİM-in İdarə Heyətinin sədri Məleykə Abbaszadə "Bir xalqın taleyini dəyişən ömür: Heydər Əliyev – qəlblərdə yaşayan lider" mövzusunda keçirilən məclisdə çıxış edib.

Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı və RİH-in birgə təşkilatçılığı ilə isə "Bir xalqın taleyini dəyişən ömür: Heydər Əliyev – qəlblərdə yaşayan lider" mövzusunda müzakirələr olub. Ulu öndərin siyasi hakimiyyətə gəlişi ilə Azərbaycan tarixində dönüş nöqtəsinin yaranması, bütün sahələrdə əhəmiyyətli dirçəlişin başlanması, ən mühüm istiqamətlərdən biri olan milli kadr potensialının formalaşdırılması məqsədilə atılan addımlar, həmçinin ulu öndər tərəfindən müəyyən edilmiş strateji inkişaf xəttinin bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi haqqında danışıb.

Dövlət İmtahan Mərkəzinin rəhbərliyi və kollektivi Fəxri xiyabana da gedərək, Ulu öndərin məzarını ziyarət edib, əziz xatirəsinə hörmət və ehtiramlarını bildiriblər.

## ATU

Azərbaycan Tibb Universitetində (ATU) düzənlənən mərasimdə rektor Gəray Gəraybəyli bildirib ki, hər il ölkəmizdə və ondan kənarda Ümummilli liderin anadan olduğu gün təntənə ilə qeyd olunur. "Tələbələrimiz, gənclərimiz tarixi hadisələri bizdən öyrənir. Nə qədər kitablar yazılsa, filmlər çəkilsə, məktəblərdə tarix dərsləri keçilsə belə, kifayət deyil. Bu gün sakit, firavan həyat yaşayan gənclər xalqımızın keçmişdə hansı sınaqlarla üzləşdiyini, Heydər Əliyevin xilaskarlıq missiyasının böyüklüyünü canlı şahidlərdən də eşidib bilməlidirlər.

Ümummilli Liderin həyat yolundan bəhs edən videoçarx izlənildikdən sonra uzun illər Prezident Heydər Əliyevin köməkçisi olmuş, Prezident Katibliyinin rəisi işləmiş professor Dilarə Seyidzadə özəl xatirələrini danışıb. Ulu öndərin xalqına, millətinə, dilinə, dininə, mədəniyyətinə necə bağlı olduğunu konkret nümunələrlə dilə gətirib.

## ADPU

Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) ildönümü münasibətilə "Milli maraqlar naminə siyasi çeviklik: Heydər Əliyev strategiyası" mövzusunda respublika elmi konfransı keçirilib. Əvvəlcə ali məktəbin müəllimi, Azərbaycan Rəssamlar İttifaqının üzvü Vəfa Cəfərova-Allahyarovanın "1001 ahəng" adlı fərdi sərgisi nümayiş olunub.

Konfransı açan ADPU-nun rektoru, professor Cəfər Cəfərov ümummilli lider Heydər Əliyevin müasir Azərbaycan dövlətçiliyinin formalaşmasındakı əhəmiyyətli roluna diqqət çəkərək qeyd edib ki, Heydər Əliyevin təməlini qoyduğu ideyalar müstəqil Azərbaycan dövlətinin əsas ideoloji və siyasi dayağı kimi bu gün də öz aktuallığını qoruyur. Rektor bu cür elmi tədbirlərin gənc nəsildə Heydər Əliyev irsinin elmi əsaslarla öyrənilməsinə və sistemli şəkildə təbliğinə ciddi töhfə verdiyini vurğulayıb.

"Heydər Əliyev – Müstəqil Azərbaycan dövlətinin qurucusu" mövzusunda geniş Sonra məruzələr təqdim olunub. Milli Məclisin Elm və təhsil komitəsinin sədri, professor Anar İsgəndərov və komitənin üzvləri – professor Bəxtiyar Əliyev, dosent Pərvin Kərimzadə, eləcə də professor Samir Vəliyevin məruzələri maraqla dinlənilib.

Konfransın sonunda çıxışlar ətrafında interaktiv diskussiya təşkil olunub.

## Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı

Ulu öndərin məzarının ziyarəti zamanı Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, polkovnik Cəlil Xəlilov çıxış edərək Heydər Əliyevin tarixi xidmətlərinə diqqət çəkib, müasir Azərbaycanın əldə etdiyi bütün uğurların təməlində dahi rəhbərin siyasi kursunun dayandığını bildirib.

Veteranlar, həmçinin iki dəfə Sovet İttifaqı Qəhrəmanı general Həzi Aslanovun məzarını, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin abidə kompleksini, eləcə də Milli Qəhrəman Hökumə Əliyevanın, Respublika Veteranlar Təşkilatının sabiq sədrləri Fatma Səttarovanın, generallar Mustafa Nəsirovun, Tofiq Ağahüseynovun, Dadaş Rzayevin, eləcə də polkovnik Rzaqulu Quliyevin məzarlarını ziyarət ediblər.

## Binəqədi rayonu

"Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" adlı tədbir Binəqədidə maraqla qarşılanıb. Mərasim iştirakçıları əvvəlcə Heydər Əliyev adına istirahət parkında dahi rəhbərin abidəsini ziyarət edib, gənc rəssamların əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Sonra çıxışlar olub. Rayon icra hakimiyyətinin başçısı Elxan Allahverdiyev, deputatlar Məlahət İbrahimqızı, Kamaləddin Qafarov və Səbinə Xasayeva, yazıçı-publisist Şəraf Cəlilli, YAP rayon təşkilatının sədri Vüsar İsmayılov Azərbaycan xalqının böyük oğlu, müasir Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin dövlətçilik tariximizdə böyük uğurlara imza atmasından söhbət açıblar.

Tədbirdə Yeni Azərbaycan Partiyası sıralarına yeni üzv olan gənclərə üzvlük vəsiqələri təqdim olunub. Daha sonra tədbirin bədii hissəsində ulu öndər Heydər Əliyevin sevdiyi musiqilər səslənib.

*Çapa hazırladı:*
***Əli ƏLİYEV***
***XQ***

# Ümummilli liderə həsr olunmuş II kitab festivalı



**Naxçıvan şəhərindəki "Saat meydanı" Turizm İstirahət Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş II kitab festivalı keçirilir.**

Festivala ölkəmizdə fəaliyyət göstərən 30-a yaxın nəşriyyat tərəfindən 30 mindən çox kitab və digər nümunələr çıxarılıb. Alim və pedaqoqlarımız tərəfindən nəşr olunmuş tədqiqat əsərləri, yüzlərlə adda klassik və müasir dünya ədəbiyyatından orijinal dildə və tərcümə olunmuş əsərlər, yerli bədii ədəbiyyat nümunələri, uşaq ədəbiyyatı, dərslik və dərs ləvazimatları, uşaqlar üçün əyləncəli öyrənmə vəsaitləri böyükdən-kiçiyə hər kəsin marağını cəlb edir.

Layihəyə qatılan ölkənin 10-a yaxın tanınmış qələm sahibi festival iştirakçıları ilə səmimi söhbət edib, yeni nəşr olunan kitabları barədə məlumat verib, oxucularına imzalı kitablar təqdim ediblər.

İkinci kitab festivalı 3 gün davam edəcək. Festival çərçivəsində tanınmış yazıçıların kitabsevərlərlə görüşü və kitab təqdimatları təşkil olunacaq, seminar və panel müzakirələri aparılacaq, fləşmob, videoçarxlar, konsert proqramı və atəşfəşanlıq nümayiş etdiriləcək.

***XQ***


## "Sumqayıt Kompressorları" ASC səhmdarlarının nəzərinə!

27 iyun 2025-ci il saat 15.00-da cəmiyyətin illik yığıncağı AR Mərkəzi Bankının "Səhmdarların ümumi yığıncağının məsafədən (onlayn) keçirilməsinə dair təlimat"a uyğun olaraq onlayn qaydada keçiriləcəkdir.

Onlayn platforma: iclasın video qeydiyyatı "ZOOM" proqramı vasitəsilə aparılacaqdır.

Bütün səhmdarlardan xahiş olunur ki, yığıncağın keçirilmə vaxtına 1 gün (24 saat) qalanadək iclasda "online" iştirak üçün müvafiq kod alaraq qeydiyyatdan keçmələrini aşağıda qeyd olunan "WhatsApp" nömrəsi ilə təmin etsinlər. Qeydiyyata düşənlərə proqramdan istifadə üçün iclasa qoşulma linki və müvafiq təlimat göndəriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Səsvermənin nəticələrinin müəyyən edilməsi üçün hesablama komissiyasının yaradılması.
2. Cəmiyyətin illik hesabatlarının təsdiqi.
3. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) seçilməsi.
4. Cəmiyyətin təftiş komissiyasının üzvlərinin (müfəttişin) seçilməsi.
5. Cəmiyyətə qarşı pul tələbinin əlavə səhm buraxmaqla əvəzləşdirilməsi məsələsi.
6. Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinin materialları ilə (50) 255-66-62 "WhatsApp" nömrəsinə sorğu ünvanlamaqla tanış olmaq mümkündür.

2024-cü ilin yekunlarına görə səhmdarlara veriləsi dividendlərin alınması üçün səhmdarlardan öz hesablarını təqdim etmələri xahiş olunur.

Cəmiyyətin hüquqi ünvanı – Sumqayıt şəhəri, Səməd Vurğun küçəsi 1.

## "Yevlax Elektrik Təmir Tikinti" ASC səhmdarlarının nəzərinə!

25 iyun 2025-ci il, saat 15.00-da cəmiyyətin illik yığıncağı AR Mərkəzi Bankının "Səhmdarların ümumi yığıncağının məsafədən (onlayn) keçirilməsinə dair təlimat"-a uyğun olaraq onlayn qaydada keçiriləcəkdir.

Onlayn platforma: iclasın video qeydiyyatı "ZOOM" proqramı vasitəsilə aparılacaqdır.

Bütün səhmdarlardan xahiş olunur ki, yığıncağın keçirilmə vaxtına 1 gün (24 saat) qalanadək iclasda "online" iştirak üçün müvafiq kod alaraq qeydiyyatdan keçmələrini aşağıda qeyd olunan "WhatsApp" nömrəsi ilə təmin etsinlər. Qeydiyyata düşənlərə proqramdan istifadə üçün iclasa qoşulma linki və müvafiq təlimat göndəriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Səsvermənin nəticələrinin müəyyən edilməsi üçün hesablama komissiyasının yaradılması.
2. Cəmiyyətin illik hesabatlarının təsdiqi.
3. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) seçilməsi.
4. Cəmiyyətin təftiş komissiyasının üzvlərinin (müfəttişin) seçilməsi.
5. Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinin materialları ilə (50) 310-35-52 "WhatsApp" nömrəsinə sorğu ünvanlamaqla tanış olmaq mümkündür.

2024-cü ilin yekunlarına görə səhmdarlara veriləsi dividendlərin alınması üçün səhmdarlardan öz hesablarını təqdim etmələri xahiş olunur.

Cəmiyyətin hüquqi ünvanı – Yevlax şəhəri, Şadlınski küçəsi 43.

## "Əli Bayramlı Süni Dəri" ASC səhmdarlarının nəzərinə!

24 iyun 2025-ci il saat 14.00-da Şirvan şəhəri, Neftçilər küçəsi 1 nömrəli ünvanda cəmiyyətin illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin illik hesabatlarının təsdiqi.
2. Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinin materialları ilə (50) 200-40-41"Watsapp" nömrəsinə sorğu ünvanlamaqla tanış olmaq mümkündür.

2024-cü ilin yekunlarına görə səhmdarlara çatmalı olan dividendlərin alınması üçün səhmdarlardan öz hesablarını təqdim etmələri xahiş olunur.

***"Əli Bayramlı Süni dəri" ASC-nin idarə heyəti***

## "Hədiyyələr" ASC səhmdarlarının nəzərinə!

24 iyun 2025-ci il saat 11.00-da "Hədiyyələr" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2024-cü ilin yekunları üzrə cəmiyyətin icra orqanının hesabatının dinlənilməsi və balansın təstiqi.
2. Digər məsələlər.

Səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla 2025-ci il iyun 17-də cəmiyyətin inzibati binasında tanış olmaq mümkündür.

Telefon – 012-560-09-71.

Ünvan – Bakı şəhəri, Nəsimi rayonu, A. Salamzadə küçəsi 31.

## "Sumqayıt Tikinti Xidmət" ASC səhmdarlarının nəzərinə!

24 iyun 2025-ci il, saat 9.00-da Sumqayıt şəhəri, Kimyaçılar küçəsi 55a nömrəli ünvanda cəmiyyətin illik yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin illik hesabatlarının təsdiqi.
2. Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinin materialları ilə (50) 255-66-62 "WhatsApp" nömrəsinə sorğu ünvanlamaqla tanış olmaq mümkündür.

2024-cü ilin yekunlarına görə səhmdarlara veriləsi dividendlərin alınması üçün səhmdarlardan öz hesablarını təqdim etmələri xahiş olunur.

***"Sumqayıt Tikinti Xidmət" ASC-nin idarə heyəti***

## "Yevlax Tikinti – 7" ASC səhmdarlarının nəzərinə!

25 iyun 2025-ci il, saat 9.00-da Yevlax şəhəri, İnşaatçılar küçəsi 43 nömrəli ünvanda cəmiyyətin illik yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin illik hesabatlarının təsdiqi.
2. Cəmiyyətə qarşı pul tələbinin əlavə səhm buraxmaqla əvəzləşdirilməsi məsələsi.
3. Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinin materialları ilə (50) 255-66-62 "WhatsApp" nömrəsinə sorğu ünvanlamaqla tanış olmaq mümkündür.

2024-cü ilin yekunlarına görə səhmdarlara veriləsi dividendlərin alınması üçün səhmdarlardan öz hesablarını təqdim etmələri xahiş olunur.

***"Yevlax Tikinti – 7" ASC-nin idarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 95 (30789) 10 may 2025-ci il, şənbə

# Ulu öndərin xatirəsinə sənət töhfəsi





**Xətai Sənət Mərkəzində “Art&Creativity Club” üzvlərinin və rəssamların ümummilli lider Heydər Əliyevin ad gününə həsr olunmuş rəsm sərgisi açılıb.**

Klubun təsisçisi və rəhbəri Cəmalə Naxçıvani bildirdi ki, sərgidə peşəkarlarla yanaşı, gənc rəssamlar da iştirak edirlər. Burada nümayiş etdirilən rəsmlərdə müxtəlif texnikalardan, yağlı və akril boyalardan və s. istifadə olunmuşdur. Rəsmlərdə Azərbaycanın mədəniyyəti, təbiəti füsunkar rənglərlə əks olunmuşdur.

Sonra Rusiya Markşeyderlər İttifaqının üzvü, şair Eldar Əhədov, “Kistik Fibroz Xəstələrinə Yardım” İB-nin sədri Səadət Bayramova və başqa qonaqlar çıxış etdilər. Ümummilli lider Heydər Əliyevin sənətə və sənətkarlara çox yüksək dəyər verdiyini, Prezident İlham Əliyevin bu missiyanı uğurla davam etdirdiyini vurğuladılar.

Daha sonra sərgi iştirakçılarına sertifikatlar təqdim olundu. Klubun gənc biliciləri üçün isə TV formatında “Nə? Harada? Nə zaman?” intellektual oyunu keçirildi.

Sərginin media dəstəkçiləri “İnnovativ Proqress və Ekologiya Sosial-İqtisadi İnkişafa Dəstək” İctimai Birliyi və “Fortuna” jurnalıdır.

Sərgi iştirakçılarının ürək sözləri:

**Qəmər Ağazadə, rəssam:**

– Bu gün üzvü olduğum klubun sərgisi keçirilir. Burada pedaqoq kimi həm mənim, həm də tələbələrimin əl işləri nümayiş etdirlir. Şadam ki, bu gün belə bir sərgidə iştirak edirik. Klubumuzun hər bir üzvünə və digər iştirakçılara uğurlar arzulayıram. Sərgiyə “Şuşa” və “Aylı gecə” əsərlərimlə qatılmışam. Hər iki əsərimdə ana yurdumuzun zəngin təbiətini və mədəniyyətini təsvir etməyə çalışmışam.

**Kəmalə Nağıyeva, iştirakçı:**

– Mənim qızım bu sərgidə iştirak edir. Buna görə, qızımın müəllimi Cəmalə xanıma və sərgini təşkil edənlərə xüsusi təşəkkür edirəm. 4 adda əsərlə sərgiyə qatılmışıq. Rəsmlərdə dəniz mənzərələrinin təsvirinə daha çox yer verilib. Digər rəsmlərdə isə qədim tarixə malik İçərişəhərin günbəzləri və təbiətin gözəlliyini tərənnüm edən güllər əks olunmuşdur.

Sonda xatırlatmaq istəyirəm ki, müasir dövlətçiliyimizin memarı, ölkəmizin və xalqımızın inkişaf və tərəqqi etməsində danılmaz xidmətləri olmuş dahi şəxsiyyət Heydər Əliyev demişdir: “Xalqı həmişə mədəniyyət birləşdirməlidir. Yüksək mədəniyyətə malik olan xalq hər zaman irəli gedəcək. Həmişə yaşayacaq və inkişaf edəcək”.

Bu fikirlər bu gün də öz aktuallığını qoruyub saxlayır. Bizi güclü edən də məhz mənəviyyatımız, mədəniyyətimiz və milli birliyimizdir.

***Fidan SALMANOVA***
***XQ***

## Beynəlxalq həyat

# Hindistan–Pakistan hərbi toqquşması şiddətlənir



**Hindistan və Pakistan arasındakı münaqişə təhlükəli mərhələyə yaxınlaşır və qarşılıqlı raket zərbələrinin intensivləşməsi və hərbi toqquşmanın miqyasının böyüməyə meyil etməsi beynəlxalq ictimaiyyəti ciddi şəkildə narahat edir. Böyük güclər məsələyə qarışmasalar, iki nüvə dövləti arasında hərbi toqquşmanın dünya üçün nəticələri faciə ilə yekunlaşacaq.**

Bölgədə vəziyyət son dərəcə gərgin olaraq qalır, dünya mediası münaqişənin daha da gərginləşməsinin mümkünlüyü və potensial nəticələrini müzakirə edir. CNN yazır ki, tərəflər Kəşmirdə nəzarət xətti boyunca artilleriya və raket zərbələri mübadiləsi aparmaqda davam edirlər. Hindistan Cammu, Udhampur və Pathankotdakı hərbi bazaları hədəf alan Pakistan pilotsuz təyyarələrini və raketlərini neytrallaşdırğını iddia edir. Pakistan da öz növbəsində Hindistanın 25 pilotsuz təyyarəsini məhv etdiyini və Hindistanın hərbi obyektlərinə cavab zərbələri endirdiyini açıqlayır. Son məlumatlarda hər iki tərəfdən azı 17 mülki şəxsin həlak olduğu bildirilir.

Pakistan hökumətinin yüksək vəzifəli mənbəsi CNN-ə bildirib ki, İslamabad cavab verməDən əvvəl diplomatiyaya yer verir. Mənbənin sözlərinə görə, ABŞ, Səudiyyə Ərəbistanı və digərləri gərginliyi azaltmaq üçün hər iki tərəflə əlaqə saxladıqları üçün müttəfiqləri diplomatiyanı sınamayana qədər Pakistan Hindistanın hücumuna cavab vermək istəmir və Hindistana zərbə endirdiyini təkzib edir. Bununla bağlı Pakistan Müdafiə Nazirliyinin sözçüsü Əhməd Şərif Çaudri də bildirib ki, İslamabad ABŞ-dan Hindistanın iddialarını peyk görüntülərinin təhlili vasitəsilə təsdiqləməyə çağırıb. Bundan başqa, CNN Pakistanın təhlükəsizlik orqanlarındakı mənbəyə istinadən yazır ki, Cənubi Asiya qonşuları arasında qarşıdurma daha geniş münaqişəyə çevrilmək təhlükəsi yaradır.

Dünya liderləri, o cümlədən ABŞ iki tərəf arasında gərginlik artdıqca təmkinli olmağa çağırırlar. ABŞ dövlət katibi Marko Rubio cümə axşamı Hindistanın xarici işlər naziri və Pakistanın baş naziri ilə danışıb. O, ABŞ-ın Hindistan və Pakistan arasında “birbaşa dialoqa” dəstəyini ifadə edib. “Pakistan və Hindistan arasında indiyədək birbaşa əlaqə olmayıb”, – deyən mənbə əlavə edib ki, müəyyən kanallar tərəflərə məlumat ötürürlər.

Bununla belə, beynəlxalq vasitəçilərin səylərinə baxmayaraq, vəziyyət son dərəcə gərgin olaraq qalır. Beynəlxalq ictimaiyyət hər iki tərəfi təmkinli olmağa və diplomatik danışıqlara qayıtmağa çağırır. Amma Pakistanın sabiq xarici işlər naziri Əhməd Ayzaz Çaudri düşünür ki, Hindistanla hər hansı gələcək danışıqlar iki ildən bir təkrarlanan “müharibə dramından” qaçmaq üçün ciddi ilkin şərtlərlə müşayiət olunmalıdır. “Geo News TV”-nin “Geo Pakistan” səhər şousunda danışan sabiq nazir bildirib ki, Hindistanın təxribatlarının bir daha baş verməməsi üçün yazılı təminat alınmalıdır: “Biz qətiyyətli olmalıyıq ki, Hindistanın bu iki illik dramına son qoyulmalıdır”.

O, Modi administrasiyasının Hindistanda siyasi gərginliyi və düşmənçiliyi artırdığını da vurğulayıb. Sabiq nazir, həmçinin dezinformasiyanın görünməmiş səviyyəyə çatdığını söyləyərək, Hindistan mediasını davamlı olaraq yalanlar yaymaqda ittiham edib. Hindistanın Pakistanın suyunu bağlamaq təhlükəsini şərh edən Çaudri isə bunu “qəbuledilməz” və regional normaların açıq şəkildə pozulması adlandırıb: “Hindistanın bir daha belə addımlar atmayacağına dair yazılı və məcburi bir zəmanət olmalıdır”. A.Çaudri daha sonra bildirib ki, iki əsas məqama – Hindistanın döyüşkən ritorikası və aqressiv taktikasına dair təminatlar olmasa, sülh danışıqlarının heç bir dəyəri olmayacaq: “Əgər bu məqamlar üzrə heç bir zəmanət yoxdursa, sülh danışıqlarının davam etdirilməsindən o qədər də fayda görmürəm”.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

## İdman

# Türkiyədə 6 güləş medalı




**Türkiyənin Antalya şəhərində güləş üzrə gənclər (U20) arasında keçirilən “Çempionlar” turnirində Azərbaycan komandası 6 medal qazanıb.**

Yarışda Turan Daşdəmirov (55 kq) və Ayxan Cavadov (60 kq), Tural Əhmədov (63 kq) gümüş medal qazanıblar. Komandamızın digər üzvləri Vədat Qasımlı (60 kq) və İsmayıl Rzayev (97 kq), Elmin Əliyev (82 kq) bürünc medala sahib olublar.

Yığmamız 122 xalla komanda hesabında 2-ci yeri tutub. İran (128) 1-ci, Qırğızıstan (115) isə 3-cü olub. Xatırladaq ki, “Çempionlar” turnirində II dərəcəli beynəlxalq hakimlər Xəyal Əliyev və Kamran Baxışov ədaləti qoruyub.

# Yunanıstanda 6 uşu medalı



**Azərbaycan idmançıları Yunanıstanın Heraklion şəhərində keçirilən ənənəvi uşu üzrə 8-ci Avropa çempionatında yüksək nəticələr əldə ediblər.**

Yeniyetmələrin yarışında Tunar Rüstəmzadə (42 kq) və Azad Hümbətov (52 kq) bütün rəqiblərini məğlub edərək, fəxri kürsünün ilk pilləsinə qalxıblar.

Gənclərin mübarizəsində Xəyal İbrahimov (52 kq) qızıl, Tunar Kərimli (75 kq) gümüş, Mirhəsən İsmayılzadə (60 kq) isə bürünc medal qazanıblar.

Böyüklər arasında isə Yusif Azadi (52 kq) gümüş mükafata sahib çıxıb.

# “Olimpiada–2028” – 2 stadionda açılış olacaq

**2028-ci il Olimpiadasına evsahibliyi edəcək Los-Anceles Olimpiya Oyunları açılış mərasiminin 2 stadionda keçiriləcəyi ilk şəhər olacaq.**




Təşkilatçılar tədbirin 2028-ci il iyulun 14-də “Los Angeles Memorial Coliseum” və “SoFi” stadionunda keçiriləcəyini təsdiqləyiblər.

1932 və 1984-cü il olimpiadalarında da istifadə edilən “Kolizey”-də həmçinin iyulun 30-da bağlanış mərasimi təşkil ediləcək. Bu arena üç Olimpiya Oyunlarında tədbirlərin keçirildiyi ilk məkan kimi tarixə düşəcək.

Paralimpiya Oyunlarının açılış mərasimi isə avqustun 15-də Amerika futbolu üzrə “Los Angeles Rams” və “Los Angeles Chargers” komandalarına evsahibliyi edən “SoFi” stadionunda, bağlanışı isə avqustun 27-də “Kolizey”də olacaq.

Açılış mərasiminin təfərrüatları, o cümlədən hər iki stadionun necə istifadə ediləcəyi hələlik açıqlanmayıb.

***L.AZAD***
***XQ***

✓ ***“Kino Yaradıcıları Faşizmə Qarşı” İctimai Birliyinin (qeydiyyat nömrəsi 1105-Q3-1690) nizamnaməsi, qeydiyyat şəhadətnaməsi, reyestrdən çıxarışı və dairəvi möhürü itdiyi üçün etibarsız sayılır.***

## HAVA

# Abşeronda 29, bölgələrdə 31 dərəcə isti



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən mətbuata bildirilib ki, mayın 10-da Bakıda və Abşeron yarımadasında hava şəraiti dəyişkən buludlu, əsasən yağmursuz olacaq. Gecə və səhər bəzi yerlərdə zəif duman gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 15-18° isti, gündüz 25-29° isti olacaq.**

Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 50-55 faiz olacaq.

Azərbaycanın əksər rayonlarda hava əsasən yağmursuz olacaq. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli lokal leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 14-19° isti, gündüz 26-31° isti, dağlarda gecə 5-10° isti, gündüz 17-22° isti təşkil edəcək.

***Q.QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3459
SİFARİŞ 931
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00